GENERAL VEYSƏL ÜNÜVAR



# NAXÇIVAN: TƏLATÜM VƏ BURULĞANLAR

(1920-1921)

GENERAL VEYSƏL ÜNÜVAR

*Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün anadan olmasının 125-ci ildönümünə*

# NAXÇIVAN: *TƏLATÜM VƏ BURULĞANLAR*

*(1920-1921)*

NAXÇIVAN - 2006

*Elmi məsləhətçi:*
**İsa HƏBİBBƏYLİ,**
*akademik*

*Elmi redaktor:*
**İsmayıl HACIYEV,**
*akademik*

***Türkiyə türkcəsindən çevirən və***
***ön sözün müəllifi:***
**Əbülfəz Aman oğlu QULİYEV,**
*filologiya elmləri doktoru*

General Veysəl Ünüvar. Naxçıvan: təlatüm və burulğanlar (1920-1921). 104 s.

*Kitabda türk istiqlal hərbinin fəal iştirakçılarından olmuş general Veysəl Ünüvarın (1884-1955) xatirələri verilmişdir. O, 1918-ci ildə Naxçıvana gəlmiş Kazım Qarabəkir paşanın başçılıq etdiyi türk ordusunun tərkibində torpağımızın erməni quldurlarından təmizlənməsində iştirak etmiş, daha sonra 1920-1921-ci illərdə Türkiyə Cümhuriyyətinin fövqəladə nümayəndəsi sifətilə burada yaşamışdır. Veysəl Ünüvarın xatirələri Naxçıvan tarixinin az öyrənilmiş səhifələrinin araşdırılmasında önəmli bir qaynaqdır. Kitab tarixçilər və xalqımızın qəhrəmanlıq keçmişi ilə maraqlanan bütün oxucular üçün nəzərdə tutulmuşdur.*

4700000000
053

© "Əcəmi" 2006.

# ÖN SÖZ

Azərbaycan tarixinin yeni mərhələsi müstəqillik dövründən başlanır. Ölkəmiz süverenliyinə qovuşduqdan sonra vətənimizin tarixi milli ideologiyamızın tələbləri əsasında yenidən öyrənilməyə başlamışdır. Bu baxımdan vətən tarixi içərisində bölgəmizin tarixi sovet hakimiyyəti illərində xüsusilə birtətərəfli şəkildə nəzərdən keçirilmiş, bu tarixin bəzi səhifələrinin işıqlandırılması, arxiv materiallarının içtimaiyyətin mühakiməsinə verilməsi üzərində yasaq qoyulmuşdu. Bu səbəbdən də Naxçıvan tarixinin, xüsusilə onun XIX-XX əsrlərinin tarixinin yazılması yarıtmaz şəkildə aparılmışdır. Bu istiqamətdə görülmüş ilk mühüm işlərdən biri 1990-cı illərdə Naxçıvan Muxtar Respublika Ali Məclisinin sədri Vasif Talıbovun 24 mart 1996-cı il tarixli sərəncamı ilə həmin ilin 11-13 iyulunda Naxçıvan şəhərində təşkil edilmiş "Uluslararası qaynaqlarda Naxçıvan" beynəlxalq simpoziumunun keçirilməsi olmuşdur.Bu genişmiqyaslı elmi tədbir Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan diyarının çoxəsrlik tarixinin ideoloji meyllərdən uzaq, tam, bütöv və obyektiv mənzərəsini yaratmaq baxımından geniş imkanlar açmışdır. Bundan az sonra Naxçıvan diyarının XX əsrin əvvəllərindəki siyasi tarixinə işıq tutan "Muxtariyyat ərəfəsində Naxçıvan" kitabı Naxçıvan Dövlət Universitetinin "Qeyrət" nəşriyyatında nəşr olundu.Türkiyə Cümhuriyyəti Ərzurum Atatürk Universitetinin professoru İbrahim Ədhəm Atnurun bu monoqrafiyası Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun tövsiyyəsi ilə çap olunmuşdur. Naxçıvan tarixinin milli ideologiya əsasında öyrənilməsində son dövrlərdə əlavələrlə təkmilləşdirilərək yenidən nəşr olunmuş iki cildlik "Naxçıvan Ensiklopediyası" da mühüm rol oynamışdır.

XX əsrin əvvəllərində Naxçıvan diyarında baş vermiş hadisələrə,xüsusilə erməni zülmü və türk ordusunun bölgəni erməni işğalçılardan xilas etməsi fəaliyyətlərinə işıq tutması baxımından türk generalı Veysəl Ünüvarın 1948-ci ildə İstanbulda nəşr edilmiş kitabı mühüm əhəmiyyətə malikdir. "Naxçıvan:təlatüm və burulğanlar (1920-1921)" adlı xatirələr kitabında dövrün bir sıra siyasi və tarixi hadisələrinə, bu hadisələrin bilavasitə iştitirakçısı olmuş türk sərkərdəsinin baxışı, hadisələrə fərdi nünasibəti öz əksini tapmışdır.

Veysəl Ünüvar 1884-cü ildə Ərzincanda anadan olmuşdur. Hərbi məktəbdə oxumuş, hərbi təhsil almışdır. Türk İslam Ordusunun tərkibində Yəmən müharibəsində, birinci dünya müharibəsındə iştirak etmiş, ondan sonra qurtuluş savaşında cəbhələrdə fəallıq göstərmiş və Kazım Qarabəkir paşanın ordusunun tərkibində 1918-ci ildə Naxçıvanın erməni işğalından azad edilməsi uğrunda vuruşmuş, bölgəni yaxından tanımışdır.

23 aprel 1920-cil də Türkiyə Böyük Millət Məclisinin açılması və Azərbaycanda bolşeviklərin hakimiyyəti ələ keçirməsı, Qızıl Ordunun da regiona gəlməsi, şübhəsiz, türk-sovet münasibətlərinin də dönüş nöqtəsini təşkil etmişdi. TBMM-nin sədri Mustafa Kamal paşa Sovet Rusiyası hökumətinə ilk rəsmi təklif hazırlamış və ünvanına çatdırılmasını Kazım Qarabəkir paşaya tapşırmışdır. Amma Bakıya getmək üçün daha əlverişli olan Batum yolu təhlükəli və bağlı olduğundan Kazım Qarabəkir paşa bu sənədləri Naxçıvan yolu ilə Azərbaycana göndərmək üçün lazımı tədbirlər gördü. Bu tapşırığı yerinə yetirmək məqsədilə 11-ci diviziya qərargah əməkdaşı Veysəl bəy ilə leytenant Kamil bəy və Cəlal bəy 1920-ci il may ayının 6-da Bəyaziddən çıxaraq Naxçıvan üzərindən keçmək surətilə Bakıya yola düşdülər. Ancaq yolda ikən aldıqları əmrə əsasən Veysəl bəy Naxçıvanda qaldı, Kamil və Cəlal bəy isə yola davam etdilər. Mayor

Veysəl Ünüvar elə bu dövrdən etibarən bir müddət öz taleyini türk-sovet münasibətlərinin qurulmasında mühüm bir körpü rolunu oynayan Naxçıvan diyarı ilə bağlamışdır. Bu bölgə Ermənistana qarşı hərbi üstünlüyün təmin edilməsi baxımından mühüm bir strateji əhəməyyət daşıdığından və Azərbaycana açılan yeganə türk koridoru olduğundan hələ 1918-ci ildən Türkiyə və Azərbaycan hakim dairələrinin diqqətini cəlb etmişdi. Naxçıvan sanki yeni bir missiyanı yerinə yetirməyi öz üzərinə götürmüşdü.

Kazım Qarabəkir paşa bölgənin erməni nəzarətindən çıxması və Azərbaycana bağlanması üçün bolşeviklərlə əlaqələrin genişləndirilməsini çox mühüm hesab edirdi. Kazım Qarabəkir paşa 16 iyul 1920-ci il tarixli teleqramı ilə Naxçıvandakı türk hərbi hissəsinin müfəttişi olan Veysəl bəyə tapşırmışdı ki, bolşeviklərlə səmimi münasibət yaradılmasına xüsusi əhəmiyyət versinlər. Bolşeviklərlə yaxın əlaqə o zaman yardıma ehtiyacı olan Türkiyə Cumhiriyyəti üçün çox əhəmiyyətli idi. İlk vaxtlar bölgədə türk ordusunun müfəttişi sifətilə bulunan mayor Veysəl bəy iyul ayının əvvəllərində Naxçıvandakı bolşevik qüvvələrinin və yerli əhalinin dəvətilə erməni basqınlarının qarşısını almaq üçün böyük bir hərbi hissə ilə Araz çayını keçərək Sahtaxtı məntəqəsindən bölgəyə gəldi. Oktyabr ayında isə Veysəl bəy yeni yaradılan Naxçıvan Müdafiə Komitəsinin sədri təyin olundu.Veysəl bəy eyni zamanda Naxçıvanın sərhədlərini erməni hücumlarından qorumaq üçün hərbi işi genişləndirdi, səfərbərlik elan etdi, hərbi tribunal yaratdı.Veysəl bəyin bilavasitə başçılığı və hərbi istedadı sayəsində Naxçıvan bölgəsinin indiki sərhədləri noyabr-dekabr aylarında erməni quldurlarından tamamilə təmizləndi.Bundan sonra Veysəl bəy Naxçıvanda əmin-amanlığın bərqərar olması, təhlükəsizliyin təmin olunması üçün mühüm işlər gördü.

1920-ci ilin sonlarından başlayaraq bolşeviklər Ermə-

nistanda sovet hakimiyyətini qurduqdan sonra Naxçıvanı Ermənistanın tərkibinə qatmaq fikrinə düşdülər və Bahadur Vəlibəyovun başçılığı ilə bölgənin statusunu dəyişmək üçün ciddi iş aparmağa başladılar. Veysəl bəy Türkiyənin bölgədəki nümayəndəsi olaraq onların bu zərərli hərəkətlərinə qarşı mübarizə aparırdı ki, bu məsələyə kitabında da az- çox yer vermişdir. Bu əsnada əhalini sakitləşdirmək üçün Naxçıvana gəlmiş Behbud bəy Şahtaxtinski Vəlibəyovu yarıtmaz fəaliyyətinə görə hərbi inqilab komitəsinin sədri vəzifəsindən azad etdiyini elan etmiş və Naxçıvan camaatına müraciət edərək demişdi ki, siz torpağınızla bərabər öz müstəqilliyinizi istəyirsinizsə, burada güvənə biləcəyiniz yeganə qüvvə Türkiyə əsgərləridir. Xalq isə bu əsgərlər ətrafında möhkəmcə birləşməlidir. Sizin müstəqilliyinizi və torpaqlarınızı ancaq onlar qoruyacaq və bu ağır fəlakətlərdən qurtaracaqdır.

Bu işlərin yerinə yetirilməsində və Naxçıvanın qorunmasında Veysəl bəyin böyük xidmətləri oldu. Bütün bunlara görə də ona, yuxarıda qeyd etdiyimiz kimi, Türkiyənin Naxçıvandakı müvəqqəti fövqəladə nümayəndəsi statusu da verildi. Məhz Veysəl bəyin apardığı siyasi fəaliyyət sayəsində bölgənin ərazi bütövlüyü qorundu və bu xətt 1921-ci ildəki Moskva müqaviləsinin uyğun şərtlərlə imzalanmasına zəmin hazırladı.

Bu görkəmli sərkərdə bölgədə işlədiyi müddətdə baş vermiş hadisələri, müşahidələrini gündəlikdə qeyd etmiş və bu hadisələrin üzərindən bir neçə il keçəndən sonra o gündəlik əsasında xatirələrini qələmə almaq qərarına gəlmişdir. Beləcə mayor Veysəl Ünüvarın "İstiqlal harbimizde bolşeviklerle sekiz ay (1920-1921)" adlı kitabı meydana çıxmışdır. Yeri gəlmişkən, qeyd edək ki, akademik İsa Həbibbəyli kitabdan bəzi parçaları hələ 90-cı illərdə Naxçıvan Dövlət Universitetində nəşr olunan "Fikir" qəzetində çap etdirmişdir.

Diqqəti cəlb edən cəhətlərdən biri budur ki, müəllif kitabının üz qabığında Naxçıvan Came məscidi minarəsinin Andranikin daşnak-erməni quldurları tərəfindən top güllləsi ilə vurulmasının görkəmli rəssamımız Bəhruz Kəngərli tərəfindən çəkilmiş rəsmini vermişdir. Mayor Veysəl Ünüvar sonralar Türkiyənin istiqlal hərbindəki bu və digər fədakar fəaliyyətlərinə görə Türkiyə Cümhuriyyətinin İstiqlal ordeni ilə təltif edilmiş, general rütbəsinə yüksəlmişdir.

Yeri gəlmişkən qeyd edim ki, kitabın dilimizə tərcümə olunub işıq üzü görməsində mənə dəstəklərini əsirgəməyən Türkiyə Cümhuriyyətinin Naxçıvan baş konsulu İsmayıl Səfa Yücəərə, general-mayor Altay Mehdiyevə və polkovnik Cəlaləddin Bacanlıya dərin təşəkkürlərimi bildirməyi özümə borc bilirəm.

Bir məsələni də qeyd etmək istəyirəm. Kitabı dilimizə çevirərkən müəllifin özünəməxsus ifadə tərzinə rast gəldim. Diqqətimi çəkdi. Ona görə də tərcümə zamanı kitab sahibinin üslubunu qorumağa çalışdım.

İnanıram ki, general Veysəl Ünüvarın "Naxçıvan: təlatüm və burulğanlar(1920-1921)" adlı kitabı o dövr Naxçıvanının ictimai-siyasi həyatı ilə bağlı bir çox qaranlıq məqamların üzərinə işıq salacaq, yeni məlumat və faktları ilə tədqiqatçıların marağına səbəb olacaqdır. Oxucular eyni zamanda xain və məkrli erməni qonşularımızın həmişə torpağımıza göz dikdiklərinin canlı, real mənzərəsi ilə tanış olacaq, eyni zamanda onların 1918-1921-ci illərdə dinc və sülhsevər yerli əhalinin–azərbaycanlıların başına gətirdikləri müsibətləri gözləri ilə görmüş bir sərkərdənin dili ilə hadisələrin inandırıcı şəkildə təsvirinin şahidi olacaqlar.

# I

# 1919-CU İLDƏ VAN DOLAYLARINDA ÜMUMİ VƏZİYYƏT

Birinci dünya müharibəsində Osmanlı hökuməti məğlub olmuşdu. Ancaq millət məğlubiyyəti qəbul etmirdi. Xüsusən Şərqi Anadolu qaliblərin ədalətə zidd hökmlərinə, əməllərinə qarşı üsyan və qəzəb halındaydı.Bunu hiss edən doqquzuncu Ordu komandanı mərhum Yaqub Şevki paşa müqavimətin əksik olan vasitələrini bölgəyə gətirib çıxarana qədər atəşkəs şərtlərinə qarşı dirəndi. Təxminən şərqdəki ordunun iki illik ərzaq ehtiyacları ilə bərabər yurd-yuvalarına qayıdan mühacirlərə də kömək imkanlarını hazırladı. Qars, Ərdahan bölgələri bizim tərəfdən tərk edildikdən sonra itilaf* dövlətləri Vilson prinsiplərindən utandıqları üçün yerli türklərin istiqlalını tanıyırmışlar kimi davrandılar. Ayrı-ayrı balaca türk hökümətləri quruldu. Amma müştərək bir hökumət təşkil edilməsinə imkan verilmədi.

Digər tərəfdən Mosul ilə Qars bölgələri arasındakı sahədə on birinci Qafqaz diviziyamızın yerləşdiyi Van və Hakkaridə kürdləri üsyana qaldırıb müqavimət imkanını aradan qaldırmağa, ermənilərin istilaçılıq hərəkətlərini asanlaşdırmağa ciddi cəhd göstərirdilər.

Bütün cənub cəbhələrimizdə ingilislərin apardığı təbliğat ilə ermənilərin Iğdır cəbhəsində söylədikləri söz eyni idi:hər ikisi kürdlər ilə ermənilərin qardaş olduqlarını iddia edirdilər. Beləcə məqsədləri açıqca görsənir, bizim bir şey söyləməyimizə lüzum qalmırdı. Düşmənlərin sözünün mənasını əşirət ağaları, başçıları çox yaxşı başa düşdülər. İngilis-

* I dünya müharibəsində ittifaq dövlətlərinə qarşı birləşən İngiltərə, Fransa və Rusiyadan ibarət olan bir birliyə itilaf dövlətləri adı vetilmişdi. Türkiyə açısından itilaf dövlətləri deyildikdə I dünya müharibəsi sonunda və İstiqlal hərbi sırasinda Anadolunu bölgə-bölgə işqal edən,yunanlıları İzmirdən türklərə hücum etdirən üç dövlət anlaşılır *(Tərcüməçinin qeydi)*.

lərin istismar üçün (Mosul siyasi hakiminin) qızıllarına arxa çevirdilər. Cənub sərhəddimizi qoruyurdular. Təhlükə ancaq şərq tərəfdən gələ bilərdi.

Şərqdə, İranda kiçik bir əşirət rəisi Simiko hiyləgərliyi və cürətliliyi ilə qonşu əşirətləri soyğun məqsədilə öz ətrafında birləşdirmişdi. Bu adam ümumi hərbdən əvvəl bizə qarşı hərəkətlərə başlamış, müharibə zamanı isə vəziyyətin gedişinə uyğun olaraq bir neçə dəfə bizdən rusların tərəfinə və ruslardan bizim tərəfə keçmişdi. 1919-cu ilin əvvəllərində ölkəmizdə yenə oğurluq, soyğunçuluqla məşğul olmağa başladı. Bu adam ingilislərlə birləşə bilməzdi, çünki nəsturilərlə aralarında ağır və vahim bir qan davası vardı.* Ermənilərlə birləşə bilərdi. O zamankı İran hökumətinin isə qəribə bir halı vardı: müharibədən əvvəl baş verənlərdən xəbəri yox imiş kimi davranar və bunları Osmanlı hökumətinin üstünə yıxmaq üçün bəhanə axtarardı. (İran) ümumi hərb müddətində aradan çıxdı, müharibədən sonra isə bizdən 1960 il əvvəlki Part-Roma hüdudunu, yəni Fatih Sultan Məhmət dövründəki Fərat hududunu istədi və 1919-cu ildə qəbul etdikləri bir müqavilə ilə ingilislərin nəzarətinə keçdi. Ona görə də Simiko məsələsində İrandan bir himmət gözləmək olmazdı. Simiko ilə birbaşa görüşüb dil tapmaq mənə həvalə edildi. O gəlmədi. Öz yerinə Şeyxülislamı olan o tərəflərdəki Kürəsin adlı sünnü türkmən əşirəti mollası Siracəddin əfəndini Dir kəndinə göndərdi. Orada ona dünyanın və bizim vəziyyətimizi izah etdim, indi bizim istiqlalımız üçün dünyaya qarşı üsyan etmiş bir millət olduğumuzu, heç bir şeydən çəkinmədiyimizi uyğun bir şəkildə izah etdim. Bundan sonra Simiko ayağını bizdən kəsdi. İranda bir xanlıq qurmağa cəhd etdi. İran hökuməti təhlükəni gördü və Şərəfxana və Xoyda bir birlik saxlamağa məcbur

---

* 1918-ci ilin əvvəllərində Simiko Urmiyə nəsturi rəisi Mir Şasmunu pusquya salıb başının adamlari ilə birlikdə öldürmüşdü.Bunun üzərinə nəsturulər də müsəlman kəndlərini qətliama uğradır, rəvayətə görə 10000 adam öldürülür.

oldu. Biz də bu bəladan xilas olduq, əsl düşmənlə məşğul olmağa başladıq.

1919-cu ildə Ərzurum konqresinin sonunda Kazım Qarabəkir paşa diviziya komandanına çatdırılmaq üçün mənə verdiyi şifahi əmri belə başlamışdı: "Hər tərəfdən mühasirədəyik, yalnız Azərbaycana açıq Naxçıvan pəncərəsi vardır, onun qapanmamasını istəyirəm".

## II
## BƏYAZİD-NAXÇIVAN-BAKI SƏYAHƏTİ

1920-ci ilin yazında ingilislərin qanadları altına aldıqları erməni hökumətinin istila təşəbbüslərinə qarşı şərq cəbhəsi komandanlığı müdafiə hazırlığı aldı. XI Qafqaz diviziyası da birliklərinin böyük bir hissəsi ilə Vandan Doğubəyazid stansiyasına gəlmişdi. Qafqazda Azərbaycanın, Ermənistanın, Gürcüstanın həqiqi vəziyyətləri, hələ Qafqazda bolşeviklərin quru qoşunlarının da olduğu, bizə qarşı necə bir siyasət izləmək niyyətində olduqları, Denikin tərəfdarı olan və Bakıdakı bolşevik hakimiyyətini yıxan erməniləri ingilislərin başımıza bəla edib etməyəcəkləri aydın deyildi. Sözün qısası, Şərq aləmindən bizim davamızın xeyirinə nə kimi amil və ünsürlərdən istifadə edilə biləcəyi haqqında doğru -düzgün bir məlumat əldə etmək məqsədilə Bakı ilə bir əlaqə yaratmaq lazım idi. Şərq cəbhəsi komandanlığı 11-ci Qafqaz diviziyası qərargah rəisinin xüsusi əmrlə Naxçıvan-Culfa yolu ilə Bakıya göndərilməsini əmr etdi. Verilən şifahi əmrdə bilavasitə bolşeviklərin ingilislərlə olan münasibətlərinin müəyyən edilməsinə çox əhəmiyyət verilirdi. Əgər qüvvələri varsa Hindistana, İraqa və hətta Misirə belə hücum edəcəkləri ehtimal olunurdu. Adı dəyişən rus dövlətinin imperialist siyasətinin dəyişməyəcəyinə o zamankı ali komandanlıq dairələrində mövcud olan qənaəti ifadə etməsi baxımından bu fikir diqqətəlayiqdi.

1920-ci il mayın altısında şəxsiyyətlərini illərdən bəri tanıdığım və təqdir etdiyim iş və yol yoldaşlarım leytenant Kamil və Cəlal bəylərlə Bəyaziddən hərəkət etdik. İran hüdudunda hərbi postumuz bizi qarşıladı. İranlılar bizim dürüstlüyümüzdən o qədər arxayın idilər ki, heç bir zaman hüdud mühafizəsi üçün hərbi tədbirə ehtiyac hiss etməmişdilər.

1918-ci ildə Təbrizdə hürriyyət şəhidlərinin anma mərasimində bir nitq söyləyən məşrutə partiyasının rəhbəri Hacı Mirzə Billuri İranın bu hüdud işlərindəki etinasızlığını bu sözlərlə tənqid etmişdi: Osmanlılar bizim canımız, ciyərimizdir. Ancaq orduları Culfadan keçərkən qabaqlarına çıxıb heç olmasa xoş gəldiniz deyən də olmadı.

İki il yarımdan bəri bu hüdudlarda olan əsgərlərimiz İranın bu yoxluğuna o qədər alışmışdılar ki, ön qaraul postunun onbaşısından qəsdən İran postunun yerini soruşduğum vaxt o çaşıb qaldı, heyrətini öz sözləri ilə belə ifadə etdi: İranın da postu olur..?

Qədim zamanlardan bəri məşhur olan Təbriz-Ərzurum karvan yolunun keçdiyi bu ərazidə biz keçməyə yol tapa bilmədik. Maşınımız araba kimi gedirdi. Bütün gecə yağış yağmış və hər tərəf bataqlığa dönmüşdü. Rusların müharibə vaxtı saldırdığı dəmir yolu tamamilə xarab olmuş,yollar kotanla sürülmüşdü. Beləcə ölkənin müdafiəsi baxımından əngəllər qurulmuşdu. Bu bölgədən keçən kənar, yad adamların bir bələdçiyə möhtac olmaması mümkün deyildi. Biz təxmini bir istiqaməti tutub gedərkən bir adam peyda oldu və Qafqaz mühacirlərindən olduğunu və bizə qulluq edəcəyini dedi. Təkid etməyimizə baxmayaraq təmənnasız bizə bələdçilik etdi, yəni Maku sərdarı bizi nəzarət altına aldı. Makuya yaxın Səngər köyündə bizi MaKU sərdarı adından Şəmsəddin xan qarşıladı. Onun əynində sırmalı rəsmi forması və gözəl bir faytonu vardı. Makuda sərdarın oğulları Abbas xan və Balıq xan tərəfindən qəbul edildik. Yemək zamanı məmləkətimiz və bolşeviklikdən bəhs etdik. Anadolunun bolşevik olduğunu eşitdiklərini dedilər.

İndi fikirləşirəm ki, o vaxtkı söhbətlərimiz çox avamcasına və məsumcasına və əsası olmayan boş sözlərimiş. Biz də onlar kimi bu məsələdə cahil idik. Elə bolşeviklər də bu vaxtlardakı ilk zəfərlərini xalqın tərəddüd etməsi və kom-

munizmin cürbəcür izah edilməsi, hər kəsin bu qarışıq dünyada bir xilaskar axtarmağa məcbur olması sayəsində qazanmışdılar.

Mayın 7-də saat 19-da sərdar bizi öz iş otağında qəbul etdi.Boyu enindən uzun, daha doğrusu, bir koridora bənzəyən bu otaqda o, iri bir stulda, ayaqlı bir dəmir sandıq qarşısında oturmuşdu. Lap qabağında sədəfli bir kitab dolabının önündə diz çökmüş bir katib sərdarın dediklərini yazmağa hazır vəziyyətdə gözləyirdi. Otağı iki dənə qırxlıq qaz lampası işıqlandırırdı. Bundan əlavə, sərdarın qarşısındakı metal sandığın üstündə cızıldıya-cızıldıya bir şam yanırdı. Sərdar məsələni türkcə söylədi, katib farsca qələmə aldı. Oxuduqdan sonra gəldi, sərdarın stolunun üstündəki möhürü götürüb möhürlədi.

Ertəsi gün düşdüyümüz Dizə kəndində qonaq olduğumuz evdə bir çox türkcə kitablar gördüm.Kəndlilərin türkcə yazdığını görmədim. Halq türk olsa da məzhəbə görə bir-birindən fərqlidirlər. Hələ 1918-ci ildə İranda olduğum zaman bu qənaətə gəlmişdim. Bu səfər bu kənddə məzhəb yolu ilə aparılan təbliğatın əmələ gətirdiyi pis fikirlərin şahidi oldum.

Ev sahibi qoca bir adamdı. Şahların zülmündən,istibdadından bir xeyli bəhs etdikdən sonra coşdu, qəzəbləndi, boyun damarları şişdi, qışqıra-qışqıra dedi:

–Elə şahın sülaləsi həzrəti-Hüseynin başını kəsən məlun şümürün qəbiləsindəndir. Onun xəncəri indi də bu qəbilədədir. Bu qəbulə bu xəncərdən yaxa qurtara bilməz, suya salsalar da, qırsalar da, yandırsalar da, xəncər yox olmaz, yenə gəlib qəbiləni tapar.

1914-cü ildə hələ dava başlamamışdı, bir kəşfiyyat tapşırığı ilə sərhəddə dolanarkən Zanzak kəndində qulaq asdığım qoca erməni xatırladım. O da eyni hiddətlə, qəzəblə qışqırmışdı:

–Ancaq Sarıqamış tərəflərdə keçmişdə bizim qırx min kilsəmiz vardı.

1920-ci il 9 may tarixində səhər tezdən Dizədən yola düşdük.Şahtaxtının tam qarşısında və Arazın qərbində Maku sərdarının sərhəd kəndi olan Ərəblər* yaxınında maşınımız qırıldı. Buranın hakimi və sərhəd komandiri sərdarın oğlanlarından 22 yaşlı Əliqulu xan bizi qarşıladı, qonaq elədi. Maşınımızın təmirini boynuna götürdü,bizi öz maşını ilə yola saldı.Ərəblər kəndində diviziya komandanlığından aldığım farsca bir teleqrafda–"əmr yoldadır, gözləyin"–deyə yazılmışdı.

---

* İran İslam Respublikasının Qərbi Azərbaycan ostanına daxil olan bu sərhəd məntəqəsinin adı indi dəyişdirilmiş, Poldəşt olaraq qəbul edilmişdir *(Tərcüməçinin qeydi)*.

## III
## NAXÇIVAN

Saat 13.30-da Araz körpüsünü keçdik və şahtaxtlıların səmimiyyəti ilə qarşılandıq. Buranın ziyalılarından İbrahim ağa hamı kimi bizi də qonaq elədi. 1918-ci ilin yayından tanıdığım İbrahim ağaya Qafqazın ən iri adamı deyərdilər. Kommunist Behbud Şahtaxtinskinin qohumu və bölgənin sayılan varlılarından idi.

10 mayda səhər şərurluların dəvətinə görə qatarla Yengicə qəsəbəsinə getdik. Qayıdanbaş paravoz xarab oldu. Naxçıvan stansiyasına mayın 10-da, səhər saat birdə yetişdik. Farsca teleqrafla əmr gəldi. Mənim Bakıya getməyimə ehtiyac qalmamışdı. Əmr gərəyincə mayın 10-da leytenant Kamil və Cəlal bəyi Bakıya yola saldım.

Araz Türk Hökuməti qüvvələrini və təşkilatlarını nümayiş etdirmək məqsədilə məmləkətdə bir səyahət proqramı hazırladı. Şimal tərəfdəki Dəvəliyə, cənub tərəfdəki Culfaya qədər gedib çıxdıq. Stansiyalarda xalq və əsgərlər məsud, rus və erməni təzyiqindən xilas olduqlarının nəşəsi içində bizi məhəbbətlə salamladılar. Dəvəlidə yeddi taburlarını, Yengicədə Şərur taburlarını təftiş etdik. Dəhnə boğazında xarab olmuş erməni hərbi qatarında ərzaq gördük. Gecə Məşədi Hüseynin evində qonaq qaldıq. Bu şəxs Şərur türklərinin qəhrəmanı sayılırdı. O, Ermənilərə qarşı keçirilmiş döyüşlərdə malı və canı ilə böyük fədakarlıq göstərmiş, cəsarət və şücaətlə döyüşmüş bir ağsaqqal idi.

16 mayda stansiyada məktəb şagirdləri,"Millətə müraciət"* şeir pasrçası ilə bizi yola saldılar. Şahtaxtındakı dostlarımızla vidalaşaraq Bəyazidə yola düşdük. Gələndə olduğu kimi qayıdanda da sərdarın məhəbbət nümayişinə şahid olduq.

* Məşrutiyyətdə Türkiyənin ibtidai məktəblərində oxunan "Anadolu yavrusu" kitabını Qafqaz türkləri də qəbul etmişdilər.

## IV
## ARAZ TÜRK HÖKUMƏTİ

Rus inqilabından sonra təşəkkül edən Araz Türk hökuməti Ordubaddan Gernibasar bölgəsinə qədər dağlarla Araz çayı arasındakı ərazini əhatə edirdi. Dərələyəz məntəqəsindən Şuşa və Cavanşir vasitəsilə Gəncə ilə əlaqəyə malikdir. Buralarda hər yerdə türklər sayca çoxluq təşkil edir. Keçmişdə orada da Türkiyədə olduğu kimi sənətkarlıq və ticarət ermənilərin əlində idi. Onların çoxu şəhər yerində yaşayırdı. Rus ordusunda əsgərlik öyrənirdilər. Türklər daha çox kənd təsərrüfatı ilə məşğul olur, ticarətdə də onlardan o qədər geri qalmırdılar. Gerilikləri milli təşkilastlanma baxımından daha bariz şəkildə gözə çarpırdı. Qədim dövrün Şərq-Qərb böyük karvan yollarının birinin üstündə olması, həm də Şimal-Cənub istiqamətində ən əlverişli keçid yeri olması Naxçıvanın əhəmiyyətini artırırdı. Kimmerlər, iskitlər (saklar) buralardan keçmişlər. Xəzər türkləri ilə ərəblər arasındakı müharibələrdə ordular buralardan keçmişlər. Lap qədim dövrlərdən bəri buralar türklərlə məskundu. Miladdan əvvəl Van dolaylarına iskan edilmiş haylar tədricən istila yolları üzərindən Göyçə göl dağlarına doğru çəkildilər. Naxçıvan sıra ilə Teymurləngə, qaraqoyunlu, ağqoyunlu padşahlarına qərargah oldu. Ağqoyunlular Şah İsmayıl Səfəvi ilə Naxçıvan yaxınlığında çırpışdılar. Yavuz (sultan Səlim) Təbrizdən qayıdarkən, IV Murad Təbrizə gedərkən buradan keçdi. Bu bölgə türklər üçün ideal bir yurd idi:subasar düzləri Araz çayının iki tərəfində yüksək yaylaları həm əkinçiliyi, həm də heyvandarlığı asanlaşdırırdı. Dəniz səviyyəsindən 700-800 metr yüksək olmasına baxmayaraq istisi çox olur. Düyü, pambıq, şərab, taxıl, duz başlıca məhsullarındandır.

Ruslar 1828-ci il Türkmənçay müqaviləsi ilə Rəvan və

Naxçıvan xanlıqlarını pəncəsinə keçirdilər.I dünya müharibəsindən əvvəl əhalisinin sayı 180 000 nəfər idi.Türkiyə-Rusiya müharibələrində ermənilərin bir çoxu Türkiyədən çıxarılaraq buralara gətirildi. 1829-cu ildə 40000 adam çəkdilər. Erməni kəndlərinin çoxu qədim türk adları ilə xəritələrdə əks olunmamışdır. Yenə I dünya müharibəsindən əvvəl rəsmi statistika bu bölgədə 19000 türk, 3700 erməni ailəsinin olduğunu göstərirdi.

1905-ci ildə Rusiyada meydana çıxan erməni iğtişaşları türklərin gözünü açdı. İran inqilabı,sonra Türkiyədə məşrutiyyətin elanı, Rusiyada dövlət dumasının meydana gəlməsi qafqazlıları cəsarətləndirdi. Türkcə bir çox qəzetlər nəşr edilməyə başlandı. Bu qəzetlər sayəsində bir canlanma meydana gəldi, onların mədəni səviyyələri yüksəldi,ictimai ədalət fikri də inkişaf etdi.

Qafqaz türklərinin xalqları arasında dil fərqi, ləhcə, dialekt fərqi yoxdur. Bir Bakı kəndlisi ilə Naxçıvan kəndlisinin və bütün şəhərlilərin və İran Azərbaycanının oxumuş, oxumamışlarının, təhsil görmüşlərinin və təhsil görməmişlərinin dili eynidir. Qəzetlər zəhər kimi tənqid yazardılar. Milli məsələlər haqqındakı yazılardan bəzi nümunələr ("Molla Nəsrəddin"* satira dərgisindən):

1. Milli tərbiyə haqqında: İndi mənim yadıma düşür ki, analarımız əziz balalarını sevəndə və əllərində yuxarı atıb tutanda həmişə belə belə vətənpərəst nəğmələr oxuyurlar:

Mamani hay mamani
Eşşəklərin samani
Hani balamın tumani
Tumanı ağacın başında

* Müəllif oxucuda Azərbaycan haqqında daha dolğun təsəvvür yaratmaq məqsədi ilə Azərbaycan türkcəsi ilə (anlaşılmayan sözlərin izahını vermək şərti ilə) o dövrün məşhur və populyar satira jurnalı "Molla Nəsrəddin"dən aşağıdakı nümunələri verməyi məqsədəuyğun hesab etmişdir *(Tərcüməçinin qeydi)*.

At gətirin yendirin
Dayısı evinə göndərin

Sonra haman uşaqlar böyüyüb qocalarlar və axırda adama oxşar bir şey olarlar.

2. Milli müəssisələrə biganəlik:–İncinar Fərrux bəy hər bir dövlətindən savayı Qarabağda yarım milyonluq bir kəndi var ki, adına Hind arxı deyərlər. Bu kənddə balaca bir məktəb var. Uşaqların bir neçəsi yerdə həsir üstündə, bir neçəsi sınıq taxta üstündə oturub dərs oxuyurlar. Hərdən bir Fərrux bəy gələr kəndə,yazıq müəllim cırıq-mırıq paltarlı ayaqyalın uşaqları yığıb urus saldatları kimi aparıb düzər ağanın qapısına. Fərrux bəy çıxan kimi uşaqlar urus saldatları kimi birdən baş endirəllər. Sonra müəllim dilənçi kimi əlini açar Fərrux bəyin qabağına:

–Aman günü, ay ağa, bizə rəhmin olsun, bizə bir az kömək eylə.

Bəy hirslə cavab verir:

–Mən məktəbə bir kəpik verməm.

Dərgi (orijinalda qəzet) səbəbini belə izah edir:

Bir gün Fərrux bəyin anası oturmuş imiş akuşkanın qabağında, yeddi-səkkiz yaşında burnu fırtıxlı cındır-mındır məktəb uşaqları keçəndə xanıma baş əymirlər. Xanım Fərrux bəyə şikayət eyləyib ki, bu uşaqlar bir az da oxusalar daha bizə qul kimi itaət etməyəcəklər. Fərrux bəy zehinli adamdı, doğrudan da bilir ki, kəndlilər oxusalar gözləri açılacaq,o zaman işlər bir az özgə cür olacaq.

3. Varlılar və kasıblar: "Molla Nəsrəddin"in "Təzə həyat" qəzetəsində çıxan torpaq məsələsinə aid məqaləsinə cavabı.

Axırda "Təzə həyat" bunu da deyir:

Mülkədarlar gərək rəiyyətə pişrəvilik edib hər yerdə onun təlim və tərbiyə işinə tərəqqi və təməddün meydanına gəlməyinə səy etsin. Biz bu işlərin hamısını mülkədarlara

peşkəş elədik. Ancaq mülkədarlar kızkı (?) ellərinə ova gedəndə küçədə görüb deməsinlər: a köpək oğlu niyə mənə baş əymədin. Bircə bunu deməsələr kifayətdir. Qalan işlər hamısı mülkədarlara qurban olsun.

4.Ruslaşma məsələsi:–Rusiyada məşrutiyyət elan edildikdən sonra müsəlmanların hər yığıncağında biri ayağa qalxıb: "hökumət məktəblərdə qoymur ana dilimizi öyrənək" deyir, "Molla Nəsrəddin" onunla əlaqədar bunları yazır:

"Hələ məzəsi budur ki, bu nitqlər urus dilində söylənir. Bu sirdən də indiyədək heç kəs baş aça bilməyib. Bir saatlığa tutaq ki hökumət qoymur. Bəs ana dilimizi istəməyi, ana dilimizə məhəbbət etməyi, ana dilimizdən xoşlanmağı kim qoymur? Rus məktəblərində oxumuş iki müsəlman görmədim ki, bir-birilə müsəlmanca danışsınlar. Bəs kim bizi öz dilimizdən utanmağa, öz dilimiz ilə danışmağı ar bilməyə vadar edir? Hökumət nə vaxt müsəlmanı məcbur edib qızının adına Fatma əvəzinə Fatya qoysun, oğlunun Hasan adını dəyişdirib Qasanka eyləsin?

Dil məsələsində hökumət ermənilərə etdiyi rəftarın onda bir hissəsini bizə etməyib, 1883-də bağlanan erməni məktəbləri ancaq bir neçə il irəli açıldılar... İndiyə kimi heç kəs görməyib ki, iki oxumuş erməni bir-birilə rusca danışsın.

5. Erməni məsələsi:

Bi mərhəmət ayanlarına şükür xudaya
Bu sahib milyanlarına şükür xudaya
Millət qəminə baxmayan anzari-kərəmlə
İşani-zişanlarına şükür xudaya

İş bilməyən ancaq yemək içməkdən əlavə
Bu canlı dəyirmanlarına şükür xudaya
Bidad biradərlə olan qanına qəltan
Qafqazdakı qurbanlarına şükür xudaya

Xassə Bakı şəhrində o şöhrətli məkanda
Dərya tək axan qanlarına şükür xudaya
Xunxar olan əfradı beni nevinə daim
Bu vəhşi qarranlarına şükür xudaya

Qurd isə şağal isə biyabanda olurdu
Şəhr içrə bu heyvanlarına şükür xudaya
Gözlənməyən ədnalığın icadına ciddən
Himmət edən insanlarına şükür xudaya

Sakit oturan böylə cinayətlərə qarşı
Bu sahib vicdanlarına şükür xudaya
Bilməm nə zaman kahrın edər aləmi bərbad
Səbretdiyin avamlarına şükür xudaya

6. Sünnü və şiə məsələsi.–Sünnülərlə şiələr bir-birlərini sevməzlər, bir-birlərinə nifrət edərlər. Çar zamanında ruslar bu nifrətin davam etdirilməsini idarəçilik proqramına daxil etmişdilər. Məktəblərdə rus müəllimlər sünnü tələbə ilə şiə tələbənin bir-birilə danışmasını,bir yerdə gəzməsini qadağan etmişdilər. Bu görüşlər nəticəsində islamlar arasında nifrətin azalacağından qorxurdular... Qəzetlər acı-acı şikayət edirdilər.

## V
## ARAZ TÜRK HÖKUMƏTİNİN AZADLIQ MÜBARİZƏSİ

1917-ci il inqilabı rus boyunduruğu altındakı millətlərin istiqlalını elan etmələrinə bir fürsət yaratdı.Ermənilər çox tez bir zamanda birdən-birə Ərzincandan Gəncəyə qədər hakim olduqlarını zənn etmişdilər. Rus ordusundakı başqa millətlər evlərinə qayıtmış,ordunun bütün silah və təchizatı erməni əsgər və zabitləri ilə bir yerdə daşnaqların əlinə keçmişdi. Bəli, bu bir yuxu deyildi. Sanki allah istədiklərinin imkansızlığını ermənilərə felən göstərməyə iradə etmişdi.

Rus istilasının səbəb olduğu böyük itkiyə və geniş ölçüdə mühacirətə baxmayaraq, Şərqi Anadolunun dağlıq bölgələrinə sığınmış olan türklər və müsəlmanlar bu erməni qüvvələrini şərq vilayətlərimizdən sürüb çıxartmağa kifayət etmişdi. Üçüncü ordu komandanblığı qarşısında bir ordu olduğunu zənn etmişdi. Könüllülərin köməyini nizamlamaq üçün cəbhənin o biri tərəfinə mərkəz yaratmaq üçün zabitlər göndərmişdi. Ordu bir qədər gec hərəkət etdikdən sonra yalnız yüngül bir neçə tabur, bir neçə alay böyük şəhərlərimizi təmizləmə əməliyyatı üçün kafi hesab edilmişdi. Ermənilər Arpaçayına və digər yerlərə qədər bir müqavimət, bir qabiliyyət göstərə bilmədilər. Qarakilsədə əsas erməni ordusu məhv edilərkən məşhur quldur Andranik ağanın komandanlığı altında bir erməni qoşun hissəsi "rus mirası" deyərək İranın Xoy, Urmiyə ətrafını nəzarət altında saxlayırdı.

II diviziya İrana Araz boyundan keçərkən Naxçıvan yerli türklərin əlində idi.Ermənilər Qaratəpə civarında Yuxarı Noraşen* ilə Naxçıvan şəhəri arasında mühasirə vəziyyətində idilər. Bunlar quldur dəstələrinin təlimatı çərçivə-

* Müəllifin Yuxarı Noraşen olaraq qeyd etdiyi toponim Şərur rayonunda indi Oğlanqala kəndi adlanır *(Tərcüməçinin qeydi)*.

sində böyük Ermənistan xəyalı ilə türkləri hakimiyyət altına almaq üçün dayaq nöqtələri yaradaraq erməni ordusunu gözləyirdilər. Türklərun müqavilə təklifini ermənilər rədd etmişdilər. O zaman Naxçıvan istiqlalını qazanmışdı, əldə etmişdi.

1918-ci il atəşkəsindən sonra ermənilər ingilislərin köməyinə arxalanaraq Şərqi Anadolu ilə birlikdə Naxçıvan bölgəsini yenidən zəbt və istila etmək iştahına düşdülər: 10 dekabr 1918-ci il tarixində də qəfildən Araz türk hökümətinə qarşı hücuma keçdilər. Polkovnik Doluxanovun komandası altında erməni alayı Araz vadisi boyunca qanlı izlər qoyaraq Noraşen istiqamətində irəliləyərkən quldurbaşı Andranik Dərələyəz, Zəngəzur bölgələrində Türk və islam kəndlərini talan və qırğına uğradaraq təhdid edirdi. Doluxanovun keçdiyi yerlərdə etdiyi zülmü eşidən xalq çoluq-cocuqlarını İran tərəfə keçirdir və müdafiəyə hazırlaşırdılar. Amma hərbi təşkilatlanmadan məhrum,işləyib başını dolandırmaqdan başqa nöqsanı olmayan bu xalq bərabər olmayan şərtlərlə mübarizəyə atılarkən İrana müraciət etdi.

İran höküməti 25 dekabr 1918-ci ildə ikisi müsəlman, ikisi erməni olmaqla İrəvana bir heyət göndərdi, təcavüzün dayandırılmasını tələb etdi. Digər tərəfdən naxçıvanlılar da bu vəziyyəti Şərura girmiş olan erməni alay komandirinə bildirmək üçün bir heyət göndərdi, nahaq qan tökülməsinə yol verilməməsini xahiş etdilər. Doluxanov heyət üzvlərini dinlədikdən sonra onları həbs etdi və dərhal Noraşen, Yengicə qəsəbələrinə hücuma keçdi... O, hökumətlərin məsələyə qarışmasından əvvəl işi həll etmək istəyirdi. Amma türk xalqının müqaviməti ilə qarşılaşdı, məğlub oldu, Dəvəli stansiyasına, İrəvanın yaxınlarına qədər qovuldu. İranın işə qarışması və türklərin müdafiə əzmi qarşısında erməni təcavüzü bir müddət dayandı.

Azərbaycan hökuməti Naxçıvan bölgəsi ilə yaxından

əlaqə saxlayır, onu özünün bir parçası olduğunu bəyan edir... İngilislər isə bu bölgəni ermənilərə verirdi. Amerikalılar da başqa cür düşünür. Amerikalı Haskel tərəfindən Azərbaycan Cümhuriyyətinin başçısına və Ermənistanın baş nazirinə ünvanlanmış Naxçıvanın idarə edilməsi haqqında bir məktub 22 sentyabr 1919-cu ildə "Azərbaycan" qəzetində nəşr edilmişdi. Bu yazıya görə 29 avqust 1919-cu ildə Haskelin Azərbaycan Cümhuriyyətinin başçısı ilə razılığa gəldiyi əsas maddələrin mühümləri bunlardı:

1. Naxçıvan, Şərur bölgələri bitərəf elan ediləcək. Bu bölgə bir amerkalı baş valinin idarəsində olacaq, yerli vəzifə sahiblərini bu vali təyin edəcək.

2. Azərbaycan və Ermənistan bu bölgədəki məmurlarını, əsgərlərini, araqızışdıranlarını geri çəkəcək.

3. Böyük Vedi müsəlman kəndinin əhalisi bitərəf bölgədə baş valinin münasib bildiyi bir yerə köçürüləcək.

Bu anlaşma həyata keçməmişdir.

Ermənilərin təkbaşlarına Naxçıvan bölgəsini işqal edə bilməyəcəyini yəqin edən ingilislər 1919-cu ilin dekabr ayında erməni əsgərlərini hind əsgərlərinin mühafizəsi altında Naxçıvan bölgəsinə gətirir, qarnizonlara yerləşdirirlər. İngilislərin bundan məqsədi nə idi? Bölşeviklərin qarşısından geri çəkilərkən bu yolu əmniyyət altına almaq mı idi, yoxsa daha mühüm bir siyasət mi nəzərdə tuturdular?

İngilis himayəsində çox zəif, ancaq ala bildiyinə imperialist bir millət adından Şərqi Anadoluya hakim olmaq kimi şirin bir xəyala düşmüşmü idilər? Qəti bir şey demək mümkün deyil, amma hər halda Sevr andlaşması üçün cəhd etmək bu deməkdi.

Bu xəyal erməniləri də coşdurmuşdu. İllərdən bəri Sason dağlarında oturub həsrətində olduqları ingilis köməyi gerçək olmuşdu, çiyin-çiyinə gedirdilər.

Hindlilərin həmişəlik ermənilərə mühafizəçilik etməsi

mümkün deyildi. Bir gün bunlar çəkilib getdilər və çox keçmədən yerli əhali hərəkətə gəldi. Bir gecədə bütün qarnizonlar eyni anda basqın edilərək dağıdıldı.Takviyə qüvvələri silah və sürsat gətirən bir qatarı relsdən çıxardı,qırx pulemyot ələ keçirildi. Ermənilərin arası kəsilməyən hücumları geri oturduldu. Artıq ermənilər Naxçıvana hücum edə bilmirdilər. Şimal sərhəddində yaşayan qəhrəman vedililər səngər rolu oynayırdılar. Vediyə bizim Vedi deyirdilər.

# VI
# NAXÇIVAN ŞURA HÖKUMƏTİ

Mən Naxçıvandan ayrıldığım zaman orada vəziyyət çox yaxşı idi. Nizamlı təşkilatları, qüvvələri, birlikləri qibtə ediləcək dərəcədə idi. Nəşələrini ancaq yaxınlaşmaqda olan rus təhlükəsi pozurdu. Bolşevikliyin nə olduğunu bilən yox idi. Bunu məmləkətdə aclıq və səfaləti yox etmək, hər kəslə insan kimi rəftar etmək olaraq zənn edirdilər. Naxçıvanlılar bu insani münasibəti şüar olaraq qəbul etmiş, Rusiyadan gəlmiş bir qrupa ehtiram göstərmiş,onları qonaq etmiş,öyüd-nəsihətlərinə diqqətlə qulaq asmışdılar.

Kommunist mitinqi: Mən orada olanda kommunist Behbud* Şahtaxtinskinin təşəbbüsüylə bir mitinq keçirilməsinə qərar verilmişdi... O zaman bizim kimi hamı nağaranı uzaqdan dinləyirdi: bu nağaraya görə bolşeviklər ədalət, insaf və şəfqət mücəssəməsi idilər, zalımların taxtını başına çevirmişdilər. Dünya cənnəti, qızıl əsr yaradacaqdılar. Azərbaycan faciəsi hələ oynanmamışdı. Rusiyada baş kəsənlər də millətlərə zülm edən və firavan həyat sürən çarın tərəfdarları idi.İngilisləri dünyanın xain və alçaq adamları kimi qələmə verirdilər. Budur, ustaca təbliğatın yaratmış olduğu ab-hava içində bir yaxşı adamlar mitinqi olacaq və kommunistlər tərəfindən nitqlər irad ediləcəkdi. Mən, vali Qarabəy, hərbi nazir və baş komandan vəzifəsində olan gənc,odlu-alovlu, cəsur bir insan olan Kalbalı xan ilə birlikdə bu mitinqdə iştirak etdik. Mitinqə ancaq 200 adam gəlmişdi. Kalbalı xanın evindən bizə oturmaq üçün stul gətirdilər. Əlbəttə, bolşevik

* Behbud yoldaş 1921-ci ildəki Qars konfransında Azərbaycan təmsilçisi idi. Müqavilənin imzalanması mərasimindən sonra qonaqlara bir ziyafət verildi. Behbud Şahtaxtinski ziyafətdəki nitqində bu diqqəti cəlb edən sözləri söyləmişdi: "Azərbaycan Türkiyə ilə Rusiya arasındakı əlaqənin bir halqasıdır. Şərqin oyanması üçün keçəcək insani məqsədlərin bir körpüsüdür. Halqadır iki tərəf asılmış çəkir. Bir körpüdür. Ruslar üstündə at qoşdurur." Bu sözlər ilk nəsil kommunistlərinin səmimiyyətini və necə aldadıldıqlarını göstərir.

mitinqi apararkən bizim stulda oturmağımız xoş olmazdı. Birinci Behbud yoldaş bir nitq söylədi. Zavallının təhsili rusca olub, özü də rus mühitində yaşamış olduğu üçün türkcəsi o qədər yaxşı deyildi. Behbuddan sonra təbrizli bir yəhudi kommunist söz aldı. Tovfiq Fikrətin "Qılınc" şeiri ilə sözə başladı. İran osmanlıcası ilə (türkcəsi mənasında işlətmişdir) danışdığı üçün xalq bir şey başa düşmədi. Bundan sonra ağ sarığı və xaki əbası olan Əhməd Mirzə Əli kanapenin (divan?) üzərinə çıxdı. Müsəlmanlar arasında aparılan bolşevik təbliğatının mənbəyini ifşa edir kimi danışdı: "Şura ilə, məşvərət ilə idarəçilik islamda əsasdır. Həzrəti ALLAH belə Adəm peyğəmbəri yaratmazdan qabaq məlaikələri yığdı, bu cür bir adam yaradacağam, sizin fikriniz necədir, deyə sual elədi",–dedi. İndiyə qədər türk birliyi üçün gizlicə çalışdıqlarını, bundan sonra hər millət sərbəst olduğu üçün də bu gündən etibarən cəmiyyətlərini meydana çıxaracaqlarını söylədi. Türk ordusuna, Mustafa Kamal paşaya, Kazım Qarabəkir paşaya dualarla sözünü qurtardı. Mirzə Əli axund sözlərində ciddi və səmimi idi. Azad fikirli, zülmə, pisliyə düşmən, təmiz ürəkli bir türkdü.

Bundan sonra Kalbalı xan: "daha kim danışmaq istəyir",–deyə soruşdu. Çal bığlı kök və tösmərək bir adam Kalbalı xana üzünü tutaraq "mən çıxım orada nə söz danışım, Qızılları yığıb aparmısan. Gətir o qızılları camaata vermi,–deyim" deyincə ətrafdan "ağıllı danış" deyərək o adamın sözünü kəsdilər və götürüb apardılar. Bu da bolşevikliyi anlamağın başqa bir təzahürü.

Bolşeviklər hələ Cənubi Qafqaza gəlməmiş Çingiz xanın, Teymurləngin dərvişləri kimi bəzi kommunistlərini ölkənin hər yerinə yollamışdılar. Bunlar birinci dəstə idi. Bunların vəzifəsi bolşeviklərə rəğbət oyatmaq, keçmiş rus zülmünü unutdurmaq, bolşevizmdən rifah və xoşbəxtlik ümidində olmaq surətilə millətlərin Hariminə (?) girəcək gədiyi

aşmaqdı. Bunlar ehtimal ki etdiklərinin fərqinə varmırdılar. Səmimi, həqiqətpərəst, doğruluğu sevən yumşaq ürəkli, millətçi insanların arasından seçilmişdilər. İlk olaraq özləri inandırılmış və aldadılmışdılar. Bunların göndərildikləri yerlər, hərbin müsibətlərindən zərər görmüş, səfalətə uğramış yerlər idi. Ermənilər Naxçıvan bölgəsi xalqını bir neçə dəfə qaçmağa, köçməyə məcbur etmişdilər. Ölkədə etibar yoxdu, heç kim kapitalını,sərmayəsini təhlükəyə atmırdı.Məhsula pul verən yox idi. İqtisadi məhdudiyyət hamını sıxırdı. Bununla belə ölkə yenə "olar" ilə ötüşürdü, keçinirdi. İctimai əqidələri möhkəmdi. Hamı həddini, hüdudunu, bir-birini tamamlayan, bir-birinə möhtac olan bir kütlə içində nizam-intizam, qayda-qanun olacağını bilirdi. Ona görə Kalbalı xanın qızına göz dikən adam yalnız qaldı.

Bu yeni idarənin adını islam məmləkətlərinə şura deyə təqdim etmişdilər. Türklərin azadlıq mübarizəsi illərinin qəzetlərindən "Şurayi-ümmət"i və "Quran"ın "Şura" ayəsini yada salan ad ilə şeytani məqsədlərini pərdələyirdilər.

Bütün Qafqaz müsəlmanları şura adını işlədirdilər.

Səmimi və avam bir insan olan bu kommunustlərlə Naxçıvanda çox mübahisələr etdik. Dünyanı cənnətə çevirəcəklər, insanlar mələikə olacaq, dünyada haqsızlıq edən insan qalmayacaqdı. Bunun mümkün olmadığını göstərəndə də: "Bəli, bu iş göydəki ulduzu yerə endirmək kimi çətindir və onun üçün bizim devizimiz ulduzdur" dedilər.

Naxçıvandan qayıdanda bolşevizm haqqında hələ məndə qəti bir qənaət hasil olmamışdı. Kənarlarda əsdirdikləri hava bizim vilayətlərdə də bəzi yüngül beyinləri sərsəmlətmişdi... Rusiyadan qayıdan əsirlərimizə də bu fikri aşılamışdılar, bunların hökmləri də şəxsi təəssüratlarına, hissərinə görə idi. Gördükləri, yaxud yaşadıqları dəhşətli günlərin təsiri altında bolşevikliyin, qəti və yaxın bir fəlakətdən xilas olmağın çarəsi, əlacı olduğunu təlqin edirdilər. 1920-ci ilin

yayında xarici işlər naziri və yoldaşları Bəyaziddə diviziya qərargahında olarkən Bahəddin bəy adlı bir keçmiş ittihadçını* saatlarca dinləmişdik. Rusiyada gördüklərini, anlatdıqlarını nəql etdikdən sonra bolşevik olmaqdan başqa çarə qalmadığı hökmü ilə sözünü qurtarmışdı. Qəti fikri bolşevikliyi könüllü olaraq qəbul etməyə hazırlamaq üçün hər həftə onun qızdırmalı bir fəaliyyəti gözə çarpırdı. Diviziya komandirim mərhum Cavid paşa zəkalı və məlumatlı bir şəxs idi. Uzun müddət Fransada yaşamış bir alpinistdi. Mənə diqqətlə qulaq asdıqdan sonra: "rənginə çox aldanma ki, fələk elə həmən fələkdir" demişdi.

---

* Osmanlı dövləti zamanında "İttihad və Tərəqqi" partiyasının üzvü və tərəfdarı olan şəxsə ittihadçı deyilirdi. Hələ 1889-cu ildə cəmiyyət adı ilə qurulmuş bu qurum sonralar firqə adını almışdı. Əli bəy Hüseynzadənin də bu partiyanın qurucularından biri olduğu qaynaqlarda göstərilməkdədir. 1918-ci ildə partiyanın adı dəyişdirilmişdir. Cumhuriyyət dövründə yavaş-yavaş aradan qalxmışdır. Çox vətənsevər bir partiya kimi türk siyasət tarixinə adını yazdırmışdır *(Tərcüməçinin qeydi)*.

## VII

## ERMƏNİLƏR İSTİLA HƏRƏKƏTLƏRİNƏ BAŞLAYIR

Ermənilər 1920-ci ilin iyununda Oltudan Ağrı dağına qədər olan bölgədəki türk çoxluqlarının yaratdıqları şuraları silah zoruna dağıtmağa başladılar, heç bir anlaşmaya yaxın durmadılar. İstədiklərinə çatmaq üçün istiladan başqa heç bir vasitə işlətmədilər. Belə hərəkət etməyə məcbur idilər. Çünki çoxluqların necə təhlükəyə çevrildiyini 1918-ci ildə Ərzincan və Sarıqamış arasında sınaqdan, təcrübədən keçirmişdilər. Məhv etmək və köçürmək yolu ilə özlərinin çoxluqlarının haskimiyyətini həyata keçirəcəkdilər.Ermənilərin bu təcavüzləri "böyük Sevr* Ermənistanı"nı yaratmaq istiqamətində silahlı təşəbbüslərinin bir başlanğıcı idi.Türkiyə Böyük Millət Məclisi hökuməti bu təcavüzlərin qarşısını almaq üçün silaha əl atmaqdan başqa çarə qalmadığını gördü... Gözləmə mövqeyi tutmaqla gündən-günə hərbi vəziyyətimiz daha təhlükəli bir hal alacaqdı. Ona görə 1920-ci ilin 20 iyununda hərəkat əmri verildi. Ancaq qəflətən bolşeviklərin xarici işlər komissarı Çiçerin yoldaşın bir vasitəçilik məktubu gəldi. Bu məktubda sərhədlərin millət əsasında cızılacağı bildirilirdi. Türkiyə hökumətinin də istədiyi bu idi, ona görə dərhal hərbi hərəkatı dayandırdı.

Türkiyənin bu anlaşma fikirlərinin əksinə ermənilər planlarını icra etməkdən, yəni təcavüzdən vaz keçmədilər.Qars və Ərdahanda müsəlman idarə təşkilatlarını bircə-bircə yıxaraq sərhədlərimizə yaxınlaşırdılar. Ermənilərin Çiçerinin təkliflərinə məhəl qoymadan hücumu davam etdirmələri ruslarla məsləhətli bir döyüş mənzərəsi yaratmışdı. Həqiqətən də müsyo Çiçerin türklərin əlini-qolunu bağlamış, amma ermə-

---

* 10 avqust 1920-ci ildə Paris ətrafındakı Sevres məntəqəsində Osmanlı dövlətinin I dünya müharibəsinin bitməsi ilə əlaqədar itilaf dövlətləri ilə imzaladığı sülh müqaviləsi *(Tərcüməçinin qeydi)*.

nilərin əlindəki dəhrəni almamışdı.

O zaman şərq cəbhəsində olan xarici işlər nazirimiz Ermənistana Çiçerinin təklifini xatırlatdı, hücumların dayandırılmasını tələb etdi, ancaq bir cavab ala bilmədi.

Şərq cəbhəsi komandanı da bu vəziyyəti Qafqazdakı 11-ci rus ordu komandanlığına bildirdi, bundan da bir fayda olmadı. Çünki bolşeviklərin Qafqazdakı vəziyyəti xarab idi. Azərbaycanla, Qarabağla əlləşirdilər. Bu vəziyyətdə ermənilər türkləri əzmək üçün həm ingilislərdən, həm də ruslardan himayədarlıq umurdular. İngilislərlə ermənilərin siyasəti bəlli idi, ancaq rusların nə istədiklərini anlamaq çətin idi. Bununla belə hökumət heç nədən şübhələnməyərək rusların səmimi olduğunu qəbul etmişdi. Amma sonrakı hadisələr rusların ikiüzlü bir siyasət yürütdüklərini, bu təhlükəli taktikanı izlədiklərini ortaya çıxardı: İki tərəf bir birini qıracaq, dəymiş armud kimi ikisi də birdən bolşeviklərin ağzına düşəcəkdi... Ruslar özlərini ermənilərə şirin göstərmək üçün mümkün olduğu qədər hər şeyə baş vururdu. Moskvada bizimlə dostluq müqaviləsini imzalamaq üçün Çiçerinin ilk şərti Van və Bitlis vilayətlərinin ermənilərə verilməsi, orada yaşayan müsəlman əksəriyyətin Anadolunun içərilərinə köçürülməsindən ibarət idi.Çiçerin bu təklifi ilə yalnız şərq vilayətlərini almır,eyni zamanda Türkiyə dövlətinin binasını təməlindən sarsıtmaq üçün onu milyonlarca insanın köçürülməsi zamanı meydana gələcək iqtisadi, sosial və hərbi fəlakətlərə düçar etmək istəyirdi.

QEYD: Bu planın rus idarəçiləri tərəfindən indi də davam etdirildiyi müşahidə edilməkdədir. Bu gün Rusiyanın şərq vilayətlərimizə maraq göstərməsi bu böyük siyasətin davamından başqa bir şey deyildir. Bilirlər ki, türklər bolşevik idarəsində yaşamaq istəməzlər, və fikirləşirlər ki, belə bir vəziyyətdə dörd milyon yarım, beş milyon insanın Anadoluya doğru mühacirətinə səbəb olmaq yolu ilə Türkiyəni əzmək, səfalətə düçar etmək, bəlkə beləcə onun xarabalarında nifaq toxumu səpmək və yetişdirmək mümkün olacaqdır.

## VIII
## NAXÇIVANA HƏRBİ YARDIM

1920-ci il iyulun əvvəllərinə qədər ermənilər Qars, Sarıqamış, Iğdır bölgələrini işğal etmişdilər. Dərələyəz, Zəngəzur bölgələrindəki müsəlman kəndlərini dağıtmışdılar. İşğal növbəsi Naxçıvana çatmışdı. Naxçıvan bu bölgədəki türk hökumətlərinin ən güclüsü idi. Ermənilər naxçıvanlıların Azərbaycanla əlaqələrini kəsməyi lazım bilmişdilər. 1920-ci il iyulun 1-də Zəngəzur bölgəsinə gələn bolşevik süvarilərinə hücum edərək onları qaçırmış, Əngələvit şəhərini (indi qəsəbədir) almışdılar.

Naxçıvan hökumətinə qarşı ermənilərin hücum hazırlıqları diqqəti çəkəcək dərəcəyə çatdı. Bəyaziddən mayor Əli Dəmir bəy (mərhum polkovnik Dəmir Əli bəy deyil) zəif tərkibli iki taburla Naxçıvana göndərildi. O zaman əslində bütün taburlarımız yeni formalaşmaqda idi.O zamanlar bolşeviklər Azərbaycan Müsavat hökumətini məğlub edərək ölkəni işqal etmişdi, qaça bilənlər İran və Naxçıvana pənah aparmışdılar. Bu səbəbdən Naxçıvanda siyasi hava dəyişmişdi.

İndiyə qədər naxçıvanlıların müdafiəsini təşkilatlandıran ordumuzun dəyərli zabitlərinin başında mərhum Xəlil bəy dururdu. O da naxçıvanlıların güdməyə başladıqları ermənilərlə anlaşmaq, müqavilə bağlamaq siyasəti ucbatından istefa verməyə məcbur olmuşdu.

İşlər bu vəziyyətdə ikən Navçıvan bölgəsi müfəttişi titulu ilə oraya getmək, bilavasitə ermənilərin təcavüzlərinə qarşı ölkənin, bölgənin müdafiəsini təmin etmək əmrini aldım.

5 iyul 1920-ci il tarixində Bəyaziddən hərəkət etdim. Yolda bolşeviklərdən qaçmış Azərbaycan ordusu süvarilərinə rast gəldim. Türkiyəyə qaçqın kimi gedirdilər. İki saat onların anlatdıqları tüklər ürpərdici faciənin hekayətinə qulaq asdım. Heç bir yerdə vaxtı itirməyərək gecikmədən sürətlə

Naxçıvana gəldim.

Yuxarıda dediyim kimi Naxçıvandakı siyasi hava bu səfər bambaşqa idi. Keçmişdəki sərin bolşevik havası bu dəfə müdhiş bir fırtına halını almışdı. Azərbaycandakı bolşevik zülmü erməni təhdidini yaddan çıxarmışdı, rus zülmünün yanında erməni zülmü sanki yalan olmuşdu. Naxçıvanlılar türkləri ruslarla müttəfiq olmaqda ittiham edirdilər. Naxçıvanın çox güclü və qəhrəman bir türk şəhəri (kənd olmalıdır) olan Nehrəmdə bir yığıncaq keçirildi. Azərbaycanın düçar olduğu fəlakət izah edildi, bolşeviklərə lənət oxundu. Açıqca "Türkiyə özünü xilas etmək üçün bizi qurban verir, əgər bolşeviklərin xatirinə hücumdan vaz keçməsəydilər, bu gün iki düşmən arasında qalmayacaqdıq",–dedilər.

Naxçıvanın xan, Azərbaycan, Osmanlı partiyaları bolşevik təhlükəsi qarşısında birləşmişdilər. Ermənilərlə dil tapmaq, birlikdə bolşeviklərə müqavimət göstərmək istəyirdilər. Amma ermənilərin nə fikirdə olduqlarını bilən yox idi. Milli Şura tərəddüd içində idi. İrəvana göndərilən heyəti ermənilər həbs etmiş və bir cavab da verməmişdilər.

Bolşeviklərin istila etdiyi Azərbaycanın valisi Qara bəy hələ Naxçıvanda idi. Bir süvari alayı, bir piyada taburu, bir dağ bateriyası, bir generalı və bir çox zabiti buraya yerləşmişdilər. Azərbaycanın bir vilayəti olan Naxçıvanın ana vətən Azərbaycan üçün çalışması, istilaçılara qarşı ermənilərlə əlaqə yaradıb istiqlalını müdafiə etməsi kimi doğru bir prinsip izləyirdilər. Fəqət təəssüf ki əslində bu prinsip bir nəzəriyyə olaraq qaldı. Belə ki, əvvəla ermənilərin mənfəətinin harada olduğunu anlayacaqlarını düşünürdülər, ikinci xətaları da erməniləri səmimiyyətlərinə inandırmaq üçün silahları təslim etmək, müqavimət göstərməmək istəmələri idi. Üçüncü olaraq silahlı qüvvələrini müqavimətə sövq və təşviq etməmizə mane olmaq üçün əleyhimizə təbliğat aparmaları, bizim əlimizdə olan sursat, iaşə malları və pul kimi mü-

dafiə vasitələrini bizdən almağa cəhd etmələri idi, yəni bizi də üçüncü dərəcədə bir düşmən sayırdılar. Bizim tezisimiz hər kəsə qarşı güclü olaraq qalmaq idi. Ermənilər anlaşmaya məcbur etmək üçün məğlub olmamaqdan ibarət bir yolla getmək idi, məntiq və hərbi prinsiplər bunu tələb edirdi. Amma naxçıvanlılar arasına panika düşmüşdü. Dediyimiz sözlərin hamısının öz məqsədlərinin əleyhinə olduğunu irəli sürürdülər. Bütün bunlara baxmayaraq, ermənilərə qarşı müqaviməti təşkilatlandırmaya çalışmaqdan geri durmadıq. Mayor Əli Dəmir bəyi bir tabur və iki səhra topu ilə şimal sərhəddindəki Dəvəliyə, qəhrəman vedililəri dəstəkləmək üçün göndərdim. Bundan əlavə, Qaralar və Şərur milis taburları ilə də möhkəmləndirdim. Bir taburumuzu 100 km genişliyindəki şərq cəbhəmizə Zəngəzur, Dərələyəz istiqamətlərinə qarşı istifadə etmək üçün ümumi ehtiyat olaraq Naxçıvanda saxladım. Milis taburlarının əmrlərimizi quzu kimi itaətlə yerinə yetirmələri ümidlərimizi artırmışdı. Emənilərin qabağını alandan sonra bir problem qalmayacaqdı.

Bolşevik təhdid hərəkətlərinin Naxçıvanda bu qədər gurultulu əks-səda verməsinin başlıca səbəbi casusların və gizli qüvvələrin yaydığı şayiələrin bais olduğuna şübhə yeri qalmırdı. Amma hazırlıqsız, təşkilatsız, vasitəsiz bu kimi mənəvi təcavüzlərin qabağını almaq mümkün olmurdu. Bütün cəhdlərimizi müdafiə işlərinə həsr etməkdən başqa bir şey edə bilmirdik.

## IX
## ERMƏNİLƏRİN NAXÇIVANA HÜCUMU

Təbir caizsə hökumətlə sevqi-idarə təşkilatı arasında bu fikir ixtilafı davam edərkən 1920-ci il 11 iyul səhər saat beşdə ermənilər Vedibasar* cəbhəsindən hücuma keçdilər. Bu xəbəri eşidən kimi Naxçıvandakı ehtiyatımı da Dəvəliyə göndərməyi qərara aldım. Bütün şərq cəbhəsini milislərə etibar edərək bütün ehtiyatı cəbhəyə yaxın yerdə cəmləşdirəcəkdim. Beləcə vəziyyətə görə müdaxiləyə hazırlıq görürdüm. İlk qatarla iki piyada bölüyünü, bunun ardınca Naxçıvan milis taburunu, Azərbaycan piyada taburunu, iki dəzgahlı pulemyot və bir dağ topunu sevk etdim.

11 iyulda düşmən qüvvələri 2000 piyada və on top olaraq təxmin edilmişdi,ancaq bu gün düşmən mövqelərimizə yaxınlaşmaqla kifayətləndi.

12 iyul səhər Əli Dəmir bəydən bu raportu aldım: "Təkmil Vedi cəbhəsində sakitlikdir. Çünki hələ düşmən ortaya çıxmamış milis dəstələri mövqelərini tərk etdilər". Bu xəbər bir fəlakət işarəsi idi. Qəhrəman vedililərin** bir güllə atmadan geri çəkilmələri inanılmaz bir hərəkət idi. Amma təəssüf ki doğru idi. Naxçıvan hökuməti oturduğu ağacın budağını kəsdiyini bilmirdi.

Naxçıvan idarəçilərinə belə təhlükəli bir oyunun zərərlərini başa saldım. Azərbaycanlı general Həbib Səlimov ilə Kalbalı xanı süvari alayı ilə birlikdə cəbhəyə göndərdim. Belə sözə baxımlı olduqlarına, fikrimi qəbul etdiklərinə əsaslanaraq sevinmişdim. Bu ümidlə belə bir müharibə planı hazırladım: Mayor Əli Dəmir bəyin birliklərini Dəhnə boğazına çəkərək şərqdən arxasının kəsilməsi təhlükəsindən xilas

---

* Araz vadisdindəki bölgələrin bəzilərinə onları suvaran böyük çayların adı verilmişdir: Zəngibasar, Gernibasar, Vedibasar kimi

** Amerikalı Haskelin hələ 1919-cu ildəki planı ermənilərin əskidən bəri vedililərdən çox qorxduqlarını göstərir.

etdim. Ehtiyat hissələr də burada toplanacaqdılar. Mövqeyimizin üstünlüyündən istifadə edilib buradan düşmənə müqavimət göstəriləcəkdi.

13 iyulda düşmən Dəhnə boğazı qarşısına gəldi. 14 iyulda böyük bir qüvvə ilə hücuma keçdi. Qarşısında bizim dörd piyada və bir pulemyot bölüyümüzdən başqa bir qüvvə görmədi.

HİCRƏT: Vedibasardan başlayaraq cənuba doğru bütün xalq ev-eşiyini, yurd-yuvalarını ataraq qoyub qaçırdı. "Milislər müqavimət göstərməsin" deyənlər bunu düşünə bilməmişdilər. Milislərin ermənilərə qarşı müqavimət göstərməməsi asandı, asan olmayan çoluq-çocuqlarını onların insaf və mərhəmətlərinə etibar etməkdi. Bütün məmləkət boşaldılıb erməniyə təslim edildikdən sonra onlardan bərabər hakk, hüquq istəmək üçün nəyə əsaslanacaqlardı.? O zaman ermənilər çox əjdaha idi, "bizimlə birlikdə bolşeviklərə müqavimət göstərmək istəyirsiniz milis taburlarınızı general Nazarbekovun əmrinə verin" deməzlərmi?

Mühacir qafilələri Şahtaxtı körpüsünə dayanmışdı. İranlılar qoymurdular camaat körpüdən keçsin.

Milislər tüfəng çiyinlərində üç cərgə aşırma patrondaşla uşaqlarının əllərindən tutmuş, körpüdən keçmək üçün arabalar, davarlar, sürülər arasında növbə gözləyirdilər. Körpünün açılmasını, mühacirlərin erməni təcavüzündən xilas edilməsini xahiş etmək üçün Ərəblər kəndindəki Bəbir xanın yanına bir zabit göndərdim.

Şahtaxtı stansiyasında paravoza bir vaqon bağladaraq Şərur düzündəki vəziyyəti yerində görmək, Şahtaxtının şimalındakı mövqeləri öyrənmək məqsədilə o biri stansiyaya qədər getdim. Bir adama da rast gəlmədim. Əhali zirehli qatar təhlükəsi səbəbi ilə dəmir yolundan uzaq olan şose yol ilə çəkilirdilər. Zirehli qatara qarşı partladılacaq nöqtələri təyin etdikdən sonra Şahtaxtına qayıtdım.

Başda mayor Əli Dəmir bəy olmaqla dəstələrimiz özlərini fəda edərcəsinə qeyrət və nümunə göstərmiş, düşmənlə üz-üzə qalmış, çəkilən xalqı qorumuşdu. Yengicə və Quşçu Dəmirçidə anbarlara yığılmış sursatımızı, qoşqusu olmayan bir topumuzu qadınlar öz əşyalarını bir tərəfə ataraq daşıyırdılar.

Birinci dünya müharibəsində başımıza bəla olan şinayder səhra topları burada da bizi tapmışdı. İkinci mərmidən sonra havaları qaçmışdı. Nasos yoxdu,artileriya ustası yoxdu, öküzdən başqa topu dartmağa bir vasitə yoxdu. Bunlar da mühacir qafilələrinin arasında və hətta onların gerisində idi.

Şahtaxtı şimal bölgəsi milislərindən artıq bir xeyir gözləmək olmazdı. Nehrəm taburlarının Şahtaxtına göndərilməsini Milli Şuradan xahiş etdim. Yanımda yalnız 40-50 nəfərlik bir piyada bölüyümüz vardı. Naxçıvan və Azərbaycan dəstələrindən xəbər yoxdu (Bunların Naxçıvana çəkildiyini sonradan öyrəndim).

Milli Şuraya bu teleqrafı yazdım: Bu vətən sizindir,biz köməkçiyik, vətəninizi ermənilərə peşkəş etmək istəmirsinizsə, əsgər göndərin, yoxsa mən də qüvvələrimi geri çəkərəm. Bu teleqrafdan sonra Milli Şura ilk iş olaraq gecə yarısı silahlı adamlar göndərib hərbi anbara, dəmir yoluna həbs qoydu.

## X
## ŞƏRUR ŞAYİƏSİNDƏN SONRA

Bir insan selinin gəlib doluşduğu körpü başına düşmənin yaxınlaşması və atəş açması fəlakət olardı. Ona görə də əldə mövcud olan piyada bölüyünə körpünün üç km şimalındakı təpələri müdafiə etmək, qərargah əsgərlərinə də körpü başında nizam-intizamı təmin etmək tapşırığı vermişdim. On minlərlə qaçqının arasında pis və təcavüzkar ünsürlər də var idi. Hələ sərhəd qapısı açılmamışdı. Teleqraf və telefonla bir neçə dəfə rəhmətlik Maku sərdarına acı sözlər dedim. Nəhayət, gecə yarısı körpü açıldı. Mühacirlər bir-birini ayaqlaya-ayaqlaya keçməyə başladılar. Bu keçiş o biri gün gecə yarısına qədər 24 saat davam etdi.

15 iyul axşamı hərbi dəstə Şahtaxtında toplandı. Mövcud qüvvəmiz 197 piyada, 28 pulemyot, 17 süvari, 17 topçu və on beş zabitdən ibarət idi.

Mayor Əli Dəmir bəy bitkin bir halda gəlmişdi. O qədər qışqırmağa məcbur olmuşdu ki, səsi tamamilə batmışdı, danışa bilmirdi, qəzəb və hiddəti hələ keçməmişdi. Çox çətinliklə bunları söylədi: "Bizə ermənilər deyil, nə etdisə siyasətçilər etdi. Ermənilər dalımızca atlı kimi gəlirdi, biz yüyürdükcə onlar da yüyürdü"–dedi.

14 iyul panikasını təşviq edənlərin başçısı Kalbalı xan general Həbib Səlimov ilə birlikdə 16 iyulda dörd milis taburu ilə Şahtaxtına gəldi. Ayrı qərargah qurdu, mənə bu ultimatumu verdi: "Cəbhələri gücləndirmək arzusunda isəniz, vətən və millət adına tabeliyinizdə olan sürsat və topları və hərbi ləvazimatı mayor Səfiyevə təslim etmənizi acizanə surətdə xahiş edirəm".

Bu kağızı gətirənlə aşağıdakı cavabı göndərdim: "İstədiyi şeylər onları düşmənə qarşı istifadə etməyi bacaranlara məxsusdur".

Bu gərginliyi yaratmağın səbəbi üzərində çox baş sındırdım, yerli adamlarla söhbət etdim. Başa düşdüm ki, ermənilərə atəşkəs müqaviləsi imzalamağı təklif etmişlər. Bu təklifin ermənilər tərəfindən qəbul olunmasına bizim orada olmağımız mane olacaq fikri ilə bizi içlərindən çıxarmaq istəyirlər. Bunu açıqca öz həmşərilərinə ifadə edə bilmədikləri üçün sursat verməmək, topla kömək etməmək adı ilə bu məğlubiyyətə səbəb olduğumuzu irəli sürürdülər. Vəziyyət bu yerə gəlib çıxdıqda bir basqına, suiqəsdə təşəbbüs etmələri ehtimalı da meydana çıxırdı. İki yüz məhmətciyin (yəni türk əsgərinin) dörd milis taburu ilə təslim alınmasını mümkün hesab edə bilərdilər. Ancaq unudurdular ki, tək bir məhmətciyin sevgisi yalnız dörd milis taburunun deyil, bütün qafqazlıların könüllərini fəth edirdi .

Leytenant Səadettini milis taburlarına göndərdim. Silah, tüfəng piramidalarını dəmir yolunun o tərəfindəki çəmənliyə köcürmələrini, və oraya heç kimi buraxmamağı tapşırdım. Taburlar Kalbalı xanla məsləhətləşmədən arzularımızı yerinə yetirdi və bizim əsgərin olduğu yerdən uzaqlaşdı. Buna görə də, deyəsən, Kalbalı xan kimin milislərə güvənə biləcəyini anlamış olacaqdı ki, ertəsi gün taburları Şahtaxtında qoyaraq Naxçıvana getdi.

* * *

Siyasətçilərin işi azdıraraq hərbi hərəkata qarışmaları orduda narahatlıq yaratmışdı.

11-ci diviziya komandiri mərhum Cavid paşa Naxçıvan Milli Şurasına bizim vasitəmizlə bu teleqrafı göndərdi: Naxçıvanlıların bu son ayda siyasi intriqalara başları qarışaraq Türklər...əleyhinə söylədikləri sözlər və elədiyi işlər ürəyimizi dağladı. Zabitlərim gördükləri ağır rəftara qarşı soyuqqanlıqlarını qoruyurlar. Buna baxmayaraq biz yenə əlimizdən gələn köməyi etməyə başlamışıq. Pis qəbul olunmağımıza rəğmən yenə son vəzifəmizi yerinə yetirib ondan sonra Naxçı-

vandan çıxacağıq. Dəfələrlə etdiyiniz müraciətlərə görə mülki və hərbi təşkilatınızı yaratmaq üçün Xəlil bəyi göndərdik. İş görmək əvəzinə partiya mübarizəsinə başınız qarışdı və nəhayət, onunla da yola getmədiniz. Təkrar müraciətiniz üzərinə dəyərli yoldaşımızı oraya göndərdik. Naxçıvanlıların ermənilərə qarşı atəşkəs müqaviləsi bağlamaq təklifi ancaq mühacirlərin sağ-salamat körpüdən keçməsi işinə fayda verdi.Düşmən düşməninin halını bilməz. Ermənilər də Şahtaxtında böyük bir müqavimətlə üz-üzə gələcəklərini zənn edib hələlik əldə etdikləri ilə kifayətləndilər. Müfrəzəmiz* bu fürsətdən istifadə edərək Şahtaxtı körpüsünə hakim təpələri möhkəmləndirdi, camaatın evlərini mühafizə altına aldı, İrana keçirilən milis qüvvələrini toplamağa çalışdı. Tabur komandirləri gəldi, əsgərlərini toplamağa vəd verdilər, ancaq bir daha gözə görsənmədilər.

* Ərəb mənşəli Osmanlı dövrünə aid olan indi istifadə dairəsindən çıxmış hərbi termin. Müfrəzə xüsusi bir vəzifəni yerinə yetirmək üçün təşkil edilmiş hərbi qüvvə, hərbi hissə mənasını ifadə etmişdir *(Tərcüməçinin qeydi)*.

## XI
## ERMƏNİLƏRİN MƏKTUBUNA NAXÇIVANLILARIN CAVABI

19 iyulda Azərbaycan hərbi dəstələrinin komandanı general Həbib Səlimov Şahtaxtına gəldi,naxçıvanlılar adından mənə bir xahişnamə verdi.Ermənistana gedən nümayəndələrin geri qayıtmasından sonra ümumi komandanlığı yenə mənə verəcəklərini, məni Naxçıvan Milli Şurasına üzv seçdiklərini, zabitlərə şəkər göndərəcəyini söylədi.

Yenə bu axşam, naxçıvanlıların heyəti İrəvandan qayıtdı. Məni də müzakirələrdə iştirak etmək üçün Naxçıvana dəvət etdilər. Gecə yarısı oraya çatdım.

Ermənilərin atəşkəs şərtlərinin ən mühümləri bunlardır. (Assur krallarının kitabələrinə nə qədər bənzəyir):

1. Bütün Naxçıvan Araz hökumətinin ərazisi erməni hökumətinə birləşdiriləcək. Əhali erməni hökumətinin rəiyyəti, təbəəsi (İspartalıların Heliotləri kimi) olaraq qalacaqlar, bunu qəbul etməyənlər, istədikləri yerlərə gedə biləcəklər.

2. İki həftə içində müsəlmanlar erməni hökumətinə hər biri əlli min manat* qiymətində üç yüz at, hər biri otuz min manat qiymətində iki yüz inək, bu ayın içində 300000 put buğda pulsuz, bundan əlavə hər putu iki min manat hesabı ilə və pul ilə 300000 put buğda, hər putu üç min manat hesabilə iki ay ərzində 100000 put düyü verəcək.

3. Dəmiryollarının təmiri üçün işçi qüvvəsi veriləcək.

4. 1919-cu ildə erməni hökumətindən zəbt edilən silahlardan başqa hər iki evdən bir silah hesabı ilə 1500-dən aşağı olmamaq şərtilə tüfənglərini təslim edəcəklər.

QEYD: 30000 müsəlman evi olduğu təsdiq edilir.

5. 24 saat ərzində əsgər silah-sursatını təslim edəcək.

6. Yuxarıdakı təkliflərə əməl edilincəyə qədər hər şəhərdən beş, hər kənddən üç nəfər girov olaraq verilməlidir.

7. Cavab üçün 60 saatlıq möhlət verilmişdir.

---

* Çar Rusiyası dövründə 10 manat bir rus qızılı idi.Put isə təqribən 16 kq idi.

20 iyul səhərisi Milli Şura toplandı. Qələbəlik bir xalq kütləsi də Şura binasının qarşısında nəticəni gözləyirdi. Ermənilərin bu qəbul edilməsi mümkün olmayan şərtləri qarşısında siyasətçilər başlarını itirmiş,xalq qəzəblənib dəliyə dönmüşdü. Cəhri kəndindən gəlmiş vətənsevərliyi ilə məşhur Kərbəlayi Kərəm adlı səksən yaşlı ahıl bir kişi silahlarını qurşanmış halda məclisə girdi, heç kimdən icazə almağı lazım bilmədən açdı ağzını, yumdu ğözünü, üzvlərə demədiyi qalmadı, hamısı quzu kimi qulaq asdı, ondan sonra üzvlərdən biri "Kəlbə Kərəm düz deyir",–deyə danışmağa başladı:

Nəhayət, ermənilərə belə bir cavab hazırlandı:

Ermənistan Naxçıvan və Şərur həvalisində gələcəkdə qanlı hadisələrə son vermək məqsədilə və bu ərazidə xalqın mühacir olması ilə əlaqədar Naxçıvan Milli Şurası bunları müsəlman əhalisi tərəfindən təklif edir:

1. Müsəlman əhali bu ərazinin Ermənistanın bir parçası olduğunu o zaman qəbul edər ki, Dəhnə boğazından Ordubada qədər olan ərazinin müsəlmanlarına istiqlal verilsin.

2. Bu məsələnin həll edilməsi üçün Naxçıvan və Şərur müsəlmanları İrəvan şəhərində bəlli bir gündə iki tərəfin nümayəndələri və müttəfiq hökumət səfirlərindən birinin sədrliyi ilə müzakirə olunsun.

3. Erməni hökuməti bizim şərtlərimizi qəbul edərsə,o zaman tərəflər arasında məsələ həll olununcaya qədər atəşkəs elan olunsun.

4. Təklif olunmuş şərtlərin qalan on beş maddəsinə indilik cavab verməyərək Erivanda əvvəlki maddənin müzakirəsi günü həll olunsun. 20.VII.1920-ci il..Naxçıvan Milli Şurası sədri Cəfərqulu xan.

Bu arada mən də milis qüvvələrinin yenidən toplanması, inzibat altına alınması üçün qəti əmrlər verilməsini şuraya təklif etdim. Dərhal qəbul edildi. Bu işləri həyata keçirmək üçün şəxslər təyin olundu. Mən Naxçıvandan çıxanda o şəxslər otelin çayxanasında nərd atırdılar.

## XII
## ERMƏNİLƏRİN TƏKRAR HÜCUMA KEÇMƏSİ

Ermənilərin verdiyi möhlət 22 iyulda başa çatdığı zaman müfrəzəmiz Araz çayı ilə Qıvraq kəndi arasında Şahtaxtının şimalında dayaq nöqtələrindən ibarət bir mövqe hazırlamış vəziyyətdə idi. Müdaxilə etməməklə yanaşı milislərin Qıvraq kəndinin şərqi ilə Dağlar arasındakı mövqelərini dolanmış və müdafiə işlərinin təşkil edilməsi haqqında məlumatlandırmışdım. İstehkam hazırlamaq üçün qazma və bel vermiş, general Həbib Səlimov ilə də müdafiə planı ilə əlaqədar görüşmüşdüm. Bu minvalla əməkdaşlığı təmin etmiş olıduğumu zənn edirdim.

23 iyulda ermənilər zirehli qatar və kiçik piyada kəşfiyyat dəstəsi ilə milislərin cəbhəsini yoxlamağa başladı, amma milislərin qanını cuşa gətirmiş olacaq ki, nə qədər atlı milis varsa hamısı cəbhələrinin qarşısındakı Püsyan kəndi istiqamətində hücuma keçdilər. Bu hərəkətin məqsədini anlamaq üçün Həbib Səlimovun idarəsinin yerləşdiyi kəndə getdim. General da milislərin nə etdiklərini və düşmənin vəziyyətini hələ öyrənə bilməmişdi. Milislər döyüş planından kənara çıxaraq özbaşına irəli atılmışdılar.Geniş düzənlik cirit meydanına bənzəmişdi. Tüfəng səsi yox.., düşmən yox, iskit üsulu hücum təlimi keçirdilər,ara sıra gələn raportlarda bu cümlələr var:

–Davanın şirin yerindəyik,sursat göndərəsiniz.

* * *

24 iyul saat 16-30-dan etibarən ermənilər milislərin cəbhəsinə hücuma keçdilər. Qüvvələri təxminən 2000 piyada, 200 süvari və 8 topdan ibarətdi. Müfrəzəmizin cəbhəsini 1500 metrə uzaqdan müşahidə etməklə kifayətləndilər. Əlimizdə olan iki səhra topu ilə düşməni dayandıracaq bir atış edə

bilmirdik. Düşmən yaxınlaşınca milislər yaxın döyüşü qəbul etmədilər, edə də bilməzdilər, ona görə də geri çəkildilər. General Həbib Səlimovun qərarı və vəziyyəti haqqında bir xəbər ala bilmədik. Öz başımızın hayında olmaq,milisləri yox hesab etmək lazımdı. Mövqeyin Araz çayı sahilindəki qismini müdafiəyə məmur birlikləri, nəzarətçilər qoyaraq sağ cinah gerisinə ehtiyata qoydum. Əmir zabiti baş leytenant Asım bəyi (indi ellər bankasının müdür əvəzi) Həbib paşanın qüvvələrinin vəziyyətini öyrənmək üçün göndərdim. Şahtaxtında heç kimi tapa bilmədi. Saat 19-da Qıvraq kəndi yanmağa, qaçqın dəstələri körpü başına axışmağa başladı.

Bütün bu bəd əlamətlər artıq hər şeyin qurtardığını göstərirdi. Artıq müfrəzənin də Şahtaxtında olmasının bir mənası qalmamışdı. Diviziya komandanlığının əmrinə görə geri çəkilməyə qərar verildi.Amma çəkilmə əmrini verə bilmədim, qaranlığı gözlədim.

Körpü başı yenə qaçqınlarla dolu idi, körpüdən keçmək icazəsi yenə gecikmişdi. Qaçqınların ardı kəsilincəyə qədər gözləmək, düşmənin ehtimal olunan hücumuna qarşı bu köməksiz xalqı müdafiə etmək vicdani bir borc idi, çoluq-çocuğu ayaq altına alaraq qaçmağı mərdliyə yaraşdırmaq olmaz.

Bununla belə iki yüz döyüşçüdən ibarət bir bölüyün nadir təsadüf edilən böhranlı bir vəziyyətdə şayiə içində ölüm təhdidi altında Araz çayı kimi bir baryerə sıxışdırılmış vəziyyətdə saatlarca adətən müdafiəsiz, ölümünü gözləyən kimi gözləməsi bəzi zəif ruhlu adamlar üzərində qorxuducu təsirini göstərdi. Gerçəkdən nəzəri cəhətdən bu vəziyyətdə bölüyü gözlətmək doğru deyildi. Gecə qaranlığı ətrafı görüb təhlükə haqqında bir qərar çıxarmağa imkan vermədiyindən təcrübəsizləri qorxudur. Böyük müharibədə də çox vaxt narahatçılıq əsəri görülürdü.

Müfrəzə saat iyirmidən etibarən mövqeləri dəyişməyə başladı. Şahtaxtı körpüsünün lap yaxınındakı təpələrdə gecə

müdafiəsi üçün hazırlıq görüldü.Bu zamana qədər bir yoldaşımız narahat olaraq körpü başına gəlib çıxmışdı. Üstəlik bölüyünün də əsir düşdüyünü söyləyirdi.Bunun əksinə olaraq vanlı Sait bəy açıq cinahda olmasına baxmayaraq qonşu tabur komandirinin çəkilmə əmrinə rağmən öz taburundan hələ əmr almadığını deyərək yerindən tərpənmirdi.

## XIII

## İRAN ƏRAZİSİNDƏ

Şayiə dalğaları qarşısında qranit bir qaya kimi dayanan bu bir ovuc əsgərimiz buradan keçmək növbəsini ən axırıncı qaçqına vermişdi.

Müfrəzə əmir zabiti Asım bəy körpünün o biri tərəfindəki İran teleqraf mərkəzindən aldığı diviziya komandanlığının əmrini gecə yarısına doğru min əziyyətə qatlaşaraq körpünü tərs keçərək bizə gətirib çatdıra bildi. Teleqrafda düşmənin gözündən uzaq bir yerdə qalmamız əmr edilirdi.

23 iyul saat birdə körpünü keçmə növbəmiz çatdı. Saat üçə qədər Ərəblər kəndində əsgərə istirahət verdik, ondan sonra dalğalı bir əraziyə gedərək çadır qurduq. Ərəblər kəndində olan ərzaqımızın və lazaretimizin olduğu vaqonları da itələyərək buraya gətirdik, amma ağcaqanad qarşısında aciz qaldıq, hörmətli doktorumuz Behcət bəyə şikayət etdik. O da bizə ayrı yerə köçməkdən başqa əlac olmadığını söylədi.

25 iyul səhərindən etibarən ermənilər artıq sərbəst şəkildə Şahtaxtına gəlməyə müvəffəq oldular. Vəziyyətdən xəbəri olmayan, İrana keçmək üçün Şahtaxtına gələn Naxçıvanın uzaq kəndlərinin əhalisindən beş yüz nəfərdən ibarət bir qafiləni ermənilərin məhv etdiklərini təəssüflə öyrəndik.

27 iyulda Naxçıvandan qayıdan heyətin rəisi mərhum Rəşad bəy (böyük hücumda 57-ci diviziya komandiri idi) Naxçıvanda əhalinin müdafiədən əl çəkərək İrana keçdiyini xəbər verdi.

## *BOLŞEVİKLƏR HAQQINDAKI XƏYALLARIMIZ*

Maku xanının ölkəsində 28/29 iyul gecəsi diviziya komandanlığı vasitəsilə şərq cəbhəsinin bu əmrini aldıq:

1. 28 iyul günorta saatlarında rus Qızıl ordusuna mənsub bir süvari alayı Naxçıvana gəlmişdir.

2. Naxçıvana gələn Qızıl ordu dəstələrinin daşnaqlara qarşı göstərəcəyi hərəkət və rəftarlar haqqında bizə məlumat verməzdən əvvəl ya özlərinin ermənilərə ya da ermənilərin onlara hücumu ilə bir müharibə başladığı qətiləşdikdə Osmanlı müfrəzəsi* Şahtaxtına təsir etməyə başlayacaqdır.

3. Ermənilərin şimala tərəf geri çəkilmələrini çətinləşdirmək üçün qaçqınlardan və yerli hərbi təşkilatdan dəstələrlə Təzəkənddən və daha şimaldakı Araz keçid yerlərindən ermənilərin arxasına təsir etməyə, bilavasitə dəmir yolunu xarab etməyə cəhd göstəriləcəkdir.

4. Ermənilər şimala doğru geri çəkildikləri təqdirdə Şahtaxtı körpülərini yandırmaq istəyəcəkləri yəqindir. Buna mane olmaq üçün indidən Ərəblər kəndində piyada və pulemyot qüvvələri saxlamaq və pulemyotları körpüləri atəş altına alabiləcək binaların arasına yerləşdirmək, müfrəzənizdən ayrıca bir qisim qüvvənin çantasız olraq dərhal körpüləri işqal qüvvəsinə kömək üçün hazır vəziyyətdə saxlamaq. Bunları lazım gələrsə sürətlə körpünün zəbt olunması üçün irəli sevk etmək, topçudan davamlı şəkildə istifadə etmək və s. kimi tədbirlərin görülməsi.

5. Naxçıvan bölgəsi ilə aranızda ardıcıl bir müharibə üçün münasib bir yerdə bir süvari rabitə bölüyü təsis etmək surətilə cəld, tez birləşməyi təmin etmək.

* * *

Arazın şərqindəki ərazi bizim də yerləşmiş olduğuimuz

* Cəbhə komandanın işlətdiyi ifadədir.

düzənlik ərazidən ibarətdi. Ərazinin bu xüsusiyyəti qaranlıqda hərəkət etməyə şərait yaradırdı. 29 iyul gecəsi Araz çayına yaxın sel yarıqlarında gizlənərək hərəkətə və hücuma hazırlaşdıq.Qızmar günəş altında sel oyuqları içərisində bütün günü gözləmək çox çətin bir işdi. Amma vətənin müdafiəsi naminə hamı buna dözürdü.

Əmrdən anlaşıldığına görə komandanlıq müfrəzənin bolşeviklər hücuma başladıqları zaman düşmənin yan və arxasında hərəkət etməsi fikrində idi. Müfrəzənin Naxçıvana keçirilməsini düşünməmişdi.

* * *

## *BOLŞEVİKLƏR İLK XƏYAL SÜQUTUNU DA BƏRABƏR GƏTİRDİ*

31 iyul saat 5.30-da bolşevik süvari alayının əmir zabiti tovariş Ştul ilə birinci kateqoriya kommunistlərdən ərzurumlu Camal yoldaş Ərəblər kəndindəki ordugaha gəldilər. Keçmiş şərq ordular qrupu komandanı Xəlil paşanın cəbhə komandanlığına yazdığı teleqrafı gətirdilər. Telefonla Bəyaziddə qeyd etdirdik. Xəlil paşa bu teleqrafında müfrəzənin Naxçıvandan çəkilməsi bolşeviklər tərəfindən qorxaqlığımıza dəlalət edəcəyindən müfrəzənin təcili olaraq Naxçıvana göndərilməsini təklif edirdi.

Xəlil paşanı şəxsən çox cəsur olaraq tanıyırıq, biz hələ məktəbdə oxuyarkən onun bolqar quldurlarına qarşı qəhrəmancasına mübarizəsinin hekayətinə qulaq asmışdıq. Bolşeviklər istədiyini əldə etmək, yəni müfrəzəni almaq üçün türklərun çox çəkindikləri qorxaqlığı irəli sürmüşdülər. Bu teleqraf indiyə qədər bolşeviklər və onların qüvvəsi haqqında xəyallarımızda qurduğumuz ispan şatosunun təməlini dağıtdı: onlar gələcək, şimal istiqamətində ildırım kimi sürətlə irəliləyəcək deyə neçə gecədir yatmadan Şahtaxtının boz təpələrindən gözümüzü ayırmamışdıq... Bu ümidsiz bir za-

manda özümüzdən ümidi kəsməmişdik,düşdüyümüz yerdə qalmırdıq, amma ilanı da tapsaydıq ona sarılacaqdıq. O acı günləri yaşayanlar bilər.

Müfrəzəmiz bolşeviklərin şimal istiqamətində güman edilən hücumunu dəstəkləmək üçün Ərəblər kəndinə gedərkən ingilislərin xilafət ordusu hələ İzmitdə idi və Bolu-Düzcə–Adapazarı–İzmitdə 29 iyul 1920-ci ildə ikinci üsyanı alovlandırmışdılar.Xilafət ordusuna əsaslanaraq bu bölgədə çərkəzlər bu millətin başına bəla olmaqda davam edirdilər. Fransızlar və onların əlaltıları Milli əşirəti aldığı zərbədən sonra çölə, fransızların himayəsinə sığınmışdı,amma yenə Urfa bölgəsi üçün bir təhlükə təşkil etməkdə davam edirdi. Orta Anadolu üsyanları sarsılmışdı, xalq ilə yeni idarə arasında etimad və əmniyyətin təmin edilməsi üçün zaman lazımdı.

Yunanlılar Anadoluda Bandırma–Bursa–Alaşəhir xəttinə qədər irəliləmiş, onsuz da zəif və az olan qüvvələrimiz əzilmişdi.Əsaslı bir ordumuz hələ yoxdu. Şəxsi təşəbbüslərlə qurulmuş milis qüvvələrinin müqavimət arzu və qabiliyyəti nə dərəcə olursa olsun nizami ordu ilə müqayisə edilə bilməzdi. Ordunun nizami qüvvələrinin mühüm bir qismi üsyan məntəqələrinə bağlı qalmışdı. Yunanlıların istila hərəkətlərini davam etdirəcəyi təqdirdə vahim vəziyyətlər qarşısında qalacaqdıq.

Şərq sərhədlərindəki vəziyyət bundan az gərgin deyildi. Erməni ordusu Türk məmləkətlərini ayaq altına alaraq türk idarələrini (Oltu, Sürməli. Pırnavut, Qağızman, Qars, Sarıqamış) yerlə bir edərək doxsan üç* hüduduna dayanmış, daha da irəli atılmaq üçün hazırlıq görürdülər.Bu geniş hududları müdafiə etmək üçün əldə çox zəif tərkibli dörd

* Ədəbiyyatda adətən 1877-1878-ci illərdə baş vermiş rus-Osmanlı müharibəsi bu cür adlanır. Bu müharibə nəticəsində Qars, Ərdəhan Rusiyanın ixtiyarına keçmişdi*(Tərcüməçinin qeydi)*.

diviziya vardı. Yüksək komanda dairələrinin bu böhranı aradan qaldırması üçün zamana və sükünətə ehtiyacı vardı. Bolşeviklərin ermənilər üzərinə hücuma keçəcəyi ermənilərin təhlükəsindən xilas olacağımıza ümid yaradırdı. Daha açığı onların edəcəyi müharibədən biz istifadə edəcəkdik, amma kimin kimdən istifadə edəcəyini irəlidəki hadisələr göstərəcəkdir. İndilik biz Naxçıvana gələn bolşeviklərə mühafizəçilik etmək üçün gedirik. Xəlil paşanın təklifi əsasında şərq cəbhəsi komandanı bu əmri verdi: "Veysəl bəy müfrəzəsindən süvari bölüyü Şahtaxtı keçidi qarşısındakı erməni qüvvələri ilə təması mühafizə etmək üçün tərk edildikdən sonra qalan qüvvə Qaraçuq keçidindən rahatca Naxçıvana gedəcək və orada Xəlil paşanın əmrinə girəcəkdir"...

## XIV
## NAXÇIVANA GEDİŞ

Əmr 31 iyul səhəri alınmışdı. Hər günkü işlərimizdən başqa bir də zabitlərimizin rütbə əlamətləri məsələsi vardı və eşitdiyimizə görə bolşeviklər apolet və sırmaya düşmənmiş. Bir qisim əsgər sırma ilə, bir qismi isə sırmasız olmazmış. Dostlarımızı çətin vəziyyətdə qoymamaq, daha doğrusu qovulmaq kimi bir məsələ ilə üzləşməmək üçün rütbə əlamətlərini çıxardıq, papaqlarımıza qırmızı parçadan bir ay və ulduz tikdik. Eyni gündə saat 16-da iki yol ilə hərəkət etdik. Müfrəzə əmir zabiti Asım bəyin kəşf etdiyi, arabaların keçməsinə əlverişli olan yolu topçu və arabalı ağır şeylərə, cığırı piyada və yük heyvanlarına verdik. 1 avqust 1920-ci il saat 3-də piyada, saat onda topçu və arabalar Şibli kəndinə yetişdi.

Xəlil paşa, Naim Cavad bəy, yoldaş Bakrof Şiblidə bizi qarşıladılar. Gecikdiyimizdən şikayət və narazılıq etdilər. Ermənilər hücum edər, Naxçıvana gələn bu əmanətləri qırarlarsa biabırçılıq olar, onun üçün də hərəkətimizi tələsdirirdilər. Gecə səhərə qədər hərəkətdə olmuş əsgərə istirahət verib onun güc və qüdrətini özünə qaytarmaq lazım idi. Bərəkət versin, erməni zirehli qatarı Şibli kəndi xəttinə qədər gəlmişdi, saat ona qədər orada qaldı da, bunun sayəsində əsgərə yemək bişirə bildik.

18-ci Qafqaz alayının birinci taburundan leytenant Kərim əfəndini bir neçə adamla və kənddən tədarük edilən atlarla görünməyən bir yerdən Araz çayının o biri sahilinə keçirdik. Dəmir yolunda təxribat törədəcəkdi. Müfrəzədə təxribat kursu keçmiş bir adam olmadığı kimi vasitə və alət də yoxdu, amma dostlarımızda əminlik hissi oyandırmışdı. Onlar dəmir yol xəttinin partladıldığını zənn edirdilər. Çünki 8 bombanın ayrı ayrı partladığını eşitmişdilər.

Düşmən qatarı saat onda rədd oldu.Müfrəzə də günortanın qızğın günəşi altında hərəkət etdi.Arazın sahilindəki qumluq çöl təsiri bağışlayırdı. Əsgərlər istidən boğulurdular, kölgələnəcək bir tək ağaca da rast gəlmək olmurdu. Dostlarımızın salamat qalması üçün bu zəhmətə qatlaşmaq lazımdı.

Keçid yerinə saat on üçdə yetişdik. Araz çayının burada dərinliyi bir metrədən artıq, eni isə yüz metrəyə yaxın idi. Keçid bir bükük xətti izləyir, keçidin bir az aşağısında sular girdablar əmələ gətirirdi. Piyadalar soyundu, bir-birilə əl-ələ verərək dəstənin rəhbərini izlədilər. Qarşı sahil dik idi. İki yüz metr daha suyun içi ilə gedildikdən sonra sahilə çıxılırdı, bu qisimdə bir qurban verdik: bir əsgərimiz heyvanla birlikdə burada batdı. Piyada dəstələri keçdikdən sonra dəstə başçısındakı qərargah arabasını su aparır, qatırlar boğulur, arabanın üst hissəsi üzərək bir tərəfə gedir. Bunu nəzərə alaraq top, sursat və əşyalar dəvələrlə keçirilir. Keçid hərəkatı 16-ya qədər, paltarları qurutma saat 18-ə qədər davam etdi.

Saat 18-də Naxçıvan istiqamətinə hərəkət etdik. Şəhərə yaxın bir yerdə rus briqada komandiri, siyasi komissar 30-a qədər atlı ilə bizi qarşıladı, İnternasional marşını oxuyaraq bizi salamladılar. Münasib bir məsafə uzaqlaşdıqdan sonra biz də salamı qaytarmaq üçün sıraya düzləndik, ancaq hansı marşı oxuyacaqdıq, deyə soruşdum:

–Uşaqlar, hansı marşı yaxşı bilirsiniz?

–Aç bağrını biz gəldik.

–Haydı bərabər!

Axşam Xəlil paşanın verdiyi ziyafətdə ruslar marşımızın çox xoşlarına gəldiyini söylədilər. Adını soruşdular:

–Türk inqilab marşı,–dedim.

* * *

Naxçıvana ala qaranlıqda girdik. Boş və ölgün bir şəhər. Küçələrdə yerlərə sərilmiş xəstə qaraltıları, iniltilər son

həyat əsəri əlamətləri təsiri bağışlayırdı. Bir zaman nəşə ilə dolub daşan canlı, qələbəlik şəhərin bu günkü sahibsiz və qaranlıq halı dörd il əvvəl arxa (cəbhə?) komandiri olaraq bir səhər Ərzurumu tərk edərkən duyduğum kədəri təzələdi. Xalq gələnlərin üzünü görməmək üçün ya yurd-yuvasını tərk etmiş, yaxud bir əsrdən bəri hər nəslin yad və zalimlərə etdiyi kimi evlərinə qapanmış, qaranlıqlara, matəmlərə bürünmüşdülər. Bizi qonaqçı olaraq qarşılayanlar keçmiş türk döyüşçüləri (müharib) oldu. Bunlardan bəziləri vaxtilə şəhərdə təşkil edilmiş inzibat bölüyündə (hərbi polis) iş başında idi. Bu dostları tapmaq kefimizi bir az açdı.

O axşam Xəlil paşa bolşevik zabit əlamətlərini istifadə etmək əmrini verdi. Sonra bütün orduya qəbul edildi. Bir neçə gündən sonra da cəbhə komandanlığından müfrəzənin yeni adı bildirildi, möhür göndərildi: "İnqilabi Türkiyə şərq cəbhəsi qızıl müfrəzəsi".

## XV
## BOLŞEVİKLƏRDƏ NİZAM-İNTİZAM

Naxçıvana illərdən bəri cəbhə həyatı ilə yaxşıca polad kimi bərkimiş 500 əsgər, dörd top, iki pulemyot, yüz doxsan heyvanla çatmışdıq.

Ertəsi gün təhlikəsizlik və yerləşmə işlərilə məşğul olduq. Bəyaziddən bir istehkam manqası ilə pontonla (tombaz) bir qatır yükü partlayıcı maddə göndərildi. Bir lazaret (sanitar bölüyü) açıldı.

Ermənilərin Naxçıvana qarşı bir təşəbbüsü olmadı. Yalnız 6 avqustda zirehli bir qatar Naxçıvana yaxın dəmir yol müşahidə yerinə gəldi. Ön qaraul tağım komandiri ehtiyatda olan leytenant Səadəddin o sırada orada abdəst almaq üçün soyunmuş imiş. Qatar səsini eşidincə başmaqlarını qoyub ayaqyalın qaçır,

Bolşeviklərlə bir yerə yığışanda fikri ən çox məşqul edən nizam-intizam məsələsi idi. Yeni daxil olduğumuz mühitin əsgərlər üzərində göstərməkdə olduğu təsir nə şəkildə işimizdə əksini tapacaqdı? Bu məchul aləm içində bir ovuc qüvvəmiz əriyib gedəcək, ölkəmiz bunlardan istifadə edə bilməyəcəkmiydi? Yoxsa bolşevik şoferi kimi iş görəcəkdi?

Bir gün Xəlil paşa və bolşevik komandirlərlə avtomobillə qazarma təpəsinə ərazini tədqiq etmək üçün gedirik. Amma nə gediş! Dörd komandir az qala maşından aşıb düşəcəkdik. Bir rus zabiti olduğunu sonradan eşitdiyim komandirin bənizi sapsarı olmuşdu, dodaqlarını gəmirirdi.

Ərazini gördük, avtomobilin yanına qayıtdıq. Şofer qazarmada sobranyaya* getdiyindən xeyli gözlədik. Kimin həddiydi əlini siqnala toxundursun. Şofer gəldi, sonra bir az da köməkçisini gözlədik. Qayıdanbaş şoferin həmin o tərs və çiy hərəkətləri ucabatından az qaldı dərəyə yuvarlanaq.

* Müəllif mətndə bu şəkildə işlətmişdir.

Təkərin biri körpü müqəvvasının üstünə çıxdı. Bizə bir şey oldu, amma yenə maşından sağ-salamat xilas olduq. Təkər partlamışdı. Şofer domkratı komandirin əlinə verdi.

Bu şofer nə istəyirdi? Niyə belə əsəbi idi? Maşın sürərkən də damağındakı siqaretinə bir söz deyən olmadı. Komandir qiymətli vaxtını fəda edərək onu gözlədi, səsini çıxarmadı. Daha nə istəyirdi?

Türklərin belə mənasız, kobud hərəkətlər etməsini,öz vəzifəsini yaddan çıxarmağını güman etmirdim, amma bir gün baterya komandiri gəldi: "Əsgərlər tımara çıxmırlar. İndiyə qədər biz tımar etdik. Bundan sonra da onbaşılar tımar etsin deyirlər",–dedi. Bir gün də hərbi polis bölüyündən Veysəl çavuş yaxa-başı açıq iş otağıma girdi. Rəsmi təzim etmədən mənə yaxınlaşdı,əllərini stoluma dayadı. Hərbi polis zabiti Hüseyn əfəndini dəyişdirməyimi tələb etdi.

Bunlar günün modası və xoş niyyətlə edilmiş təşəbbüslərdi. Bərəkət versin mühütün oyandırıcı təsirləri dadımıza çatdı. Bolşeviklər bütün ərzaqı müsadirə edib, bunları özləri üçün işlədirdilər. Nəqliyyat vasitələri zəbt olunmuşdu. Hər şey pozulmuşdu. Məmləkətdə bu işləri düzəldəcək vasitə və kadr çoxdu, amma hamısı bir-bir aradan çıxmışdı. Küçələrdə sürünən Zəngibasar, Şərur, Yaycı, Dərələyəz qaçqınlarının halı ürəkləri sızladırdı. Bir gün bolşevik briqada komandiri və kölgəsi kimi ondan ayrılmayan siyasi komissarla birlikdə küçədən keçərkən divar dibində yerə sərilmiş ölüyə bənzəyən gənclərdən birisi ayağa qalxdı, bizə tərəf gəldi:

–Çörək, yəni əkmək paylayan xan hansıdır?-deyə soruşdu. Təbii ki bir cavab ala bilmədi. Bir gün iki rus əsgəri qadınlar hamamına girir. Bizim hərbi polis əsgərləri onları döyərək hamamdan çıxarırlar. Bu hadisə bolşevik briqada komandirinə çatdırılmadı, yaxud bizdən gizlətdilər. Pis adamların bu həyasızlıqları, xalqın ümumi vəziyyəti, səfaləti, bolşeviklərin əleyhinə aparılan mükəmməl təbliğat yerini

tapırdı.

Bolşevik briqada qərargahında dörd-beş nəfər türk kommunisti var idi. Bunları çağırıb bolşeviklərdə əsgəri xidmət haqqında mühazirə oxumalarını xahiş etdim. Bu təklifim həyəcanla qarşılandı, xoşlarına gəldi. Mühazirə mövzularını mən belə tərtib etdim: Qızıl orduda itaət, Qızıl orduda nizam-intizam vasitələri, vəzifəni yerinə yetirmək yolları. Müfrəzə əsgərləri talan edilmiş kino-teatr binasında toplandı. Məhmətciklərim (əsgərlərim) yaxa-başları açıq döşəmədə bardaş qurub oturdular.Özlərindən razı şəkildə mühazirəni dinləməyə hazırlaşdılar. Qızıl ordunun zəif zamanı olduğu üçün kommunistlərin onu mübaliğəli şəkildə tanıdacağını güman edirdim. Mühazirəçi Qızıl Ordunu dünyanın ən müntəzəm və nizam-intizamlı ordusu kimi qələmə verdi, hətta dedi ki:

–Manqada bir nəfər vəzifəsini yerinə yetirməzsə manqa yoldaşları dərhal onu pisləyər, qazarma divarına dayayar, güllələyərlər: Ürəyimdə: "hay allah razı olsun" dedim. Əslində hələ mühazirə zamanı məhmətciklərim büruzə vermədən yaxa düymələrini bağlamış və diz çökmüşdülər.

Başqa mühazirəyə lüzum qalmadı. Bambaşqa gözlə gördükləri bolşevik davranışından dərs aldılar. Bundan sonra zabitlərim əsgərlərimin bolşeviklərə qarşı duyduqları narazılıq hisslərinin bariz şəkil aldığını mənə məruzə edirdilər. İndi işimiz sıravi heyəti təskin etmək, şiddətli hərəkətlərə müraciət etmələrinin qarşısını almaqdı.

## XVI
## AVQUST AYI BOŞ KEÇDİ

İranin Şibli kəndində müfrəzəni qarşılayan kommunistlərin müfrəzəmizi tez bir zamanda Naxçıvana aparmaq üçün təlaş etməkdə və tələsməkdə haqları varmış: Süvari alayı deyə cəbhə komandanlığına bildirilən bolşevik birliyi əlli atlı ilə türk və erməni kommunistlərdən ibarət imiş.*

Həqiqət bu ikən bolşeviklər qorxu və təlaşlarını, təhlükəli vəziyyətlərini gizli tutmaq məsələsində hünər göstərirdilər. Biz də bunları bir qüvvə zənn edir və Naxçıvana gələn kimi qara gözlərimiz üçün ermənilərə hücum edəcəklərini düşünürdük. Onlar bizdə oyandırdıqları bu xəyalı yaratmağa səhlənkarlıq etmirdilər. Yaxında briqadalarının gələcəyini deyib dururdular. Sentyabr ayına bu ümidlə girdik. Çünki avqustun axırlarında Bakı yolu açılmışdı.Könlümüz bizi bu umudla yaşamağa məcbur edirdi, çünki Anadoluda vəziyyətimiz daha ciddi və böhranlı bir hal almışdı. Cənubda Urfa cəbhəsində Milli əşirəti fransızların ikinci Urfa hücumunu asanlaşdırmağa cəhd göstərirdi. 26 avqust 1920 -ci il tarixdə bu vətənsiz sürülər məmləkətimizə yürüş etdilər. Viranşəhri ələ keçirdilər. Telefon və teleqraf xətlərini kəsdilər.

Qərb cəbhəsində 29 avqustda yunanlar Uşakı işqal etdi. Dumlupınar önlərinə qədər gəldilər. Bir korpusla Nazilli istiqamətində irəliləyirdilər. Bursa daha əvvəl düşmən əlinə

---

* Xəlil paşa Mustafa Kamal paşanın məlumatı ilə Moskvaya gedir, Türkiyəyə kömək alır: iki milyon qızıl və yardım işini tənzim etmək üçün bir xeyli kommunist ilə Naxçıvana hərəkət edur. Gorusa gəldiyi zaman yolun erməni qüvvələri tərəfindən kəsildiyini görür. Ruslardan qüvvə istəyir. Bir suvari dviziyası gəlir və yolu açmaq üçün hərəkətə başlayır. Xəlil paşa bunların hücumunu gözləmədən rusların razılığı üzrə 50-yə qədər rus suvarisi ilə dağ yolundan Naxçıvana hərəkət edir. Ermənilərin vəziyyəti başa düşdüklərini öyrənir. Son gün sürətlə altı-yeddi saat at qoşdurub erməni qüvvələrinin olduğu bölgəni keçib 28 iyulda Naxçıvana yetişir. Amma arxadan gəlməkdə olan suvari alayı atəşə tutulür, qızıl külçələrlə yüklü arabaları ötürüb qaçırlar. Ruslar Naxçıvanı ermənilərə verməyi vəəd edərək yolu anlaşma ilə açırlar. Çünki hərbi qüvvələri yoxdu.

keçmişdi. Xainlər məmləkətin hər tərəfində fəsad qazanlarını qaynadırdılar. Ordumuzun böyük qisminin cəbhəyə getməsinə mane olurdular.

Xəyalımız bu idi ki, bolşevik briqadası gələr, birlikdə sərt bir şillə çəkərək ermənilərin ağıllarını başlarına gətirərsək Anadolunun indiyə qədər salamat qalmış şərq qismini təcavüzdən xilas edə bilərdik.

* * *

Sentyabrın üçündə Xəlil paşa Bakıya getdi. Gedərkən ancaq bolşevik komandirlərə yaxşı baxmağımı, onlara tabldotdan yemək verməmi tapşırdı.

O günə qədər nə bolşeviklərlə, nə də Xəlil paşa ilə yaxın bir təmasım olmadı. Nə etdiklərini də bilmirdim, amma rusların məmləkəti ələ keçirdikləri, xalqı heçə saydıqları, onlarla maraqlanmadıqları, xalqın acından ölməmək üçün kommunist partiyasına girmələrini gözlədikləri anlaşılırdı. Biz nə gözləyirdik, nə oldu? Onlar Qarabağ və Azərbaycana yerləşə bilmək üçün avqust ayında imzaladıqları bir müqavilə ilə Naxçıvanı ermənilərə vəəd etmişdilər. Bu həqiqətlər anlaşıldıqdan sonra Naxçıvanda bu adamlarla yaramaz bir ömür yaşamaq mənə çətin gəlməyə başlamışdı. Xəlil paşa zamanından bəri qərargah olan yer indi kommunist partiyasının mərkəzi idi. Erməni Azaryan hər gün mühazirə oxuyurdu, hər gün də eyni adamlar gəlirdi. Düz otuz adam idi,otuz bir olmurdu. Tez bir zamanda bu zalım mühitdən xilas olmaq üçün ağlıma istefa vermək gəldi. 8 sentyabr 1920-ci il tarixində qələmə sarıldım: "I dünya müharibəsində 1917-ci ildə işimlə əlaqədar yolum düşdü, bir gecə evimdə qonaq qaldım"-deyə başladım. Leytenant Səadəddin şifrələdi, mərhum Cavid paşa geri qaytardı,mən israr etdim, vecinə almadı. Qərəz, bu cəhənnəmdən xilas ola bimədim.

## XVII
## ORDUBAD DAĞLARINDA

24 sentyabr 1920-ci il tarixdə bolşevik briqada komandanı Ordubaddan bir teleqraf göndərdi. 28-ci bolşevik diviziyası Gorusdan Mehri yolu ilə Ordubada gələcəkmiş. Keçidin açıq tutulması üçün müfrəzənin dərhal Ordubada gəlməsini xahiş edirdi. Bizim xəyallarımıza uyqun bir hadisə: diviziyanı gətirər,ermənilərin arxasına horra edərik. Dərhal Bayazidə yazdım, icazə istədim.26 sentyabr səhəri 18-ci Qafqaz alayının birinci tabur ilə pulemyot bölüyünü hərəkətə hazırladım. 26 sentyabr səhərisi oldu, hələ əmir gəlmədi. Bolşevik diviziyası qəzaya uğrarsa ayıb olar və həm də belə bir köməkçi qüvvədən məhrum olardıq. Məsuliyyəti öz üzərimə alaraq taburu yola çıxardım. Tabur getməyinə getdi, amma axşam saat 20-də aldığım şifrə ermənilərin hududumuzu keçdiyini bildirir və mənim icraatımın əksini əmr edirdi: "24 (sentyabr)səhəri ermənilər basqın edərək Bardız məntəqəsindən hücuma keçdilər. Ordubadda briqada komandanı ilə görüşün və bu hərəkatı sonraya saxlayın. Şahtaxtı istiqamətində ermənilərə qarşı heç olmasa gücünüzü nümayiş etdirin."

Səhər qatarla hərəkət edəcək taburu geri qaytaracağam. Ordubada gedib briqada komandiri ilə görüşəcəyəm. Bolşeviklər bu təklifə razılıq verəcəkmi, vəziyyətləri buna əl verirmi?–deyə düşünürdüm. Daha başqa şeylər də adamın ağlına gəlir:

Ermənilərin hücuma keçdikləri gün, türk komandanlığının düşündüyünün əksinə olaraq erməni ordusunun xeyrinə olaraq müfrəzənin əks bir istiqamətə dəvət edilməsi təsadüfün qəribə bir cilvəsidir mi, yoxsa Naxçıvanı ermənilərə verən rus-erməni razılaşmasının bir nəticəsimidir, bunu qəti deyə bilmirəm. Mütəəssir, əzgin bir ürəklə 27 sentyabr

səhəri qatara minməyə hazırlıq görərkən bir şifrə də gəldi: artıq qüvvə nümayiş etdirməyə lüzum qalmadığı, müfrəzənin hərəkətində sərbəst olduğu bildirilirdi.

Vəziyyətin bizim xeyrimizə dəyişmiş olmasının verdiyi sevinclə qatara oturdum. Culfadan sonra atla o axşam Ordubada çatdım, bu hadisələrin baş verdiyini öyrəndim: Bolşeviklər Mehrini zəbt etmək üçün hücuma keçmiş,amma çox pis şəkildə məğlub olmuşlar. Bizim vasitəmizlə bu dağlıq bölgəni zəbt edib tovariş Vartanyanı oraya diktator olaraq qoymaq istəyirlər. Fəqət bu məqsədi gizlədir, "biriqada gəlir" mahnısına davam edirdilər. 30 sentyabrda briqadanın dəstə başçısının Mehriyə gəlməsi ehtimal olunurmuş, 29 sentyabrda nə olur olsun hücum edilməsi lazım imiş.

Bizim və bolşeviklərin total olaraq qabiliyyət və qüdrətimiz xaricində olan belə bir təşəbbüslə zəifləyib əldən düşməymizin mənasız olduğu aşkarca görünür, amma gəl bunları başa sal görüm?! Belə bir təklif düpədüz qorxaqlıq göstərmiş olmaqdan başqa bir şeyə yaramayacaq. Ancaq müşkül məsələni gözləri ilə gördükləri, həyat təhlükəsi qarşısında qaldıqları zaman doğru yolu tapacaqlar,–deyə düşünürdüm.

29 sentyabr səhəri ərazi kəşfiyyatı ilə məşğul oldum,saat 16-da yürüşə başlatdım. Əvvəla hudud üzərindəki dəniz səviyyəsindən 3000 metr yüksəklikdə olan ən hündür Soyuq dağını işğal edəcəkdim. Gənzə kəndində mola (dayanarkən) verərkən əsgərlərə məqsədimizi, vəzifəmizi izah edən zaman Bəyaziddən bir teleqraf gəldi, ordumuzun hücuma keçdiyi, iki top ələ keçirildiyi, müvəffəqiyyətlə hərəkata davam edildiyi bildirilirdi. Qaranlıq düşməsini gözlədik, saat iyirmidə yürüşü davam etdirdik. Altı saat yarım yoxuşu dırmaşdıqdan sonra mola verdik, saat yarım briqada komandanını gözlədik, nəhayət, xəstə olduğu, hərəkata mənim tərəfimdən rəhbərlik edilməsini xahiş etməsi xəbəri gəldi.

Briqada komandanı bir qəzetçi idi. Xəstəliyi də siyasi idi. 30 sentyabr saat 4-də təkrar yola düzəldik. Saat 7.30-da Soyuq dağının ətəyinə, saat 12-də təpəsinə çıxdıq. Quş uçuşu 5 km, havaya doğru iki kilometr yarım məsafə qət etmişdik. Bolşevik zabitlərinə dağın zirvəsindən bu füsünkar təbiətin əzəmətini göstərdim:

–Mehri təxminən bu istiqamətdədir, haydı baxalım, –dedim.

Hamısı bu təklifimi lətifə kimi qəbul etdilər. İki kilometr yarım dərinliyindəki çoxsaylı vadilərdən birinə enmək istəyən hələ vadi yatağına çatmamış meşələr, qayalıqlar içərisində itib batar. Bu yəqindir.

Bolşeviklərin briqadasının mövcud olmasına dəlalət edəcək heç bir əlamət yoxdu. Vadilərdəki geniş bağ əraziləri arasında kəndlər sakit, ocaqları tüstüləyirdi.

Dağ silsiləsinin üstündən cənuba doğru yürüşə davam edib Araz çayı sahilində hərəkatı başa çatdırmağa qərar verdim. Kiçik toqquşmalardan sonra birinci gecəni Soyuq dağında bərk soyuq olduğu üçün yatmayaraq keçirdik. İkinci gecə Xorxot dağında susuz qaldıq.

Belə bir su davası oldu: Bizim suyumuz yubanmışdı. Bir mülki adam da su dolu yekə bir qab ilə yanımızdan keçirdi. Yavərim (denşik) Əli ondan bir az su istədi. "Verməməm, ruslara aparıram"–deyincə iskilipli Əli qılıncını çəkdi.Adam qabı da atıb qaçdı. Bolşeviklərə xəbər verdi. Onlar Əlinin başına yığışdılar. Qılıncı görüncə "köməyə gəlin, suyumuzu alır" deyə qışqırdılar. Əlinin qabı doldurmasını seyr etdilər. Mən də bu mənzərəni doyunca seyr etdim.

2 oktyabr 1920-ci il tarixdə saat 14-dən etibarən müharibə vəziyyətimiz pozuldu. 40 rus, 60 türkdən ibarət qüvvəmizi erməni kəndliləri geri qaytardılar. Arxası 70 dərəcə meylində yamac olan bir qayalığa çəkildik. Burada dayanmaqda bir fayda olmadığını, gözlədiyimiz bolşevik briqadası

üç gündən bəridir gəlmədiyi üçün hərəkata burada son vermək məcburiyyətində olduğumuzu bolşeviklərə izah etdim. Bu dik yamacdan böyük zəhmətlə çəkildik. Ermənilər fərqinə varmadılar, yoxsa halımız xarab olacaqdı. Əsgərlər 3 oktyabr saat 2-də Ordubada gəlib çatdı.

Briqada komandiri bu hərəkatı təkrar etmək fikrində idi. Naxçıvandakı tabura mənim imzamla özbaşına əmr vermiş, Ordubada cəlb etmişdi. "Artıq biz tərəfdən hərəkat olmayacaq, belə şeylər bir dəfə olar, iki dəfə yox" cavabını verdim. Əsgərlərim istirahət etdikdən sonra Naxçıvana hərəkət etdik. 9 oktyabrda Naxçıvana gəldim. Briqadanın istədiyi bir taburu Araz keçidindən keçirərək Bəyazidə yola saldıq. Təsadüfən 4 sinif yoldaşı müfrəzədə birləşmişdik. Üçü də tabeliyimdə tabur komandiri idi. Taburu daha qüvvətli olduğu üçün bitlisli Adil bəyi göndərdim. Hamımız onunla qibtə hissi ilə xudafizləşdik.

## XVIII
## BOLŞEVİKLƏRDƏ SEÇKİ

Bolşeviklərin işi, gedişatı ortaya çıxdıqdan sonra köhnə təbliğatların əsdirdiyi hava tamam pozulmuş,səmimi kommunistlər ağızlarını aça bilməz hala gəlmişdilər. Ölkəni zorla fəth etmək haqqındakı kommunist planlarının ikinci mərhələsi başlamışdı.

Yerli adamlar arasında rus əməlini həyata keçirəcək müqəvva adam axtarırdılar. Bizim gözümüzün qabağında ruslar süngü işlədə bilmirdilər. Naxçıvana idarə rəhbərliyinə gətirilən adamların adları türkə bənzəyirdi. Amma əsl-nəsillərini bilən yox idi. Uzaq yerlərdən gətirmişdilər. İdarə başçısı qoyacaqları adamları necə seçdiklərini mən nəql edim:

Qüvvətli Cəhri və Nehrəm kəndlərində idarə təşkilatı yaratmaq məqsədi ilə tək getməkdən qorxduqları üçün məni də dəvət etdilər. Rədd etmək üçün üzürlü səbəb tapmaq asandı. Ancaq onların taktikalarını öyrənmək həvəsilə təklifi qəbul etdim. Cəhri kəndində bizi yetmiş yaşlarında bir qoca olan Kədlə Kərəm qonaq otağına apardı. Bu kəndin ən kasıb adamını soruşdular və gətirilməsini tələb etdilər. Kəndin çobanı gəldi. Kommunistlər ona bu əmri verdilər: Bu dəqiqədən etibarən sən bu kəndin böyüyü,revkom sədri sən.

Zavallı gənc güldü: Mənimlə zarafat etməyin. Mən bir zad bilmirəm.–dedi.

Biçarə nə bilsin ki, sıravi adamların bir şey bilməsi deyil, bilməməsi lazımdır ki, bolşevik idarəsi qurula bilsin. Türkün fəzilət və biliyə hörmət şüarı bu kasıb və cahil cobanda da öz parlaqlığını göstərirdi. Adam belə işi bacara bilməyəcəyini israrla təkid etdi. Bolşeviklər qırx dərənin suyunu bir yerə yığıb nəhayət, bu vəzifəni onun boynuna qoydular. Onlar fikirləşirdilər ki, bu adam bir dəfə işin başına keçsin, hədiyyələrin dadını anlasın, skumbriya balığı kimi mədəsindən

qarmağa keçəcək, bir daha əmrlərə etiraz edə bilməyəcəkdir.

* * *

Bolşeviklər Cəhri kəndinin camaatına azadlıq verdilər: böyüklər, hörmətəlayiq adamlar ayağa qalxmasın.

Kommunistlərin çobanı dilə tutub yola gətirməsi uzun sürdüyü üçün eşiyə çıxıb içəri girən misafirlər üçün otaqdakı kəndlilər ehtiram əlaməti olaraq ayağa qalxırdılar. Kommunistlər buna etiraz etdilər:

–Bir-birimizdən heç bir fərqimiz yoxdur. Niyə ayağa qalxırsınız,–deyə onları məzəmmət etdilər. Bu sözə ürəyimdə gülürdüm. Bir ara mən eşiyə çıxdım. Dalımca Kəblə Kərəm də gəldi. Bu şəxs türk istiqlal ruhunun simvolu olaraq yarım əsrdən artıq Naxçıvan dağlarını qarış-qarış dolanmış bir qəhrəmandır. Ona Naxçıvanın Koroğlusu deyə bilərik. İyul ayında ermənilərin göndərdiyi sülh şərtləri müzakirə edilərkən Naxçıvan şurasına dişinin dibindən çıxanı deyən bu şəxsdi. Yanıma gəldi, rusların bu ayağa qalxmağa qadağa qoyması ilə əlaqədar belə dedi:

–Mən malmıyam,böyüyümü görəndə ayağa durmayam!..

Bir müddət sonra Naxçıvanda bu hadisəni öyrəndim. Kəlbə Kərəm Cəhridə kommunist partiyasına üzv olan beş-on nəfəri topladıb bir tövləyə doldurur, nə deyərək bizim ata-babalarımızın düşmənlərinə kömək etdiniz:–deyərək onların ayaqlarını falaqqaya qoyur. Ondan sonra da çəkilib İrana gedir.

## XIX
## BİR DESPOT, DİKTATİOR AXTARILIR

Artıq Naxçıvan hökumətinin ərazisində işıqlı və zəngin bir adam və heç bir milli təşkilat qalmamışdı. Bizim Naxçıvan camaatı üzərində mənəvi nüfuzumuzdan istifadə etmələrinə baxmayaraq kommunistlər dörd aydan bəri özlərini həlak etmələrinin faydalı bir nəticələrini görmədilər. Bunun əvəzində biz bolşevikliyin incəliklərini başa düşmüş kimi olmuşduq. Yuxarıda söylədiyimiz kimi ilk mərhələdə füqərayi-kasibə ilə bir parça çörəyi yarı bölmək nəzəriyyəsini hamı təqdir edir və həyata keçirilməsini rəğbətlə gözləyirdi. İkinci mərhələyə keçdikdən sonra camaat bunun tamamilə əksini, xalqın əlindəkinin alınaraq partiya üzvlərinə verildiyini görür, müqavimət göstərməyə başlayır. Ruslar üçün məsələnin həlli çox sadə idi. Süngüyə əl atacaqlardı. Ancaq bunu bizim gözümüzün qabağında etməyəcəklərdi. Digər tərəfdən də sursatları qurtarmış, Bakı yolu bağlanmış, kömək görmək imkanı bəlli olmayan bir zaman üçün qalmamışdı. Naxçıvan camaatını özlərinə düşmən etmişdilər. Bolşeviklər bu müşkül vəziyyətdə bir iğtişaş ola biləcəyindən qorxurdular. Məni bir yığıncağa dəvət etdilər. Bu müşkül vəziyyət, ermənilərin xəyanət və vəhşəti, bunlara qarşı müdafiə tədbiri görmək zərurəti haqqında fikir mübadiləsi oldu. Ən yaxşı müdafiənin Şahtaxtı körpülərini zəbt edib Türkiyə ilə əlaqə yaratmaq olacağını söylədim. Böyük istəklə (entuazm) qəbul etdilər. Bu şəkildə Makudan asan yolla ərzaq tədarük edə biləcəyimizi dedikdə də sevindilər. Bunun əvəzində onlar da mənə bir ehsanda bulundular. Heyrətdənmi, sevincdənmi ağzım açıla qaldı:

Məni Naxçıvan fuqərayi-kasibə Cümhuriyyətinin sədri vəzifəsinə təyin etdiklərini söyləyib qəbul etməyimi xahiş etdilər. Fikirləşmədən qəbul etdim. Buna da sevindilər.

Bunun altından çıxacaq oyunu maraqla gözləyirəm. Başqa təklif etmədilər. Bir neçə dəfə toplaşdıq. Adının nə olduğunu bilmədiyim bir idarə binasında beş nəfər idik. Türk olduğunu söyləyən və kimin nəyi olduğu bilinməyən Vəlibəyov rusların Naxçıvan valisi kimi bir vəzifə daşıyırdı. Aramızda fuqarəyi-kasibədən,yaxud xalq tərəfindən seçilmiş heç kim yox idi. Yığıncaqlarda rusca çıxış etdilər. Axırda qərarı mənə dedilər, imza aldılar. Bütün bu yığıncaqların nəticəsi bolşevik briqadasına on kilolarla kağız pul vəsaiti verməyimdən ibarət oldu. Vəziyyətim cəhrili çobanın vəziyyəti ilə eyni idi. Onu zəif olduğu üçün, məni güclü gördükləri üçün təyin etmişdilər. Bu təyinat dahiyanə idi. Balığı başdan qoxudacaqlardı.

Rəhmətlik briqada komandanım Cavid paşa buna aid raportumu oxuyarkən çox gülmüş və mənə lağ ilə bir təbrik yazmışdı. İki gün sonra istefa etdim, yoldaşlarımı xülyalarımdan xəbərdar etdim.

## XX
## ŞAHTAXTINI ALMAQ ÜÇÜN HAZIRLIQ

Bizim Naxçıvanda olmaqda əsas məqsədimiz ermənilərin təcavüzünə mane olmaq, erməni ordusundan üzərimizə qüvvə çəkmək surətilə ordumuza kömək etməkdi. On beş nəfərlik, iyirmi nəfərlik bölükləri ilə iki taburun mühüm bir iş görə bilməsi şübhəli idi. Əlli bolşevik atlısı da elə bir say deyildi. Taburları milislərlə möhkəmləndirməyi düşündüm. Əslində heç çox milis birliklərini idarə edəcək zabit və çavuş da yox idi.

8 oktyabr 1920-ci il tarixindən etibarən silah işlətməyi bacaran könüllü milislərin qeydiyyatı başlandı. On gün ərzində 650 piyada, 400 süvari qeydiyyata alındı. Bir araba kolo (?), bir səhiyyə müfrəzəsi, bir rabitə dəstəsi, iki tüfəngli, bir pulemyotlu tağım təşkil edildi.

Əldəki silah və sursat, taburların çərçivəsi, tutumu artıq qüvvə cəlb olunmasına imkan vermirdi. Bunları geyindirmək də bir məsələ idi. Özümüzün əsas əsgərlərimizin altmış nəfərinin hələ şineli yoxdu. İki cür manqa düzəltdik: Əsas əsgərlərdən tərtib olunmuş manqalarla iki əsas əsgərin əmrində milislərdən tərtib olunmuş manqalar. Yenidən iki könüllü milis dəstəsi düzəldi. Bunlar o həvaliyə yerləşmiş keçmiş döyüşçülərlə çərçivələnmişdi. Birisi leytenant Xəlil İbrahim bəyin, o birisi Mustafa Kamil bəyin əmrində idi.

### *HÜCUM PLANIMIZ BELƏ İDİ*

Düşmən dağlarla Araz çayına dayanan iyirmi kilometr genişliyindəki mövqeyini ən çox iki alayla müdafiə etməkdə idi. Əgər varsa bir alay da ehtiyatda olmalı idi. Mövqe hazır deyildi. Sadə baş səngərlərindən (sipər) ibarət idi.

Bütün cəbhədə milislərlə güc nümayiş etdiriləcək, müntəzəm qüvvələrlə mövqeni orta qismindən, Sust kəndi civa-

rından yarmaq surətilə 4.XI.1920-ci il tarixdə saat 6-da hücum başlanacaq. Milslərin sursatı tüfənginin cisminə görə 40 ilə 60 mərmi arasında idi. Geridə ehtiyatı yox idi. Qeyri - müəyyən bir müddətə qədər bu sursat ilə ötüşmək lazım gəlirdi. Belə ötüşmək isə ancaq çox yaxşı yetişmiş bir dəstədə mümkündü. Yeni döyüşçülər dəstə atəşi üçün yetişməmişdilər. Dəstə atəşi ehtiyacı yüngül və ağır pulemyotlarla təmin olunacaq, piyadalar ancaq özünü müdafiə üçün atəş aça biləcəkdi.

* * *

Müfrəzəmiz 3 noyabr 1920-ci il tarixdə saat 12-də Naxçıvandan hərəkət etdi.Süvarilər isə saat 14-də çıxdı. Müfrəzənin toplanma yeri olan Sust kəndinə gedən cığır xəritə üzərində iyirmi kilometr uzunluğunda idi. Saat 14-də başlayan qar çovğunu yürüşü çox çətinləşdirdi. Əsgər və çavuşların təchizatı yaxşı deyildi. Min zəhmətlə dizə qədər palçığa bata-bata saat iyirmidə köynəyinə qədər islanmış bir vəziyyətdə bir xaraba kəndə gəlib çıxdıq. Öküz arabalarındakı ağır döyüş vasitələri palçığa saplanıb qalmışdı. Bütün məşəqqətlərə, məhrumiyyətlərə baxmayaraq hamı könüldən hər şeyə qatlaşır, böyük bir fədakarlıqla hücum saatını uçuq divarların dibində gözləyir, istirahət etmək mümkün olanda istirahət edirdilər.

Mən su çəkmiş sapoğumu çıxarıb odun üzərində qurudarkən yanımda bir-iki bolşevik peyda oldu. Yalnız adı mövcud olan ikinci bolşevik alayının siyasi komissarı olduğunu söyləyən tavariş məni bu halətdə görüncə dərdi açıldı: "gördünmü komandiri,"–deyə başladı,uzun uzun nitq elədi. Bu əsnada, yəni 4.XI.1920-ci il saat birdə iki atlı milis gəldi. Rusların milis süvarilərini də götürərək Naxçıvana qayıtdıqlarını, ikinci alaya əmr apardıqlarını, ancaq alayı heç bir yerdə tapa bilmədiklərini söylədilər. Əmrdə belə yazılmışdı: "Hücum təxirə salındı. Qayıdın, ayrıca əmr veriləcəkdir".

Bu qərar haqqında bizə məlumat vermədilər. Prinsip etibarilə belə bir qərar verməyə, həm də milisləri götürüb aparmağa səlahiyyətləri yox idi. Ermənilərin şərqdən Sələsüz kəndi üzərindən Naxçıvan istiqamətində hücum etmək ehtimalı adamın ağlına gəlirdi. Bu halda bizə xəbər verməleri gərəkdi. Vəziyyətin aydınlaşmasını gözləməyi qərara aldım. Bu gecə bolşeviklərin etdiyi işlərin xülasəsi belədir: Bir kommunist heç bir səbəb olmadan qərargahıma gəlib məni tovlamağa çalışarkən digər tərəfdən bolşeviklər yayınmış, aradan çıxmışlar. İndi gəl bunun təşkil olunmuş oyun olmağından şübhə etmə də...

4.XI.1920-ci il saat altıya qədər başqa heç bir yeni xəbər gəlmədi. Bizim hücum planımız pozulmuşdu. Təkbaşımıza hücum etmək və yaxud olduğumuz yerdə gözləməyimiz təhlükəli idi. Saat yeddidə Naxçıvana hərəkət etdik. Ermənilər səngərlərin üzərinə çıxıb bizə tamaşa edirdilər.

Saat 14-də Naxçıvana daxil olarkən döyüşə getməkdə olan biolşeviklərlə rastlaşdıq. Briqada komandiri haraya gedirsiniz deyər kimi dayandı, mən də yalnız gülməklə qarşılıq verib yoluma davam etdim.

Dediklərinə görə bolşevik əsgərləri üşümüşlər: "bu gecə gedək, sabah gələrik" deyə qərar vermişlər və komandirlərini qabaqlarına qatıb getmişlər. Ancaq bayaqkı ikinci bolşevik alayına xəbər göndərdiklərini bizə anlatmağı yaddan çıxarmamışlar. Təbliğatlarını apararkən bizi də xəbərdar etmişlər.

## XXI

## YENİ HÜCUM PLANINDA "OLMASA DA OLAR" XANƏSİNİ AÇMAĞA MƏCBUR OLDUQ

Şahtaxtına hücumdan vaz keçmədik, vaz keçməyə də səbəb yoxdu–yeni bir planla bu işi təkbaşımıza həyata keçirməyə qərar verdik. Hərçənd şərqdəki ordumuz Qarsı işqal etmiş ermənilər Arpa çayına doğru sıxışdırmışdı. Amma qərbi Anadoluda ordumuz son zamanlarda Bursa və Uşaq cəbhəsində iki məğlubiyyətə uğramışdı. Çərkəz Ədhəmin milislərinin tutumu (davranışı) da məğlubiyyətə doğru gedirdi. Erməniləri tez bir zamanda sülh bağlamağa məcbur edərək qərb cəbhəsinə kömək edə biləcək bir vəziyyətə gəlmək şərq ordumuz üçün ən öməmli bir məsələ idi. 7 noyabrda hücuma keçmək haqqında qərar verdik. Bolşeviklərin qatılmaması, qatılsalar belə gözləmədiyimiz bir məqamda yenə işdən yayınacaqlarını ehtimal edirdik. Ona görə də müharibə planında onları "olmasa da olar" xanəsinə yazdıq.

Sağ cinahda Mustafa Kamilin milisləri Sust kəndindən Qarabağlar kəndi istiqamətində, leytenant Xəlil İbrahim bəy komandanlığındakı piyada və süvari milislər və yeganə topumuz Şahtaxtı istiqamətində baş qatma hücumu edəcəkdilər. Müfrəzə iki taburu ilə şose yolunun şimalından Xok kəndi istiqamətinə hücum edəcək, düşmənin Şahtaxtındakı alayını Araz çayına doğru sıxışdıracaqdı.

Planın ruhu bu idi. Altısından yeddisinə keçən gecə saat 22-də Naxçıvandan hərəkət etdik, irəli çəkilmiş döyüş postlarının himayəsində gecə saat üçdə əsgərə çay və qəhvəaltı verdik, şose yolunu tərk edərək Xok kəndinə gedən cığırla hərəkət etməyə başladıq. Soyuq deyildi. Amma palçıq çox əziyyət verirdi. Əsl hücum edən müfrəzənin qüvvəsi 145 piyada, 310 milis döyüşçüsü, iki dəzgahlı pulemyot ilə 4 levis (?) tüfəyindən ibarətdi. Sağ cinahımızda könüllülər əlli nəfər,

sol cinahdakılar yetmiş piyada ilə 150 süvari idi.

Düşmən təpələr üzərində idi. Bu ərazi şərqə tərəf getdikcə yüksəlir, sərtləşir, meşələrlərlə əhatə olunurdu. Düşmən mövqelərinin arxası düz ərazi sayılırdı. Müfrəzə 7.X.1920-ci il saat səkkizdə düşmən mövqelərinin önünə gəldi və belə tərtibat aldı: 18-ci Qafqaz alayının birinci taburu hücuma məmur edildi. İkinci tabur ehtiyatda idi. Dəzgahlı pulemyotlar atəşə hazır olduqda tabur yaxınlaşmağa başladı. Düşmən zəif idi. Uzaqdan atəş edir, süngü hücumünu gözləməkdən çəkinirdi. Elə ilk həmlədə düşmənin Xok kəndi cənubundakı cəbhəsi darmadağın oldu, amma sağda və solda düşmən yerində dayanırdı.

Müfrəzə Xok kəndinə yaxınlaşdıqda Xəlil İbrahim bəyin və süvarilərin qarşısındakı düşmən geri çəkildi. Saat on birin yarısında Xok kəndini ələ keçirdik. Süvarilər düşmənin arxasınca düşdü. Ancaq sağ cinahımızdakı milislərin qabağındakı düşmən müqaviməti davam etdirirdi. Biz isə müqavimət göstərən düşmənin yan tərəfdən arxasına keçmişdik. Yeni bir vəziyyət meydana gəlmişdi. İkinci dəfə hücuma keçmək lazım gəlirdi.

* * *

Hücumun ikinci mərhələsini Xok civarından başladıq. Müfrəzə şimal istiqamətini ötürüb şərq istiqamətinə qayıtdı. I tabur Qarabağlar istiqamətinə, II tabur və dəzgahlı pulemyot taqımı düşmən cəbhəsi ilə Qarabağlar arasındakı meşə istiqamətinə hərəkət üçün istiqamətləndirildi. Saat on beşdə bələdçimiz noraşenli Qəhrəman Fətullah bizi düşmənin lap arxasında düşmən mövqeyinə paralel bir sıldırımın üstünə çıxardı. Düşmənin bizdən xəbəri yoxdu. Geniş bir vadinin o biri yamaclarında bizdən 1500 metr qədər uzaqdakı mövqelərdən şərq istiqamətində rahat rahat atəş müharubəsi ilə məşquldu.

Bu vəziyyət əsgərimizi çox nəşələndirmişdi. Ancaq

vəziyyətdən necə istifadə edəcəkdik. 34-cü Qafqaz alayının II taburunun mövcudu 45 daimi zabit və 80 milisdən ibarət idi. Bunlarla düşmənin bütün qüvvəsini qavramağa imkan yoxdu. Əsgərlər yorğundular. Qarabağlar kəndində düşmənin ehtiyat qüvvələri vardı. Biz düşmənin arxasına keçmişdik, amma bizim də iki düşmən birliyi arasında sıxışıb əzilməyimiz mümkündü. Vaxt da yoxdu.

Belə bir plan izlədik: bütün döyüşçü və yavərlər, nə varsa, təpənin üstünə çıxıb qaraltı göstərdi. Bir bölük düşmən arxasında güc nümayişinə başladı. Pulemyotlar atəş açdı. Düşmən ürkdü. Şimal-qərb istiqüamətində qaçdı. Qarabağlardan bizə tərəf hücuma keçməyə can atan düşmən süvarisi də pulemyot atəşi ilə geri oturduldu. Beləcə düşmənin bütün cəbhəsi yarıldı.

Təxminən saat on beşdə bolşevik briqada komandirinin saat onda yazılmış bir raportu gəldi. Qarşılarında ermənilərin dörd topu olduğu, buna görə irəliləyə bilmədikləri göstərilir və kömək göndərilməsi tələb edilirdi. Həqiqətən düşmən topçusu at üstündə o təpədən o birisinə qaçmaq surətilə atəşdən qorunmağa çalışdıqlarını biz də görmüşdük. Bu cəhdlərinin əvəzində əsirləri və qənimətləri bolşeviklərin özlərinə verdik.

Hərbi dəstələrimiz bu gün fasilə vermədən iyirmi saat yuxusuz qaldı, fəaliyyət göstərdi, enerji sərf etdi, öhdəsinə düşən vəzifənin yerinə yetirilməsində hamı bir-birilə yarışdı. İtkimiz on şəhid ilə bir zabit, iyirmi üç döyüşçü yaralı idi. Şəhidlərin hamısı, yaralılıarın yeddisi I taburdandı. Tabur komandiri kapitan Əmin bəy mətin sevk idarəsi ilə müfrəzə komandanlığının müharibə planını icra etmişdilər.

Ermənilərin itkisi 180 əsir, qoşqulu iki dağ topu, iki mantelli (?), altısı qoşqusu ilə on dəzgahlı pulemyot idi. Qoşqulu dağ topları Qarabağlar kəndində saxlanırmış. Alay komandiri qaraltılarmzdan və gurultumuzdan qorxmuş

imiş. Dağ yolu ilə çəkilməyə qərar vermişlər. Topları götürmədiyi üçün şosse yolundan sevk etmiş. Toplar briqadaya göndərilən raportla birlikdə Qıvraq kəndində milis süvarilərinə təslim edilmişdi.

* * *

7 noyabr 1920-ci il axşamı qüvvətli bir süvari dəstəmiz olmasına baxmayaraq düşmənlə döyüşdə məğlub olmuşduq. Könüllü atlılıarı rusların əmrinə verməkdə səhv etmişdim. Həm sevk və idarə bilmir, həm də siyasətçiliyi əsgərlikdən üstün tuturdular. Siyasətçilikləri bizimlə səmimi əməkdaşlıq etmələrinə mane olurdu. Hər sahədə üstün olduqlarını iddia etsələr də qələbəni biz qazanmışdıq və onları qəzəbləndirmişdik. Mən onlara xidmətlərindən ötrü təşəkkür məktubu göndərdiyim halda, onlar cavab vermək nəzakəti belə göstərmədilər.

8 noyabr səhəri taburlar və könüllü dəstələr olduqları Qarabağlar və Xok kəndlərindən Baş Noraşen* istiqamətində hərəkət etdi. Müfrəzə Baş Noraşeni, könüllü dəstəsi isə Mahmudkəndi işqal etdi. Qaratəpə müdafiə vəziyyətinə gətirildi. Bu təpə Arpa vadisinin düzənliyə açılan ağzındadır. Erməni quldurları Arpa bölgəsindəki müsəlman kəndlərini dağıtmış olduqları üçün bu istiqamətdən hər zaman üçün bir hücum təhlükəsi qalımaqda idi.

Bolşeviklərdən və onların tabeliyindəki könüllülərdən bu gün də xəbər ala bilmədik. Yalnız bir şey eşitdik: əhalinin söylədiyinə görə bolşeviklər könüllüləri də götürüb Yengicəyə getmişlər, məqsədləri ermənilərin zirehli qatarını zəbt etmək imiş.

* * *

Cəbhədən gələn atəşkəs əmrini və müfrəzənin vəziyyətini bildirmək üçün üç ayrı rabitəçi göndərdim. Üçü də rus komandirini tapa bilməyərək qayıdıb gəldi. Mən buna inan-

* Şərur rayonunun Cəlilkənd məntəqəsinin keçmiş adıdır.

madım. Bizim məktubu alıb oxuyub "komandir burada yoxdur" deyə geri qaytardılar, rabitəçilərin sözündən çıxan məna bu idi. Belə olduqda müfrəzənin yanında olan iki rusu göndərdim. Ya bilmədiklərindən, ya da başqa məqsədlə olacaq ki, onlar Dəhnə boğazı istiqamətində göndərilən kəşfiyyat dəstəsinin dalınca düşmüşlər. Kəşfiyyat dəstəmiz boğazda düşmənin pulemyot atəşinə uğramiş, ruslardan biri də yaralanmışdı. Onlarin rabitəçisi də bu oyunu oynamışdı.

QEYD: Şahtaxtı müvəffəqiyyəti Böyük Millət Məclisində. 9-1920-ci il tək günü saaat 7.30-da Böyük Millət Məclisinin 96-cı iclasında:

Cəmil bəy (Kütahya)–Şahtaxtı nə oldu, əfəndim.

Baş qərargah rəisi İsmət bəy: Şahtaxtı da işqal olunmuşdur. Şahtaxtı, bilirsiniz, Azərbaycan ilə bizim aramızdadır. Şömendüfer xəttinin bitişiyindədir. Bu baxımdan əhəmiyyəti çox böyükdür. Bu da yenə əsgəri hərəkat və hərbi müvəffəqiyyət nəticəsi olaraq əlimizə keçmişdir.

## XXII

## ZİREHLİ QATAR NECƏ ZƏBT EDİLƏR?

Atəşkəsə məhəl qoymadan* erməni zirehli qatarı hücumu davam etdirdi. Ruslar Yengicə qəsəbəsində təkbaşına qalmağı təhlükəli hesab etdikləri üçün bizim məntəqəyə, Mahmudlu kəndinə gəldilər. Qərargah başçıları da keçmişdə olduğu kimi mənə qonaq oldu. Ermənilər 12 noyabrda Quşçu Dəmirçi, Düdəngə, Zeyvə kəndlərinə kəşfiyyat hücumu təşkil etdilər. Atəşlə qarşılaşınca geri çəkildilər. Atəşkəs şərtlərinə əməl etməmələrini protest edərək beynəlxalq hüquqa riayət etmələrini tələb etdik. Ermənilər məktubumuza cavab olaraq Qaratəpənin təslim edilməsini şərt qoşdular. Zirehli qatarla kəndləri atəşə tutmaqdan vaz keçmədilər.

Zirehli qatara bir hücum təşkil etdim.Ruslar buna sevindi. Ancaq qatarın sağ-salamat zəbt edilməsini tələb etdilər. Buna imkan olmadığını, zirehli qatardan yaxamızı qurtarmağın bizim üçün kifayət etdiyini izah etdim. "Biz Rusiyada çox qatar ələ keçirmişik",–dedilər. Buna çox gözəl deməkdən başqa çarəm qalmırdı. İstehkam onbaşısı Bayburtun Şəngah məhəlləsindən olan Mahmud onbaşıya verdiyim təlimatı dəyişdirdim. Qatar körpü üzərində ikən deyil, körpünü keçdikdən sonra atəşləməsini tapşırdım. Bolşeviklər toplandı, Yengicəyə getdi. Onları qorumaq üçün Təzəkəndə 150 milis göndərdim. 14-ü gecəsi Quşçu Dəmirçi ilə Təzəkənd arasındakı kiçik körpüyə mina, fuqas bombası yerləşdirildi.

14 noyabr səhəri Quşçu Dəmirçi civarındakı təpədən bu hücuma tamaşa etməyə hazırlaşdıq. Saat yeddidə həmişə olduğu kimi zirehli qatar Dəhnə boğazından çıxdı. Maxta, Quşçu Dəmirçi və Təzəkənd kəndlərinə atəş açа-aça irəli-

* Erməni daşnak hökuməti şərtləri ağır hesab etdiyi üçün atəşkəs pozulmuş, bizim də bundan xəbərimiz olmamışdı.

ləyirdi. Dürbinlərimizi körpüyə çevirdik. Qatarın quyruq hissəsi körpüdən ayrılar-ayrılmaz bomba partladı. Zirehli qatar dərhal durdu. Bolşeviklər Təzəkənddən atlı hücuma keçdilər. Qatarın pulemyotları işləməyə başladı. Bolşeviklər geriyə atıldılar. Bu zaman erməni mövqelərindən səkkiz topun atəşinə uğradılar, Təzəkəndə girə bilməyib Yengicə istiqamətinə döndülər. Ermənilərin bir piyada taburu da zirehli qatarın köməyinə gəldi, mövqe tutdu. Körpüdə taxtalarla keçid düzələnə qədər dörd saat mövqedə qaldılar, qatarı xilas etdikdən sonra çəkildilər. Əslində qatarı bolşeviklər xilas etmişdi.

## XXIII

## ERMƏNİLƏRİN MÜFRƏZƏNİ MƏHV ETMƏK PLANI*

15.XI.1920-ci il tarixdə səhər şirin yuxudan oyadıb əlimə bir raport verdilər. Raport Mahmudkənddəki könüllü milis dəstəsindən gəlirdi:

"Düşmən sağ tərəfimizdən bir top, 1500 piyada, yüz süvari ilə cəbhəmizə hücum edir..."

Qərarım... əmr zabitinə: "taburlar Zeyvə təpəsində toplaşsın, gəlirəm. Ruslara xəbər... Zeyvə təpəsinə gəlsinlər."

Əsasən müfrəzə bütün qüvvəsilə Qaratəpə ilə Zeyvə arasında idi. Sol cinahımız açıq idi və düşmənin əsl qüvvəsi də bizim bu boş cəbhəmizdə, yəni açıq cinahımızda idi. Əgər düşmən eyni zamanda bu müdafiə olunmayan tərəfdəın hücum edərsə bizim üçün fəlakət olar, hücum etməzsə məsələ yoxdur. Bütün qüvvəmizlə Zeyvədən cəbhəmizə hücum vəziyyətində olan düşmənin arxasına hücum edəcəyik. Başqa cür hərəkət etməyə imkan yoxdur. Çünkü bütün müfrəzədə tüfəng başına iyirmi beş patron, güllə vardır. Bu qədər sursatla nə müdafiə, nə də baş qatma ola bilər. Bunları düşünə-düşünə geyindim, vəziyyətimiz hələlik çox əlverişli idi. Düşmənin Dəhnə tərəfdə ətaləti davam etdiyi müddətcə də əlverişli olaraq qalacaqdı.

Müfrəzənin iki taburu da hücuma hazır idi. Milislər düşməni cəbhədə saxlayırdılar, ancaq vaxt keçir, hələ də milis süvariləri gələcək deyə gözləyirik. Düşmənin Dəhnə boğazı tərəfdə tərpənməsindən qorxuram. Əmr zabitini göndərim, əsgər yerinə bir bolşevik zabiti gəldi, bu əmri gətirdi:

---

* 15.XI.1920-ci il tarixdə öldürülmüş bir zabit üzərindən çıxan sənədlər arasındakı əmrə görə ermənilərin planı belə imiş: 1.General Məlik Muradof komandanlığında bir dəstə Yaycı kəndindən Şərurda Xanlıqlar istiqamətində; 2.Qarabulaqdan Qaratəpə Noraşin istiqamətində; 3.General Şilkovnikov komandasında Dəhnə boğazından Yengicə-Xanlıqlar istiqamətində hücum ediləcəkdi. I və II dəstələr hərəkət etmiş,hansı səbəbdənsə III dəstə yerindən tərpənməmişdi.

"Düşmən qüvvələri çoxdur, qabağını kəsib dayandırmağa gücümüz kifayət deyil. Bütün qüvvənizi bir yerə yığıb buraya gəlin".

Müharibənin böhranlı zamanında belə, şəraitə zidd olan təkliflər qədər acı bir davranış təsəvvür olunmaz.Elə onda itaətin səbəb və lüzumunu dərindən bir daha anladım. Bu təklifə qarşı:

"Düşmənin nə qədər olduğunu mən də görürəm, ona görə də sizin buraya gəlməyinizi tələb edirəm",–dedim və bolşeviki geri qaytardım.

Dostlarımızın gələcəyini hələ də umur və gözləyirəm. Saat ona yaxın bolşeviklərin alay komandiri gəldi və bunları dedi:

–Alay Qaratəpənin arxasında iki tərəfdən hücum edən düşmənə qarşı ehtiyatdadır. İki tərəfdən təhlükəyə məruz qala bilən Qaratəpəni möhkəmləndirmək lazımdır.

Alay komandiri adi bir əsgər kimi ancaq öz ətrafını görürdü. Onun vəzifəsi tabe olmaqdı. Digər tərəfdən bizim hücum qərarımız da adi insanlar üçün eksentrik bir hərəkət kimi görünə bilərdi. Müfrəzənin zabitlərinə verdiyim izahatı rus alay komandirinə də verdim:

"Düşmən əlindəki ehtiyatı buraya göndərmişdir. 8:10 kilometr uzaqdan köməyə gəlincəyə qədər buradakının qabağını kəsib məhv edərik. Təhlükədən ancaq bu cür xilas olarıq. Qaratəpədə gözləməklə deyil..."

Bu sözlərimdən də bir şey başa düşmədiyini görüncə:

–Biz başlayırıq,–dedim.

Dəstələr hazır vəziyyətdə idi, işarə alınca tərpəndi. Rus da Qaratəpəyə getmədiyimə görə incidi.

* * *

Hücum planımız bu cür idi:

Mövcud döyüşçüsü çox olan tabur Dəhnə dağı tərəfindən gəlməsi ehtimal olunan düşmən hücumunu mümkün olduğu qədər uzaqdan qarşılamaq üçün Veli dağı təpələrini

tutacaq.

II tabur Qaratəpəyə hücum edən düşmən alayına arxadan hücum edəcək.

Azlığımızı gizlətmək üçün özümüzü gizlətməmək lazımdır.

Taburlar çevik addımla nəşə içində irəliləyir. Müfrəzənin qərargah qüvvələrindən piyadalar da bu hücumda fiqura göstərmək üçün getdilər. Qərargahda əmr atlıları və topçu komandurim gümüşhanəli bir döyüşçü ilə yoldaşları qaldı.

Topçum ilə məşğul olmaq yadıma düşməmişdi. Şahtaxtı hücumunda da bu topu düşmənə güc nümayiş tərəfinə məmur etmişdim. Naxçıvanlıların istiqlal mübarizəsi zamanı ermənilərdən zəbt etdikləri bu rus dağ topunu şəhər muzeyindən almışdıq. Top komandiri I dünya müharibəsində dağ topçusu imiş. Topun nişan alətləri xarabdı.

–Narahat olma,–dedim, top kimi deyil, paşa tüfəyi kimi işlədərik.

Topu açıq yerə çıxartdı, üçüncü mərmini düz hədəfə vurdular. Düşmənin müharibəni idarə edən mərkəzi olduğu güman edilən təpə boşaldı. Elə top atəşindən məqsəd də düşməni hücumumuzdan xəbərdar edib tez ürkütməkdi.

Bu siqnal top atəşindən sonra topçular vəzifələrini yerinə yetirib qurtardılar. Düşmən alayında qarışıqlıq başladı. Qarmaqarışıq vəziyyətdə geri çəkilməyə başladılar...sonra milis süvarilərimiz bolşeviklərlə bir yerdə düşmənin arxasınca getmək istədilər. Qaçanların atəş açması buna imkan vermədi. Atlı olaraq hücum etmələri isə mümkün deyildi.

Bu vəziyyət hasil olduqdan sonra da dostlarımız bizə hüsn-rəğbət göstərmədilər. Hər halda ya riyakarlıqları ,ya da siyasətləri mane oldu.Şərq istiqamətində geri çəkilən düşmənin arxasından mehtər kimi gedərək bizdən ayrıldılar.

Düşmən bu məğlubiyyətə uğradıqdan sonra Yaycı istiqamətindən hücum edən digər düşmən qüvvələri də geri çəkildi.

## XXIV
## CÜT MÜVƏFFƏQIYYƏT

Düşmən alayı məğlubiyyətə uğrayınca əsl müdafiə mövqeyi olan möhkəmləndirilmiş mövqenin yanı və arxası açıldı. Müfrəzə də bunun yanına və arxasına gəlmişdi. Düşmənin Dəhnə boğazındakı əsl mövqeyinə arxadan hücum üçün yürüş istiqaməti kiçik Dəhnə boğazı tərəfinə çevrildi.

Müfrəzə iki taburu ilə şose yoluna ən yaxın istiqamətdə düşmən arxasına sürətlə irəliləyir, şose yolunun hakim təpələrini ələ keçirmək üçün var qüvvəsini sərf edirdi. Dəzgahlı pulemyotlar, komandirlər kənarda, ucda idi. Yeddi kilometr yarımlıq bir yürüşdən sonra piyadalarımız qan-tər içində şose yolunu görən təpələrə yetişdikdə düşmənin bir tabur qədər qüvvəsilə bir səhra batareyası ahəstə-ahəstə və yalnız irəliyə doğru əmniyyət tərtibatı ilə Rəvan yoluna rəvan olmaqda idi.Bir qatar da uzaqlarda duman qaldıraraq şimal istiqamətində yola düşmüşdü. Düşmənə arxadan yetişmək mümkün deyildi. Dəzgahlı pulemyotlarla atəş açdıq, düşmən yolun qərbindəki ağaclıqlara qaçdı və bir daha görünmədi. Hər halda oradan Araz çayına doğru gedən yola çıxdılar. Düşmən batareyası dördnala qaçaraq Sədərək istiqamətinə çəkildi. Günəş Ağrı dağının arxasında batarkən milis süvariləri Sədərəyin cənubunda göründü. Qaranlıq düşdü. Bolşeviklərin öldürülən erməni alay komandirinin cəsədinə, meyidinə işkəncə etmək üçün gecikdikləri söylənirdi. Bununla belə çox da əliboş qalmadıq. Dəhnə boğazındakıların köməyinə qoşdurulan Rəvan mühafiz taburu öz ayağı ilə gəldi. Sədərək də bizim oldu.

Beləcə əks-hücumla həm özümüzü xilas etdik, həm də düşməni çox mətin mövqeyindən çıxardıq.

Qaranlıq düşdükdən sonra müfrəzə və milislər Sədərək kəndində toplandı.Milislərdən çoxu vedili və cəsur əsgər-

lərdən Abbasqulu bəy ilə Mustafa Kamilin komandanlığında idi.

16.XI.1920-ci il tarixdə milislər Vedi üzərinə yürüş edəcək, müfrəzə dəstələri Noraşinə, keçmiş, köhnə yerlərinə qayıdacaqlardı.

Beləcə müdafiə və gözləmə vəziyyətinə keçdik. Çünki şərqdən Qaratəpəyə hücum edən qüvvə geri çəkilmişdi, amma salamat qalmışdı. Araz çayı boyunca zolaq kimi bir ərazidə Sədərəkdən Şahtaxtına qədər şərq tərəfimiz açıqdı.

1920-ci il noyabrın 15-dən 16-na keçən gecə bolşevik briqada komandiri ilə birlikdə Dəhnə boğazı yolu ilə Noraşinə gəldim.

Milislər Vedi istiqamətinə gedəcəyi üçün qəhrəman Cəhri kəndi milislərindən 50 atlını qərargahıma göndərmələrini tələb etdim. 16.XI.1920 tarixində atlılar gəldi. Ehtiyatda olan leytenant Tahsin bəyin əmrində olmaq etibarilə bir süvari bölüyü təşkil etdim. Yenə bu gün vedililərin kəndlərinə getdikləri, Ararat stansiyasının işqal edildiyi xəbəri gəldi.

## XXV
## QARATƏPƏ KƏŞFİYYATINDAN ÇIXAN MÜNAQİŞƏ

Düşmənin Arpa vadisinin ağzını irəlicədən tutmuş olması hücum niyyətində olduğunu göstərirdi. Buradan gələcək hücum arxamızı kəsib bizi Araz çayına tökə bilərdi. 17.XI 1920-ci il tarixdə Qaratəpəyə getdim. Düşmənin tərtibat və qüvvəsini anlamaq üçün kəşfiyyat dəstələri ilə yoxlamaq lazım idi. Yuxarı Noraşindəki bolşevik zabitini çağırdım, kəşfiyyat aparmasını tələb etdim. Alay komandirinə yazıb icazə istəyəcəyini dedi. Mən də hər ehtimala qarşı milis süvari bölüyünə xəbər göndərdim. O vaxta qədər boş durmamaq üçün bir əl pulemyotu istədim. Bir tatar gənci gəldi. Bunun himayəsilə bizim ön qaraul manqası çayı keçdi. Düşmən postunun arxa tərəfinə irəlilədi,düşmən postu geri çəkildi. Geniş bir cəbhə tutan o biri döyüş postlarının yerlərini də Təhsin bəyin süvari bölüyü gəldikdən sonra öyrənə bildik. Bolşeviklər adətləri üzrə bizim təşəbbüslərimizi dəstəkləmədilər. Qaranlıq düşdükdən sonra dəstələri yerinə qaytardım, sədaqətli və qəhrəman yavərim(denşik) malatyalı Rəcəblə saat iyirmiyə doğru Baş Noraşinə qayıtmağa başladıq.

* * *

O gün Qaratəpəyə gedərkən və qayıdarkən rusların düşdükləri Yuxarı Noraşin şəhərindən keçdim, şəhərdən çıxdığımız zaman bir rus arxadan yüyürərək gəldi. Tüfəngini ver deyə mənə ilişdi. Mən nəinki tüfəng, heç tapança da daşımazdım. Tüfəng cibə sığmazdı. "Vintovka neto,meto" deyirəm, qulaq asmır: məşhur hekayədə olduğu kimi "odunam"! deyirdi. Qəribəsi bu ki, tüfəngli Rəcəbə deyil, mənə ilişirdi. Rəcəb də bizə tamaşa edir. Hərif ağzını dağıtmağa başladı: Söyüşü özünə qaytarıb atı üstünə sürüncə səsini kəsdi, rədd oldu.

Səhəri gün bolşevik əsgəri ilə dünən gecəki münaqişəmi

bolşeviklərə lətifə yolu ilə nəql etdim, şikayət etmirəm,-dedim, onlara təskinlik verdim.

Bununla belə, söhbətin istiqamətini dəyişdirdilər, məni ittiham etməyə başladılar. Qəbahətim bir süvari bölüyü təşkil etmək, kəşfiyyat hərəkatını onlardan xəbərsiz icra etməkdən ibarət imiş.

Münaqişəmiz çox sərt oldu, bu rusların açdığı ilk mübahisə idi. Belə cavab verdim:

1. "Süvari bölüyü təşkil etməyə məni siz məcbur etdiniz, müharibələrdəki hərəkətlərinizi düşünün", dedim, necə döyüşdən yayındıqlarını anlatdım.

2. Siz etdiyinizi bizə söyləmirsiniz. Mən düşmən tərəfində kəşfiyyat aparmaq istədiyimi sizə söyləmədim, siz də düşmənlə müzakirələrə girişdiyinizi mənə söyləmədiniz.

Əslində bolşeviklərin ermənilərlə münasibət yaratmaq üçün təşəbbüs göstərdiklərini qəti bilmirdim. Naxçıvandan Rəvana doğru kommunistlərin keçməkdə olduğunu eşitmişdim, bununla erməniləri tora salmaq niyyətləri olduğunu təxmin edirdim. Bu son cavabım havanı yumşaltdı. Günorta yeməyini yenə dostanə şəkildə birlikdə yedik.Günortadan sonra atəşkəs əmri gəldi.

* * *

Tabur komandirlərini yığdım, atəşkəs əmrini onlara çatdırdım, qiymətli xidmət göstərdiklərinə görə hər birinə təşəkkür etdim. Bundan sonra atəşkəs şərtlərinə riayət etməkdən bəhs edərkən ikinci tabur komandanı İsmayıl Şemi bəy:

–Bu dəfə onlar bizdən qorxsunlar! Dedi.Soruşdum ki:

–Yəni?

–Bizim atəşkəs şərtlərinə riayət edəcəyimizdən şübhələnməzlərmi?

I tabur komandiri Əmin bəy cavab verdi:

–Şübhələnsələr də faydası yoxdur. Erivan mühafizə taburunu əsir etdik, Erivanı zəbt etmiş sayılırıq.

## XXVI
## ERMƏNİSTANI SÜLHƏ MƏCBUR EDƏN SƏBƏBLƏR HAQQINDA BİR AÇIQLAMA

Böyük Millət Məclisinin 99-cu ümumi yığıncağının II iclasında 18-11-1920-ci il tarixdə saat15-10-da oxunan şərq cəbhəsi komandanlığının teleqrafından bir parça: "son radələrə qədər müharibəyə qərar vermiş olduqlarını elan edən ermənilər 14-11-1920-ci il tarixdə böyük itki ilə uğradıqları məğlubiyyətin və Şahtaxtının şimal bölgəsində 15-11.1920-ci il tarixdə etdikləri hücumun müqabil hərəkatımız nəticəsində məğlubiyyətə uğramasının ardınca 15-11-1920-ci il tarixində axşam yola çıxarmış olduqları bir erməni kapitanı qərargahıma daxil oldu".

Tabur komandiri Əmin bəyin təxminləri doğru çıxmışdı.15-11-1920-ci il axşamı qəfildən erməniləri atəşkəs tələb etmək üçün Gömrüyə qoşduran səbəb nə idi?

14-11-1920-ci il tarixdən bəri Gömrünün 15-20 kilometr şərqindəki cəbhəmizdə heç bir hərəkat olmamışdı. Gömrüdəki əsl ordumuzun qüvvəsi 5000 döyüşçüdən ibarət idi. Doqquzuncu Qafqaz briqadası 3267 və 12-ci briqada 2057 döyüşçüdən ibarətdi. Bu qədər qüvvə ilə erməni əhalinin kəşfiyyat aparılan Qarakilsə və Dilican dağlıq bölgəsinə doğru hücumu davam etdirmək o zamankı şərtlərə görə mümkün görülə bilməzdi.Ermənilər üçün ən təhlükəli cəbhə Iğdır cəbhəsi idi. Oranı çox qüvvətli bir şəkildə mühafizə edib əldə saxlayırdılar. Naxçıvan cəbhəsində də özlərini qüvvətli hesab edirdilər. Ümumən bütün cəbhələrdə özlərinə arxalandıqlarını 14-XI-1920-ci il tarixdə Gömrü cəbhəsində etdiyimiz hücuma qarşılıq olaraq ertəsi gün 15-XI.1920-ci il tarixdə Naxçıvan cəbhəsində hücuma keçməklə göstərdilər.

Görünür ki, 15-XI.1920-ci il tarixdə ən az saat 14-ə qədər atəşkəs tələb etmək niyyətləri yox imiş.

Günortadan sonra ermənilləri atəşkəs tələb etməyə məcbur edən Naxçıvan müfrəzəsinin əks --hücumu olmuşdur. Bu müvəffəqiyyəti baş komandanlığa bildirən və Böyük Millət Məclisində oxunan raport,müfrəzəmizin qazandığı qələbənin təsiri ilə ermənilərin silahlarını təslim etməyə məcbur olduqlarını açıqca göstərir.

Buna 14-XI.1920-ci il günü edilən hücumda ermənilərin verdiyi təxmin edilən 500 nəfərlik itkinin təsiri olduğunu zənn etmək doğru deyildir.

Xəritədə göründüyü kimi, Naxçıvan müfrəzəsinin qarşısındakı qüvvələri dağıdaraq qəfildən hökumət mərkəzi Erivan qapılarına dayanması, gözlənilməz bir vəziyyət meydana qoymuşdu. Bu vəziyyət də başqa cəbhələrdən qüvvət gəlmədən müfrəzənin və on minlərlə türk xalqının Erivanın altını üstünə çevirəcəyi vəziyyətdi. Erivan içi, dörd tərəfi, yanıbaşındakı Zəngibasar, Qarnibasar, Vedibasar xalqının ayağa qalxaraq intiqam həvəsinə düşməsi tamamilə mümkündü. Bu təhdidin gərək hökumət mərkəzi, gərək Iğdır cəbhəsindəki qüvvə üçün gətirəcəyi fəlakət bir gün əvvəl verilən beş yüz nəfərlik itki ilə müqayisə olunmayacaq şəkildə dağılmaya səbəb olacaqdı. Erməni hökuməti bu təhlükəni görmüş, atəşkəs şərtlərini qəbul etmişdir.

Bunu aydınlaşdırmağı, şərh etməyi hərb tariximiz ,milli qəhrəmanlıq salnaməmiz üçün bir borc bildim. Erməni hərbində mükafat alan da oldu. Ancaq müfrəzəmizdən təltif görən olmadı. Hətta 15-XI.1920-ci il zəfərini qazanan müfrəzəmizə bir afərin teleqrafı da gəlmədi. Tarixdə belə misallar vardır: miladdan əvvəl 53-cü ildə bir Roma ordusunu təkbaşına məhv edən və kralı bu şərəfdən məhrum edən part komandanı Sorenas edam edilmişdi.

Müfrəzədən ancaq mənə geri qayıtmağımda mərhum Kazım Qarabəkir paşa və qərargah rəisi Kazım Orcay çox iltifat göstərdi və qeyri-rəsmi olaraq gümüş imtiyaz hərb

ordeni ilə təltif etdi.

Hərb sahəsində təsadüflərin də gözlənilməz vəziyyətlər meydana gətirdiyi məlumdur. O zaman bütün cəbhələrdə hamı yaşayacağı vətəni xilas etmək üçün çaslışmaqdan başqa şey düşünmürdü. Böyük zəfərdən sonra 30 avqust 1922-ci il təltif (rütbə) vəzifə yüksəltməsinə girə bilmədim. (?) Bu səbəbdən ümumi hərbdə qazandığım staj mükafatları ilə birlikdə əsas stajımı da itirdim. 1 sentyabr 1922-ci il tarixdə staja görə vəzifədə yüksəlsəm də məndən dörd il az stajı olan yoldaşlarımdan geri qaldım. (?) Görəsən, bu qələbəni, zəfəri təsadüfənmi qazanmışdım?

## XXVII
## BOLŞEVIK KOMANDİR İLƏ YOLDAŞLIQ

Əsgər yoldaşlığı deyilən bir münasibət yaratmaq mümkün olmadı. Hər sahədə fikir və məqsəd ayrılığı əməkdaşlığa mane oldu. Hərbi məqsədimiz isə bir-birinə daban-dabana zidd iddi.

Yuxarıda bəhs etmişdik: Rusların hədəfi də ingilislərinki kimi zəif Ermənistanı bəhanə edərək Anadoluya girməkdən ibarət idi. Moskvanın xariciyyə komissarı M.Çiçerinin bu siyasəti həyata keçirmək üçün istifadə etdiyi vasitələr bu məqsədi çox əla bir şəkildə göstərmişdi: Milli sərhədlər əfsanəsi ilə başımızı qatdı, vaxtımızı aldı, erməniləri irəli apardı. Sonra da Moskva müqaviləsini imzalamaq üçün Van, Bitlis vilayətlərini tələb etdi.

Hökumətin hədəfi bu olunca Studnyef yoldaşın hərəkətlərinin də bu məqsədə uyğun olması lazım gəlirdi.

A.Naxçıvan yolunu açmaq üçün Naxçıvanı ermənilərə vəd edən bolşeviklərin türk müfrəzəsini Ordubad istiqamətində Şahtaxtından uzaqlaşdırmaq üçün etdikləri təşəbbüsün ermənilərin Ərzurum sərhəddini keçdiyi 24 sentyabr gününə təsadüf etməsi çox qəribə deyildimi? Sonra da bu mənasız hərəkətdə israr etməyin mənası nə idi?

B.Şahtaxtı hücumunun həyata keçiriləcəyi gecə qəfildən mövqeləri tərk edib xəbər belə verməmələri, 7 noyabr 1920-ci il hücumundan sonra milis süvarilərimizi götürüb günlərcə yoxa çıxmaları yoldaşlıq deyildi.

C.Bir zirehli qatarın atlı hücumla zəbt edilə bilməyəcəyini başa düşməyəcək qədər səfehmi idilər? Necə olsa erməni kommunistləri tərəfindən onlara təslim ediləcək bir silahın belə xarab olmamasını mı istəyirdilər?

D.15 noyabr əks-hücumunda iştirak etməməkdə inad

etməyin səbəbi nə idi?

E.Mənim Qaratəpədə həyata keçirdiyim kəşfiyyat döyüşünə niyə qəzəbləndilər?

Bəli, bolşevik komandirinin hərbi sahədəki bütün bu manevrləri dəyişməz Moskva siyasətinin bir nəticəsi idi.*

Xüsusi, şəxsi yoldaşlığımıza gəlincə bundan şikayətim yoxdur.

8 dekabr 1920-ci il tarixinə qədər Başnoraşində bolşevik komandanı ilə bir dam altında yaşadım. Hər günümüz eyni keçirdi. Gündəlik həyatımız da bir-birinə bənzəyirdi. Boş vaxtlarımızda hərəmiz bir küncdə fikrə gedir, yaxud salonda irəli-geri vargəl edirdik. O da mənim kimi oxumağa bir kitab tapa bilmirdi. Qış gəldi, sobamızı kim qalayacaq? Briqada komandanı bir balta tapdı. Həyətdə odun yarar, qucağında gətirər, peçin qarşısında üstdən küüt deyə buraxar, gözünün qırağı ilə də mənə məğrur-məğrur baxardı. Mən də qalxıb sobanı qalayardım.

O zaman bolşevikləri pul ilə ələ almağı yaddan çıxartmışdılar. Gavurların malı onlara halal idi, amma biz onları dostcasına qonaq edirdik. Xəlil paşanın xatiri vardı. Xəlil paşa Bakıya gedərkən cib dəftərçəsinə Əmirof adına yazılmış bir əmr qoydu. Köhnə Romanof banknotlarını Təbrizdə indi tədavüldə olan pul ilə dəyişdirəcək yoldaş Veysələ veriləcək. Üstündən Kerenski merenski kimi bir neçə banknot nəsli keçmiş bu kağızlara kimsənin bir qəpik də verməyəcəyi meydanda idi. Bizə qonaq gələnlər briqadanın komandanı ilə komissarından ibarətdi. Böyük bir yük təşkil etmirdilər, özləri də hal əhli idilər. Bir gün "çay qurtardı",–dedilər.

–Niçivo, gəlsin isti su.

---

* Siyasi sahədəki manevrlər başqadır. Mənim sonradan öyrəndiklərim bunlardır: Ermənilərlə aramızda sülh müzakirələri başladıqdan sonra rusların Erivandakı təmsilçisi müzakirələrdə iştirak etmək istəmiş... qəbul edilməmişdir. Ruslar Erivana hakim olduqdan sonra erməni hökumətinə "bu müqaviləni tanımırıq" deyə dedirtmişdilər.

Başqa bir gün "qənd qurtardı" dedilər.

–Niçivo! Dedi. Həyətə yüyürdü, bir qucaq heyva ilə gəldi. Ondan sonra da isti suya heyva doğradı, yeyib içdilər. Biz də onları 8 dekabrda Şahtaxtına yola saldıq.

## XXVIII

## RUSLAR ERİVANI ALDIQDAN SONRA BİZƏ QARŞI SOYUQ MÜBARİZƏYƏ BAŞLADILAR

Gömrü müqaviləsi imzalandığı zaman Ermənistandakı kommunist təhrikatı səmərə verməyə başlamışdı. Azərbaycan sərhəddi civarında olan Dilican bölgəsindəki erməni dəstələri üsyan edir, zabitlərini öldürüb bölşeviklərlə birləşirdilər. Beləcə ruslar rahatca Ermənistana yerləşirdilər.

Erməni kommunistləri sayəsində Erivan hökumətini ələ keçirdikdən sonra bolşeviklər bizimlə daha çox icəşməyə başladılar. Məqsədləri tez bir zamanda bizi Naxçıvandan uzaqlaşdırmaqdı. Biz Naxçıvanın istiqlalını istəyirdik. Amma onlar Naxçıvanın boğazına dırnaqlarını keçirə bilmək üçün uydurma bir kommunist partiyası düzəltmək istəyirdilər.Biz orada olarkən zülmə və zora əl ata bilmirdilər.Zəbt və istiladan ibarət olan məqsədlərini də hər zaman olduğu kimi gizlədirdilər, çünki siyasətlərini açıqca müdafiə edə bilməyəcəklərini başa düşürdülər. Bizim məqsədimiz bəlli və açıq idi:

*NAXÇIVANIN İSTİQLALI*

Bu istiqlal əldə olununcaya qədər erməni təcavüzündən daha çox bolşevik zülmünə qarşı xalqın qorunması lazım idi,amma buna imkan yox idi. Moskva konfransının nəticəsini gözləməkdən başqa əlac qalmırdı. Bu barədə şərq cəbhəsi komandanlığından heç bir direktiv almamışdım,amma əmrsiz yerimdən tərpənə bilməzdim.

Naxçıvan bölgəsindəki ruslar isə böyüyündən kiçiyinə qədər hamısı siyasətlə məşğul idilər. Hədəf mən idim. Məqsədləri bizi Naxçıvandan qaçırmaq idi. İstifadə etdikləri taktika intriqa, iftira və zorbalıqdan ibarətdi:

1. Bizi xalqa zülm verməkdə ittiham edirdilər, "Məzlumu soruşurlar zalım özünü nişan verir "...Xalqla heç bir ünsiy-

yətimiz yoxdu. Elə meydanda da xalqdan heç kim görünmürdü.

2. Əvvəldən xalqın bizimlə ünsiyyətinə mane olurdular.

3. Əsgərlərimizi aldadıb öz tərəflərinə çəkməyə və beləcə ermənilərin başına gətirdiklərini bizim də başımıza gətirmək istəyirdilər.

4. Üzərində açıqca dura bildikləri fikir də bu idi:

"Ermənilərdən qorxu qalmadı. Biz də buradayıq.Artıq sizin burada olmağınıza ehtiyac qalmadı". Yeni gələn bir dəstə komandiri də bunu söylədi. Ona bu cavabı verdim: "Bizim burada olduğumuzu,aramızda da fərq olmadığını bilirdinizsə, niyə gəldiniz?"

Mənim əmr almamış buradan çəkilməyəcəyimi bilməmiş deyillərdi. Ancaq boş dayanmamaq, özlərindən olmayanları narahat etmək, bezdirməkdən, deyəsən, zövq alırdılar.

Elə əvvəldən bəri yerlilərin bizimlə təmasına imkan verməzdilər. İlk gəldiyim vaxtlarda rusca öyrənmək istədim. Cabbar Məmmədov adlı bir ibtidai sinif müəllimi gətirdilər. Bu adam bir dənə də mənə kitab hədiyyə etdi, ertəsi gün gəlmək üzrə getdi. Bir daha tapılmadı. Ailəsi qanlı yaşlar tökdü.

Tərcüməçi olaraq qərargahıma iş olduqca çağırılan Hacı Mehdi adlı birisi hər halda ruslardan icazə almışdı. Bununla belə adam bizim qapıdan içəri girərkən sanki dilini udurdu.Biz də onu danışdırıb günah etməkdən qorxardıq.

Əsgərlərimizi aldadıb yoldan çıxarmalarından qorxurdum. Ruslarla bir ixtilafa yol verməmək istədiyimiz halda əsgərlərimizin şiddətli hərəkətlərə sövq ediləcəyindən narahat idim. Çünki müfrəzəmizin bütün sıravi-çavuş heyəti gözləri ilə gördükləri faciənin təsiri altında bolşeviklərə düşmən olmuşdular. Rusların təhriki ilə bir fənalıq çıxmasının qarşısını almaq üçün onlardan: "əsgərlərimiz dağlıdır, öz zabitlərindən başqasına qulaq asmazlar, onlarla işiniz olmasın, nə arzu edərsəniz mənə deyin" deyə xahiş edərdim.

## XXIX
## GƏRGİN VƏZİYYƏTLƏR

Ruslar stansiyaya çatmamış şəhərdə insanlar hərəkətə gəldi. Bolşeviklər tərəfindən Naxçıvana dəvət edildim. Heç bir vəsilə də yox idi. Zəngin bir ziyafət süfrəsinin ətrafında ruslarla dıktator Vəlibəyov və bir neçə kommunistdən başqa heç kim yox idi. Revkom sədrinin müavini Əbülıqasım da fikirli idi, ziyafət mövsümə uyğun buz kimi bir hava içində keçdi.

Ertəsi gün diktator Vəlibəyov Erivana gedəcəyindən bir neçə günlüyə onu əvəz etməyimi xahiş etdi. "Yaxşı" dedim. Atlarına minib stansiyaya yollandılar.

Beş-on dəqiqədən sonra sanki yerdən sıçrayıb çıxdılar. Qonaq olduğum evin içi, ətrafı, üzgün, kədərli, hiddətli və hər sinifdən olan adamlarla doldu. Otağıma daxil olan axundlar, universitet məzunları, kəndlilər, tacirlər, dərdlərini danışmağa başladılar, nələr demədilər. Xülasə, kimdən kimə şikayət edəcəklərini, bunun axırının nə olacağını soruşurdular... Xalqın belə hərəkətə gəlməsi bolşevikləri ürkütmüş olacaq ki, çox keçmədən Vəlibəyov bir teleqrafla yerinə mənim baxmağımı tapşırdığına peşman olduğunu, vəkaləti başqasına verdiyini bildirdi.

Heç bir təftiş heyətinin,yoxlama komissiyasının meydana çıxara bilməyəcəyi həqiqi vəziyyəti bir təsadüf önümüzə qoymuşdu.

* * *

### *EZAMİYYƏ MƏMURLARIMIZA BASQIN*

Şahtaxtına keçdikdən sonra İrandan, Xoy tərəflərdən satın alınacaq ərzağı Qənbər keçidindən sallarla keçirib dəmir yolu ilə Şahtaxtı stansiyasına nəql etməyi daha ucuz hesab etmiş, şavuşun başçılığında bir manqanı anbar və sevk işləri üçün Naxçıvan stansiyasına göndərmişdim.

Xaraba bir binanın pəncərələrini portativ çadırlarla örtərək yerləşmişdilər. Naxçıvan diktatoru Vəlibəyov Erivana getdikdən sonra Naxçıvandan bir protesto aldım. Naxçıvan stansiyasındakı əsgərlərin əksinqilabçılara kömək etdiklərindən şikayət edilirdi.II taburdan Təhsin bəyi təhqiqat üçün göndərdim,bu məlumatı gətirdi: Naxçıvanda idarəçilik özgə millət kommunistlərinin ixtiyarındadır.Bunlar stansiyadakı manqanın bir xəfiyyə mərkəzi olduğundan şübhələnir, eyni zamanda kəndlilərin bu manqaya güvənərək kommunist partiyasına üzv yazılmadıqlarına hökm verirdilər.

Üzdəniraq kommunist yerlilərdən ibarət yüz nəfərlik bir qüvvə ilə bir səhər tezdən gəlir,əsgərlərimizin yatdığı binanını mühasirəyə alırlar. Əsgərlərimiz müdafiəyə hazırlaşırlar, gələnlərin hamısının yerli adam olduqlarını görürlər, manqa komutanı manqasını hazır vəziyyətə gətirir. Qəflətən dağınıq nizamda əllərində bomba eşiyə atılırlar.

İki-iki düzlən komandasını verirlər. Manqanı təslim etməyə gələnlər geyri-ixtiyarı bir yerə cəm olur. Manqa komandiri bunları götürüb Naxçıvandakı revkom sədrinin müavini Əbülqasıma təslim edir... İki ildən bəri ermənilərə qarşı fədakarcasına çırpışan bu qəhrəmanlar bizdən qorxmur, bizə hörmət göstərirdilər. Bolşeviklər elə buna görə bizə qarşı dişlərini itiləməkdə idilər.

## *NAXÇIVANDA ÜSYAN ƏLAMƏTLƏRİ*

12 yanvar 1921-ci il səhəri bolşevik briqada komandiri Şahtaxtına, qərargahıma gəldi. Naxçıvanda milislərin mitinq elədiklərini, dağılmaq istəmədiklərini, bir yerdə Naxçıvana gedib onları başa salmağı məndən xahiş etdi.

Bolşeviklər güya kommunist etdiyi gənclərdən Naxçıvanda bir tabur düzəltmişdilər. Naxçıvan stansiyasındakı (ezamiyyətdə olan) məmurlarımıza bunların vasitəsilə basqın etmək istəmişdilər. Bunlar isə ermənilərə qarşı 1917-ci

ildən bəri məmləkəti müdafiə edərək bu günə gəlib çıxmış qəhrəmanlardı. İnsanlıq adına hərəkət etdikləri söylənən bolşeviklərin sözləri ilə hərəkətləri arasındakı fərq, bu igidlərdə də bizim müfrəzənin döyüşçülərində olduğu kimi yalnız nifrət hissləri oyandırmışdı.

Axşama doğru Naxçıvana yetişdik. Rabitə zabitim Hikmət bəyin evinə qonaq düşdük. Naxçıvan taburunun şikayəti bolşevik idarəsindəndi. Yəni bolşevikləri istəmirdilər. Məmləkətdən qızılı apardıqlıarını, xalqın ac qaldığını, bir çox qiymətli adamların məhv olduğunu, tez bir zamanda insani bir idarə yaratmaq üçün bolşeviklərin çəkilməsini,yoxsa buradakı bir ovuc bolşevikin qollarından tutub sərhəddin o tərəfinə tullayacaqlarını söyləyirdilər.

Naxçıvanlılar bizim bolşeviklərlə eyni olduğumuzu, bolşeviklər də bizim bu əksinqilabçıları himayə etdiyimizi zənn edirdilər. Bizim bitərəf olmağımızın bundan böyük sübutu ola bilməzdi. Qan tökülməsinə mane olan da bu idi. Yoxsa bolşevikləri təmizləmək naxçıvanlılar üçün çətin bir iş deyildi.

Ertəsi gün təkbaşıma tabur qərargahına gedərkən bir taqım qədər olan rus süvarisi ilə qarşılaşdım. Süvarilərin hər biri mənə ayrı-ayrı rusca söymədiyi söyüş qalmadı.

Naxçıvan kommunist taburu məktəb binasında toplaşmışdı. Ümumi vəziyyəti izah etdim, bunu başa salmaq istədim: "Bu elə bir allahın bəlasıdır ki, bu məsələ ancaq hökumətlər arasında həll edilə bilər. Sizin burada edəcəyiniz bir hərəkət ancaq nahaq qan tökməkdən başqa bir nəticı verə bilməz "dedim. Dilim gəldiyi qədər bu qəhrəmanlara təsəlli verdim. Moskva konfransının Naxçıvana istiqlal verəcəyinə ümid etdiyimizi söylədim. Tabur döyüşçüləri özünü ləğv edib evlərinə qayıtmağa qərar verdilər və elə də etdilər.

* * *

Bundan sonra bəzi quldurluq həkətlərində bulundular. Ancaq sonra zərərini görüb bundan əl çəkdilər.

* * *

15 yanvar 1921-ci ildə Naxçıvandan xəstələnərək Şahtaxtına qayıtdım. Bolşevik briqada komandanı ilə komissar məni qucaqlarında yatağıma apardılar, beş aylıq yoldaşlığımızın haqqını ödədilər. Bundan sonra daha onların üzlərini bir daha görmədim. Dəyişildilər.

Şahtaxtındakı süvarilər gedəcəkdi. Komandiri dəyişmişdi. Fəqət görüşə bilməmişdik, vidalaşmaq üçün də gəlmədi. Mən müşahidə marağı ilə onu yola salmağa getdim. Komandirin qaldığı zirzəmiyə girdim, lopa bığlı bir adam, içəri girənin fərqinə varmırmış kimi davrandı, pirzolasını gəmirməyə davam etdi. Yanında nazik və arıq bədənli, ölgün və üzgün tavırlı bi qadıncığaz məchul bir təhlükəni qarşılayacaq kimi əlləri davran (?) vəziyyətdə, gözləri pirzola yeyənin üzərində ən xırda hərəkətlərinə diqqət kəsilmiş bir vəziyyətdə fransızca dediyim sözləri ruscaya tərcümə edir. Adam dolu ağzı ilə bəzi donquldanmalar edir. Qadıncığaz bunları söz deyə mənə anlatmağa çalışır. Adamın əsəbi, psixoloji bir böhran vəziyyətində olduğu qənaətinə gəldim. Yanında çox qalmaqdan qorxdum. Qadınla başımı yelləməklə xudafizləşərək çıxdım. Sonra nağıl etdilər ki, bir füqəra verdiyi malın pulunu almaq üçün komutanın üzəngisinə sarılmış, o da özünü onun əlindən qurtarmaq üçün tapançanı çəkib adamı vurmuş!..

## XXX

## BOLŞEVİK QÜVVƏLƏRİ ARTIRILDI

12 fevral 1921-ci ildə bir piyada taburu ilə iki top Şahtaxtına gəldi. Topları qoymağa yer tapa bilmədilər. Top lülələri bizim qərargahın pəncərələrinə tuşlandı.

Bundan başqa, bir tabur Xok kəndinə, bir tabur da Qıvraq kəndinə gəlmişdi. Naxçıvanda da qüvvələri var idi. Beləcə Şahtaxtı hər tərəfdən mühasirədə idi.

Hər halda keçən günlərdəki, keçmişdəki hadisələrdən şübhələnmişdilər. Biz burada olduğumuz üçün altı aydan bəri idi ki rus siyasəti yerində sayırdı. Aclıq və təhdid kafi bir vasitə deyildi, icraata keçmək lazım olduğu qənaətinə gəlmişdilər. Naxçıvanla Ermənistan arasında əlaqələr yaxşılaşsa rusların Qafqazda vəziyyəti çox pisləşəcəkdi. Məhz bu mülahizəyə əsaslanıb o zaman ruslar üçün böyük qüvvə sayılacaq dörd taburla ətrafımızı almışdılar.

Yeni gələn taburun komandanı çox nəzakətli görünürdü. Məni ziyarət etdi.Mən də onu ziyarət etdim.Qüvvəmizin çox olmasından bəhs etmədi, bir gün sonra şərab içməyə dəvət etdi, həm də gecənin gec vaxtında. Yavərimlə birlikdə getdim, gecə yarısına qədər pis bir zirzəmidə, Mustafa Kamalın, Leninin şərəfinə badə qaldırdıq. Bir gün keçəndən sonra təkrar dəvət etdi. Dişim ağrıdığı üçün yerimə bir tabur komandanı ilə yavərimi göndərdim.

Bu tez-tez dəvətlərin, belə təhlükəli təşəbbüslərin səbəbi nə idi? Əksinqilabçılar bizi basqın edib öldürə bilərdilər, bizim ucbatımızdan tabur komandiri də canından olardı... Səbəbi naməlum idi. Heç bir bolşevikin özbaşına bir addım belə atmağa səlahiyyəti yox idi. Ona görə bu hərəkətlərində də siyasi bir səbəb axtarmaq lazım gəlirdi.

Qəsəbə içində kənar, qıraq bir əsgər dəstəsilə olmaq belə bəzi tədbirlər görülməsinə lüzum yaratmırdımı?.. Həm də

belə əksinqilabçıların oyuncağı olan bu qəbil kənar dəstəyə qarşı çox ehtiyatlı hərəkət etmək lazımdı. Əsgərlərimin oturduğu yerlər köhnə bazar yerində beş-on dükandan ibarətdi. Bolşevik əsgərləri də həmişə bu bazar yerində vaxt keçirməyə başlamışdılar. Diqqət etdim: yemək və başqa səbəblə əsgər gedir, silahsız bir qazarma növbətçisi qalırdı. O əsnada rus əsgərləri qazarmamıza dolsa, əsgərimiz silahdan təcrid edilmiş olacaqdı. Bu məqsədlə şəhər içi üçün bəzi təhlükəsizlik tədbirləri aldım: əsgərin olduğu yerləri ayrıca bombası olan gizli növbətçilərlə basqına qarşı əmniyyətə aldım. Döyüşçülərin tək-tək gəzməsi qadağan edildi,həyəcan işarəsi, həyəcan müşahidəçiləri, zabitlərə uzaqdan xəbərçilərn yoldaşlıq etdirilməsi və s.

## XXXI
## ERİVAN BOLŞEVİKLƏRƏ ÜSYAN ETDİ

Bir səhər yuxudan oyandığım zaman Şahtaxtındakı bolşevik dostlarımızın naməlum bir istiqamətdə gecə ilə yola çıxdıqlarını öyrəndim. Sonradan hadisələr bir-birini izlədi: Xok və Qıvraq kəndlərindəki bolşevik dəstələri də getmişdi... Keşişkənddə və Erivanda üsyan baş qaldırmış, kommunistlərin və bu arada bir zamanlar Naxçıvan revkomunda da işləmiş olan Əsgərovun da həbs edildiyi söylənirdi. Bu Əsgərov saf bir gənc idi. Bir milyon manata aldığı papağı uşaq ədasilə mənə göstərmişdi. 1920-ci il fevralın 17-nə keçən gecə erməni millətinin bolşeviklərə qarşı açdığı davanın on ikinci günü bolşeviklər Erivandan çıxarılmşdı(28 fevral 1921?).

Medalın o birisi üzünü görüncə dostlarımızın bizə olan məhəbbət hissləri yenə coşdu. Şahtaxtında qalan zabit tez-tez yanıma gəldi. İki butulka da şərab gətirib hədiyyə etdi.

İndi hətta o zaman belə günahını xatırlaya bilmədiyim bir gənc bolşevik, ağlayaraq otağıma girdi. "Məni bağışla" deyərək yalvardı, əlimi öpdü, tərcüməsiz gəlmişdi, bilmədiyim günahını bağışladım. Bu uşağın günahı nə idi? Hər halda bir zamanlar mənə rast gəldiyi zaman, yaxud şübhələndiyi bir adamın yanında məni söymüş,sonra mənim rusca bildiyimdən xəbər tutmuş, nə olar, nə olmaz,–deyə qəlbimi almağa lüzum görmüş olacaq. Xülasə bir, uşaq əmisini hirsləndirmişdi: Nəsrəddin xoca bazardan bir eşşək almış, evinə apararkən nadinc uşaqlar eşşəyi oğurlamağa qərar verirlər. Birisi eşşəyin noxtasını çıxarıb öz boyununa taxır, o biriləri də eşşəyi qaçırırlar. Xoca evinin yanında eşşəyin yerində uşağı görüncə heyrətlənir. Uşaq deyir: Əmisini hirsləndirdiyi üçün allah onu eşşəyə döndərmiş. İndi xocanın üzü suyu hörmətinə əvvəlki halına qaytarmış. Ertəsi gün xoca eşşəyi

yenə bazarda görüncə yaxınlaşır, qulağına pıçıldayır: "deyəsən, yenə əmini hirsləndirmisən".

* * *

Ermənilərin yola gətirilməsi çox çəkdi. Aprelin birinci həftəsinə qədər dayandılar. Ruslara çox qorxulu günlər yaşatdılar. Ruslar 16 mart 1921-ci ildə Moskva müqaviləsini imzalamağa məcbur oldular. Fəqət aprelin ilk həftəsi Azərbaycan və Gürcüstandan gələn qüvvələr şimaldan, Şahtaxtından gedənlər cənubdan erməniləri sıxışdırırdılar. Yaxşı və güclü olduqları zamanlar qonşularına haqsızlıqlar etməkdən çəkinməyən ermənilər, qonşuları olan o biri millətləri də düşmənləri ilə eyni cərgəyə qoymuşlar. Gələcəyi düşünə bilməyən bu millət intiqam uğrunda bolşeviklərə xidmət edir. Şüursuz halda bir-birini yeyirdilər. Aprelin əvvəllərində bolşeviklər əlavə kömək aldılar. Erivan cəbhəsindəki vəziyyətləri düzəldi. Dostlarımızın bizə göstərdikləri məhəbbət və rəğbətin də sonu çatdı; əleyhimizdə təkrar təbliğat kampaniyası başladı.

Bir gün bolşeviklər stansiya civarında bir çavuşumuza rast gəlirlər, onu yanlarına çağırırlar, getmir, ona yaxınlaşmaq istəyirlər, üstlərinə tapança çəkir. Gəldilər, mənə şikayət etdilər. Əvvəlcə onlara bir neçə dəfə bildirmiş olduğum üsulumuzu xatırlatdım:

–Qəbahət sizdədir, o dağlılar zabitlərindən başqasına qulaq asmazlar, deməmişmi idim?

* * *

### *ƏMR ƏSASINDA I TABURU ŞAHTAXTINDAN MAKUYA YOLA SALDIQDAN SONRA*

Aprelin 11-də otağımda cəbhə komandanlığına raport hazırlayərkən bolşevik komandanı sir-sifəti torpaq kimi, həyəcanlı bir halda özünü otağıma saldı. "Elədiyiniz xoşunuza gəlir hə”–deyə bağırdı. Komandirin bu halına qeyri-

ixtiyari gülməyə başladım. Bizim tabur komandiri də gəldi. Tabur komandirindən soruşdum:

–Yenə nə qəbahət etmişsiniz?.. İzah etdi ki, tımar (sarğı?) zamanı idi. Pulemyot bölüyü tımara gedərkən ehtiyatda olan döyüşçülərdən biri bazarda yerlisinə rast gəlir, başı onunla söhbətə qarışır.Onbaşı qolundan tutur:

–Bəsdir daha, yeri,–deyir. Orada dolanan bolşeviklər gəlib adamı onbaşının əlindən almaq istəyirlər. Bunun üzərinə bizimkilər bölüyü çağırır, bizimkilərdən bir neçəsi yüyürüb gedəndə ruslar qaçırlar,qazarmalarına gedirlər.

–Türklər gəlir,–deyə qışqırırlar. Bolşeviklər həyəcan siqnalı verir. Qazarmalarını müdafiəyə hazırlayaraq gözləyirlər. Bu adam gəldi, "qan tökülməsin, məsələni öz aramızda həll edək", dedi, sizin yanınıza gəldik.

Yenə gülməyə başladım. Bolşevikin kefi pozuldu. Bizim dağlıllarla işlərinin olmamasını, nə arzuları varsa mənim yanıma gəlmələrini təkrar bildirdim.

İndi bolşeviklərin hamısı siyasətlə məşğuldurlar. İnsanların hak və hürrüyətlərinin müdafiəçisi olmuşlar. Bunu bizə təzyiq göstərmək üçün bir vasitə olaraq işlədirdilər. Bu bölgədəki insanlar onların istədikləri kimi ac, çılpaq və möhtac bir hala düşmüşdülər. İndi onları himayə adı ilə qarmağa keçirmək vaxtı idi. Qəbahəti bizim üstümüzə yıxmaq surəti ilə xalqı bizə qarşı təhrik edir, xalqın hamisi görünərək rəğbət qazanmaq istəyirdilər. Yoxsa onların istədiyi şey xalqı daima bir loxma üçün zəngin dövlətin hər cür arzusunu yerinə yetirəcək bir əxlaq düşgünlüyünə uğratmaqdı. İdarə etmək, itaətkar öyrətmək üçün xalqı ac və səfil hala gətirmək, bundan sonra onu bağırsaqlarından yaxalamaq lazımdı. Bir məşədi Hüseyn, bir Kəblə Kərəm, bir Abbasqulu və daha neçə-neçə qəhrəmanlar kimi adamlar bir daha yetişməməli idi.

* * *

## XXXII
## SON MÜNAQİŞƏ

Vedi bölgəsinin müdafiəçilərindən, keçmiş döyüşçülərdən sanitar onbaşısı Mustafa Kamili bolşeviklər yaxalamış və həbs etmişdilər. Günahı cəsur, bacarıqlı və Naxçıvanda şöhrətli bir adam olmasından başqa bir şey deyildi. Naxçıvan bölgəsinə yerləşmiş, ev-eşik sahibi olmuşdu. Ordumuzun bu keçmiş döyüşçüsü artıq rus idarəsində yaşaya bilməyəcəyini başa düşmüş, İrana keçmişdi. Bir gün əşyalarını aparmaq üçün Arazı keçir və ruslar evinə basqın edir, zavallını aparıb həbs edirlər.

Erivanda erməni üsyanı baş verdiyi zaman ruslar yuxarıda bəhs etdiyim Behbud Şahtaxtinskini Türkiyəyə ovutma, sakitləşdirmə turuna çıxarmışdılar. Behbud Qarsdan sonra 10 apreldə Şahtaxtından keçərkən şəxsindən Mustafa Kamilin buraxılmasını, azad edilməsini xahiş etdim. Behbud cəsarət göstərdi. Ertəsi gün 11 aprel 1921-ci il axşam Mustafa Kamil Şahtaxtında qəırargahıma gəldi. Yeməyimi yeyərkən rus tabur komandiri otağıma girib belə sözə başladı:

–Bu gün yanlışlıq olmuş, Mustafa Kamil həbsxanadan buraxılmış, buradadırmı?

–Bəli,burada, budur yemək yeyir,–dedim.

–Mən əmr almışam, onu aparacağam.

–Mən də əmr almışam, onu Kazım Qarabəkirə göndərəcəyəm.

–Necə ola bilər... Deyərkən mübahisə, münaqişə qızışdı. Bu gün gündüz rusların vahimələnərək panikaya düşməsinə səbəb olan hadisəni ortaya atdı, xalqı əzdiyimizi, onlarla pis rəftar etdiyimizi irəli sürdü.

Mən alay komandirinin öldürdüyü füqəradan başlayaraq etdikləri çirkin hərəkətləri bir-bir açıqca saydım. Bir ara eşiyə çıxdım. Yavərlərin otağına bir manqa süngülü rus

əsgəri doluşmuşdu. Zirehli qatar da stansiyadan zaman zaman yaşadığım binaya projektor salmaqda idi.

Hələ Erivanı zəbt edə bilməmiş olan rusların bizə qarşı zor işlətmək istəmələrini ağlıma sığışdıra bilmirdim. Bir taburumuzun Makuya getməsi onların ümidlərini artıra bilərdi. Bununla belə hər ehtimala qarşı bizim qərargaha doluşmuş süngülü ruslara qarşılıq olaraq bir manqa əsgər gətirməsi üçün leytenant Səadəddini göndərdim, özüm də içəri girdim.

Bir müddət ikimiz də susduq.Mən bu axşam dananın quyruğu qopacaq deyə fikrə gedərkən bolşevik komandiri atılıb düşdü:

–Mən indi Mustafa Kamili götürüb aparsam nə eləyərsən!,–dedi.

Buna cavab vermədim. Qarşımda oturan taburun əmr zabiti leytenant Tahsinə müraciətlə...

–Haydı...silah başına...deyə əmr etdim.

Tahsin topuqlarını, dizlərini bir birinə vurub eşiyə çıxıncaya qədər bolşevik komandiri də məsələni tərcüməçidən öyrəndi...Dərhal ayağa qalxdı. Tahsin bəyə dönərək rusca:

–Lazım deyil, lazım deyil,–dedi. Onu dayandırdı. Mənə də:

–Gecəniz xeyrə qalsın,–dedi və çıxdı.

Doğrusu, bu məharətə heyran oldum, iki saatdan artıq sürən acı münaqişənin bu qədər maraqlı qurtaracağını heç fikirləşmirdim.

Bir neçə gündən sonra 15 aprel 1921-ci il tarixdə qayıtmaq əmrini aldıq. Sevincimiz böyükdü. Moskva Naxçıvanın istiqlalını təsdiq etmişdi.

SON

## KİTABIN İÇİNDƏKİLƏR


| | | |
|---|---|---|
| | ÖN SÖZ | 3 |
| I | 1919-CU İLDƏ VAN DOLAYLARINDA ÜMUMİ VƏZİYYƏT | 8 |
| II | BƏYAZİD-NAXÇIVAN-BAKI SƏYAHƏTİ | 11 |
| III | NAXÇIVAN | 15 |
| IV | ARAZ TÜRK HÖKUMƏTİ | 16 |
| V | ARAZ TÜRK HÖKUMƏTİNİN AZADLIQ MÜBARİZƏSİ | 21 |
| VI | NAXÇIVAN ŞURA HÖKUMƏTİ | 25 |
| VII | ERMƏNİLƏR İSTİLA HƏRƏKƏTLƏRİNƏ BAŞLAYIR | 29 |
| VIII | NAXÇIVANA HƏRBİ YARDIM | 31 |
| IX | ERMƏNİLƏRİN NAXÇIVANA HÜCUMU | 34 |
| X | ŞƏRUR ŞAYİƏSİNDƏN SONRA | 37 |
| XI | ERMƏNİLƏRİN MƏKTUBUNA NAXÇIVANLILARIN CAVABI | 40 |
| XII | ERMƏNİLƏRİN TƏKRAR HÜCUMA KEÇMƏSİ | 42 |
| XIII | İRAN ƏRAZİSİNDƏ | 45 |
| XIV | NAXÇIVANA GEDİŞ | 50 |
| XV | BOLŞEVİKLƏRDƏ NİZAM-İNTİZAM | 53 |
| XVI | AVQUST AYI BOŞ KEÇDİ | 56 |

XVII ORDUBAD DAĞLARINDA 58

XVIII BOLŞEVİKLƏRDƏ SEÇKİ 62

XIX BİR DESPOT, DİKTATİOR AXTARILIR 64

XX ŞAHTAXTINI ALMAQ ÜÇÜN HAZIRLIQ 66

XXI YENİ HÜCUM PLANINDA "OLMASA DA OLAR" XANƏSİNİ AÇMAĞA MƏCBUR OLDUQ 69

XXII ZİREHLİ QATAR NECƏ ZƏBT EDİLƏR? 74

XXIII ERMƏNİLƏRİN MÜFRƏZƏNİ MƏHV ETMƏK PLANI 76

XXIV CÜT MÜVƏFFƏQIYYƏT 79

XXV QARATƏPƏ KƏŞFİYYATINDAN ÇIXAN MÜNAQİŞƏ 81

XXVI ERMƏNİSTANI SÜLHƏ MƏCBUR EDƏN SƏBƏBLƏR HAQQINDA BİR AÇIQLAMA 83

XXVII BOLŞEVIK KOMANDİR İLƏ YOLDAŞLIQ 86

XXVIII RUSLAR ERİVANI ALDIQDAN SONRA BİZƏ QARŞI SOYUQ MÜBARİZƏYƏ BAŞLADILAR 89

XXIX GƏRGİN VƏZİYYƏTLƏR 91

XXX BOLŞEVİK QÜVVƏLƏRİ ARTIRILDI 95

XXXI ERİVAN BOLŞEVİKLƏRƏ ÜSYAN ETDİ 97

XXXII SON MÜNAQİŞƏ 100

GENERAL VEYSƏL ÜNÜVAR

# NAXÇIVAN:
# *TƏLATÜM VƏ BURULĞANLAR*
*(1920-1921)*


*Nəşriyyat redaktoru:*
**Muxtar QASIMZADƏ**

*Texniki redaktoru*
*və kompüter tərtibatı:*
**Rafael BABAYEV**

Yığılmağa verilmiş 12.04.2006. Çapa imzalanmış 26.04.2006.
Formatı 60X90 1/16 "Times" qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 6.5 ç.v.
Sifariş № 296. Tiraj 1000 nüsxə.

"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi.
Naxçıvan şəhəri, Təbriz küçəsi, 1.